RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 284 (9163) ÇƏRŞƏNBƏ AXŞAMI, 27 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri



## Sankt-Peterburqun "Pulkovo-2" Hava Limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının iclasında iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfər edib.

AZƏRTAC xəbər verir ki, Sankt-Peterburq şəhərinin "Pulkovo-2" Hava Limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov, Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi naharında iştirak edib

Dekabrın 26-da Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi naharı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

## Səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri dekabrın 26-da başa çatıb.

# Sankt-Peterburqda MDB dövlət başçılarının iclası keçirilib

Dekabrın 26-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Rusiya Prezidenti Vladimir Putin iclasda çıxış edib.







# Qərbi Azərbaycana qayıdış strateji hədəfdir

### Gündəlikdəki növbəti tarixi məsələ budur



**"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".**

Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı qətiyyətlə vurğuladığı kimi, vaxtilə yurdundan deportasiya edilən yüzminlərlə Qərbi Azərbaycandan olan soydaşımız da tarixi torpaqlarına qovuşacaqlar.

Vətən müharibəsində parlaq qələbə qazanaraq Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı qətiyyətlə gerçəkləşdirən Azərbaycan dövlətinin növbəti tarixi hədəfi qərbi azərbaycanlıların pozulan hüquqlarını bərpa edərək onları əzəli yurdlarına qaytarmaqdır.

### Tariximizin qara səhifələri

Tarixi mənbələrdən də aydın göründüyü kimi, erməni millətçiləri "dənizdən-dənizə" böyük imperiya xülyasına qapılaraq XIX-XX əsrlərboyu Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti yürüdüblər. Mərhələli şəkildə həyata keçirilən məkrli plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovulublar, kütləvi qətl və qırğınlara məruz qalıblar.

→ 5

# "Möhtəşəm ölkəniz regional liderdir"

### İsrail Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!

Hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırır və qarşıdan gələn ildə Sizə xoşbəxtlik və cansağlığı arzulayıram.

Bu fürsətdən istifadə edərək Azərbaycanın illər boyu qoruyub saxladığı adət-ənənə və dəyərlərə heyran olduğumu bildirmək istəyirəm. Azərbaycan müsəlman dünyasında yaranan ilk demokratik respublikadır və möhtəşəm ölkəniz regional liderdir.

Azərbaycanda müxtəlif dinlərə və mədəniyyətlərə mənsub olan vətəndaşların harmoniya və qarşılıqlı hörmət şəraitində birgəyaşayışı məni xüsusilə heyran edir. Ölkəniz bütün dinlərin nümayəndələrinin sülh və əməkdaşlıq şəraitində birgə yaşamasının dünyaya parlaq nümunəsidir. Novruz, Hanuka, Milad və Yeni il bayramlarının qeyd olunması bu inklüzivliyə və anlaşmaya sadiqliyin sübutudur.

Mən həmçinin zati-aliniz və hökumətiniz tərəfindən Azərbaycandakı yəhudi icmasına göstərilən dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Siz İsrail Dövlətinin və yəhudi xalqının dostusunuz, biz Azərbaycanın səfirliyinin açılmasını və İsrailə səfərinizi səmimi münasibətlərimizin daha da möhkəmlənməsi baxımından səbirsizliklə gözləyirik.

Zati-aliləri, bu il doğum gününüzün nur və firavanlıq rəmzi olan Hanuka bayramı günlərinə təsadüf etməsi xüsusilə əlamətdardır. Bu münasibətlə bir daha səmimi təbriklərimi və qarşıdan gələn ildə xoşbəxtlik və cansağlığı diləklərimi qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

## F.Ş.Bədəlbəylinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fərhad Şəmsi oğlu Bədəlbəyli "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2022-ci il*





## Erməni yalanlarına inanan yoxdur

Bizə "humanizm naminə" müraciət edənlər bilirlərmi ki, Ermənistan 10 noyabr Bəyanatının şərtlərini açıq surətdə pozur? Ermənistan Qarabağdan silahlı birləşmələrinin qalıqlarını hələ də çıxarmayıb.

→ 7

## İranda ümummilli etirazlar davam edir

Ölkə rəsmiləri etirazların səngiməsi üçün aksiyalar başladığı gündən çıxışlarında tələblərin nəzərə alınacağını, müəyyən proseslərin getdiyini desələr də, görünən odur ki, bunlar boş vədlərdən başqa bir şey deyildir.



→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident.

Möhtərəm İlham Heydər oğlu.

Siz Azərbaycanın görkəmli dövlət xadimi, böyük Heydər Əliyevin göstərişləri və vəsiyyətləri əsasında istedadlı Azərbaycan xalqının dövlətçiliyini, ənənəvi mədəniyyətini inkişaf etdirən və milli mənliyini bərpa edən insansınız.

Möhtərəm İlham Heydər oğlu, Siz xalqın əsl Prezidenti, mərd və müdrik rəhbəri, qəhrəman Azərbaycanın mənəviyyatı, istək və amalları, perspektivləri ilə sıx bağlı olan lidersiniz.

Dağıstanı və şəxsən məni hər zaman dəstəklədiyinizə görə əbədi məsləkdaşınız və dostunuz kimi Sizə təşəkkür edirəm.

*Səmimiyyətlə və dərin hörmətlə,*

***Ramazan ABDULATİPOV,***
***Rusiya Federasiyasının İslam Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan beynəlxalq arenada layiqli yer tutur və regional gündəlikdə həlledici rol oynayır.

Sizin həyata keçirdiyiniz sosial-iqtisadi siyasət respublikada sabitliyi və tərəqqini təmin edir.

Ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqliyin inkişafına Sizin şəxsi töhfənizi Rusiyada yüksək qiymətləndirirlər. Bu tərəfdaşlıq və müttəfiqliyin potensialı əsla tükənməyib. Sizə Azərbaycanın rifahı və xalqlarımız arasında dostluğun möhkəmlənməsi naminə bütün təşəbbüslərinizdə tükənməz enerji və uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Dmitri KOZAK,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çoxşaxəli fəaliyyətiniz Sizin müasir dövrün nüfuzlu dövlət və siyasi xadimi kimi böyük istedadınızı parlaq şəkildə üzə çıxarıb. Siz ölkənizin Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi, sosial və siyasi inkişaf strategiyasını ardıcıl surətdə həyata keçirirsiniz.

Yüksək peşəkarlıq, zəngin həyat təcrübəsi, ən mürəkkəb vəziyyətlərdə siyasi kompromis tapmaq bacarığı, vətəndaşların mənafeyi naminə sosial siyasətin ardıcıl surətdə həyata keçirilməsi Sizə dərin hörmət, etimad və nüfuz qazandırıb.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, çoxmillətli Azərbaycanın rifahı naminə qarşıda duran vəzifələrin həyata keçirilməsində yeni uğurlar, firavanlıq, əmin-amanlıq, xoş günlər, səadət və tərəqqi arzu edirəm.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-in Katibliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Sizin beynəlxalq hüququn normalarına söykənən əsas prinsiplərinizdə təsbit olunduğu kimi, müharibədən sonra sülhün, sabitliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində yorulmaz, ardıcıl və əlaqələndirilmiş səylərinizi yüksək qiymətləndirir və dəstəkləyirik.

Biz işğaldan azad edilmiş Azərbaycan torpaqlarının bərpa edilməsi və yenidən qurulması, bu ərazilərin ölkənin sosial-iqtisadi həyatına inteqrasiyası istiqamətində əldə olunan uğurlara heyranıq.

Biz həmçinin yeni yaranmış beynəlxalq təhlükəsizlik və əlaqə baxımından strateji əhəmiyyəti getdikcə artan regionumuzda sülhün, sabitliyin, əməkdaşlığın və inkişafın təşviq edilməsi üçün Sizin rəhbərliyinizlə GUAM çərçivəsində Azərbaycan Respublikası ilə əməkdaşlığın daha da möhkəmlənməsinə və genişlənməsinə ümid edirik və bunu səbirsizliklə gözləyirik.

Zati-aliləri, fürsətdən istifadə edərək bir daha doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, eləcə də güclü, müasir, demokratik və firavan Azərbaycanın daha da inkişafı naminə fəaliyyətinizdə mühüm nailiyyətlər əldə etmək üçün Sizə möhkəm cansağlığı və güc-qüvvət arzulayıram.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-in Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz dövlət başçısı vəzifəsində çalışdığınız illər ərzində Azərbaycanın sosial-iqtisadi inkişafı və onun vətəndaşlarının rifahı üçün çox iş görmüsünüz. Ölkədə dinlərarası dialoqun dəstəklənməsinə, milli və mədəni müxtəlifliyin qorunub saxlanmasına yönələn səylərinizi də qeyd etmək istərdim.

Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyası ilə qarşılıqlı əlaqələrinin möhkəmlənməsinə verdiyiniz töhfəyə görə Sizə minnətdaram. Ümidvaram ki, bu cür əməkdaşlıq müasirlərimizin həyatında yüksək əxlaqi ideallarının təsdiqlənməsinə, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə, sülhün və ictimai həmrəyliyin dəstəklənməsinə bundan sonra da kömək edəcək.

Sizə möhkəm cansağlığı və ruh yüksəkliyi, Uca Yaradanın köməyini, doğma ölkənizin və həmvətənlərinizin rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və bütün Rusiyanın patriarxı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Müasir Azərbaycanın qazandığı bütün böyük nailiyyətlər və qələbələrdə Sizin xüsusi rolunuzu qeyd etmək istəyirəm.

Mütərəqqi dünyada Azərbaycanın və dost ölkələrin xalqları arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişafına Sizin şəxsi töhfəniz, beynəlxalq miqyasda respublikanızın nüfuzunun sürətlə artması yüksək qiymətləndirilir. Enerji ehtiyatları ilə təchizat sahəsində yeni mühüm razılaşmalar Avropa İttifaqı ilə strateji tərəfdaşlığın hərtərəfli şəkildə möhkəmlənməsinin vacib amilləridir. Əminəm ki, həmin razılaşmaların ardıcıl surətdə reallaşması iştirakçı ölkələrin mənafelərinin təmin edilməsinin və qonşuluq münasibətlərinin inkişafının parlaq nümunəsi olacaq.

Hörmətli İlham Heydər oğlu, Siz müasir dünya tarixinə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin olunması, işğal altındakı torpaqlarınızın azad edilməsi uğrunda mübarizəyə uğurla başçılıq etmiş Müzəffər Ali Baş Komandan kimi düşmüsünüz. Milli lider və müdrik dövlət xadimi kimi Sizi hələ qarşıda bir sıra mühüm işlər gözləyir. Tarixi missiyanızın həyata keçirilməsi yolunda Sizə uğurlar arzu edirəm. Qoy həyatınızın hər günü Sizə möhkəm cansağlığı və yaxşı əhvali-ruhiyyə bəxş etsin, sədaqətli məsləkdaşlarınız, həmfikirləriniz, köməkçiləriniz, doğmalarınız, dostlarınız daim yanınızda olsunlar.

Doğum gününüz mübarək, cənab Prezident!

*Hörmətlə,*

***Aureliya QRİQORİU,***
***2008-2015-ci illərdə Moldova Respublikasının ombudsmanı, İctimai Palatanın sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Şimali Makedoniya Türk Demokratik Partiyası, Şimali Makedoniya türkləri adından və şəxsən öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Çox xoşdur ki, zati-alinizin liderliyi ilə Azərbaycan Respublikasının gündən-günə gücləndiyinə və beynəlxalq miqyasda layiq olduğu mövqeyə çatdığına şahidlik edir, türk dünyası olaraq bununla sonsuz qürur duyuruq. Türkiyə Respublikası və Azərbaycan Respublikası başda olmaqla bütün türk dövlətləri güclü olduqca Balkan ölkələrində yaşayan biz türklər də güclü qala biləcəyimizə inanırıq.

Yeni yaşınızda Sizə cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycandakı bütün soydaşlarımıza rifah və əmin-amanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Beycan İLYAS,***
***Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı nümayəndəliyi adından doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram. Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, tükənməz enerji, ölkənizin və xalqınızın rifahı üçün göstərdiyiniz səylərdə davamlı uğurlar arzulayıram.



Fürsətdən istifadə edərək Azərbaycan hökuməti və BMTİP arasındakı uzunmüddətli səmərəli tərəfdaşlığa görə Sizə ən səmimi minnətdarlığımı bildirirəm. BMTİP-nin 2021-2025-ci illər üçün Ölkə Proqramı Sənədinə uyğun olaraq proqramların genişləndirilməsinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında hökuməti dəstəkləməyə hazır olduğumuzu bir daha diqqətinizə çatdırmaq istərdim.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Çaru BİSTA,***
***BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən***

❖ ❖ ❖

Hörmətli cənab Prezident,

Avropa Velosipedçilər Birliyinin İdarə Heyəti adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Son vaxtlar Azərbaycanda velosiped idman növü böyük dəyişikliklər yaşayır və Sizin tərəfinizdən dəstək görür. Sizin ölkənizdə gənclər və idman sahəsinin inkişafına göstərdiyiniz köməyi yüksək qiymətləndiririk.

İnanıram ki, Siz bundan sonra da Azərbaycanda velosiped idman növünün hərtərəfli inkişafına diqqət yetirəcək və dəstək verəcəksiniz.

Mən Azərbaycanda yenidən nüfuzlu velosiped yarışlarının keçirilməsini arzu edirəm.

*Hörmətlə,*

***Enriko Della KASA,***
***Avropa Velosipedçilər Birliyinin prezidenti***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən və böyük məmnuniyyətlə təbrik edirəm. Ən səmimi arzularımı, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar diləklərimi, ən yüksək ehtiramımı qəbul edin. Sizin həyat və fəaliyyətiniz Azərbaycan xalqının həyatı və taleyi ilə ayrılmaz surətdə bağlıdır. Siz xalqınızın rifahı üçün qüvvə və səylərinizi əsirgəmirsiniz. Sizin biliyiniz, təcrübəniz, iradəniz, doğma respublikanıza sevginiz, geniş dünyagörüşünüz və idarəçilik istedadınız sanballı nəticələr verib və Azərbaycanın imkanlarının daha da inkişaf etdirilməsi ilə bağlı ən mürəkkəb məsələlərin həllinə, onun mənafelərinin müdafiəsinə və vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Dəfələrlə demişəm və bir daha təkrar edirəm, Siz dahi atanızın layiqli varisi və onun işlərinin istedadlı davamçısısınız. Bu gün o, Sizinlə fəxr edərdi, çünki Siz Heydər Əliyevin Azərbaycan üçün doğru inkişaf yolu tapmaq, müstəqillik, beynəlxalq arenada respublikanın siyasi, iqtisadi və sosial mövqelərinin möhkəmlənməsində sanballı uğurlar qazanmaq arzularını həyata keçirirsiniz.

Hörmətli İlham Heydər oğlu, Sizin artıq püxtələşmiş, təcrübəli, qətiyyətli, uzaqgörən, alicənab dövlət xadimi kimi davam etdirdiyiniz siyasət hərtərəfli ölçülüb-biçilmiş siyasətdir. Fərəhlə qeyd edirəm ki, cari ildə qəbul olunmuş Moskva Bəyannaməsində Moskva ilə Bakının müttəfiqlik münasibətləri kimi elan edilmiş dostluq və mehriban qonşuluq münasibətləri Sizin sayənizdə bu gün yeni, daha yüksək səviyyəyə çatıb. Rusiya tərəfi Azərbaycan ilə dostluğu səmimi-qəlbdən yüksək qiymətləndirir və bu, Cənubi Qafqazdakı bütün dövlətlərlə münasibətləri inkişaf etdirməyə, həmin regionda etimad, sülh və təhlükəsizlik tədbirlərini möhkəmlətməyə imkan verir. Bu münasibətlər, şübhəsiz, tarixdə Sizin adınızla qalacaqdır. Bizim yoldaşlıq münasibətlərimizə görə çox məmnunam və bunu yüksək qiymətləndirirəm. Sizinlə və mehriban ailənizlə görüşlərə həmişə şadam.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizə bir daha möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və uğurlar, Sizin şəxsinizdə bütün əməksevər Azərbaycan xalqına firavanlıq, nailiyyətlər, sülh, tərəqqi arzularımı və ən xoş diləklərimi bildirim.

*Hörmətlə, Sizin*

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri, Beynəlxalq məsələlər komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Sizin məramlarınız, gücünüz və enerjiniz Azərbaycanın iqtisadi, sosial, mədəni potensialının möhkəmlənməsinə yönəlib. Sizi yüksək dəyərləndirən təkcə Azərbaycan vətəndaşları deyil, Siz istedadlı və məsuliyyətli lider kimi respublikanın hüdudlarından kənarda da haqlı olaraq böyük nüfuz qazanmısınız.

Azərbaycan Respublikası ilə ənənəvi mehriban qonşuluq, tərəfdaşlıq münasibətləri Rusiya üçün çox mühüm və dəyərlidir. Əminəm ki, bu münasibətlər bundan sonra da inkişaf edəcək.

Sizə möhkəm cansağlığı, səadət və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Sergey MİRONOV,***
***Rusiya Dövlət Dumasının deputatı, "Spravedlivaya Rossiya - Za pravdu" fraksiyasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Sizə şəxsən öz adımdan və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan çoxsaylı dostlarınız adından möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Respublikasının rifahı naminə fəaliyyətinizdə daim sədaqətli dostlar və məsləkdaşlar arzu edirəm. Qoy Sizin hər bir təşəbbüsünüz uğurlu olsun.

*Dərin hörmətlə,*

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz öz həyatınızı nəcib işə - ölkənizə və xalqınıza xidmətə həsr etmisiniz. Azərbaycanın siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə və sosial sahədə uğurları Sizin adınızla bağlıdır. Sizin respublika səhiyyəsinin inkişafına şəxsi töhfənizi yüksək qiymətləndiririk. Azərbaycanda kliniki baza möhkəmlənir, tibbi təhsildə islahatlar aparılır, elmi sahəyə dövlət hərtərəfli dəstək göstərir. Seçenov adına Universitetin Bakı filialının uğurlu inkişafını qeyd etmək xüsusilə xoşdur.

Sizin sevimli ölkənizə səmimi-qəlbdən tərəqqi, Sizə isə möhkəm cansağlığı, əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi Rusiya-Azərbaycan Dostluq Cəmiyyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz haqlı olaraq dünyada bütün qüvvənizi Azərbaycan xalqının rifahı naminə fəaliyyətə sərf edən müdrik siyasi xadim və təcrübəli dövlət xadimi kimi şöhrət və nüfuz qazanmısınız.

Biz Azərbaycan-Rusiya münasibətlərinin inkişafına, Azərbaycanda və Rusiyada yaşayan həmvətənlərin dəstəklənməsinə Sizin töhfənizi çox yüksək qiymətləndiririk.

Bu əlamətdar gün münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Yefim PİVOVAR,***
***Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Rusiya Dövlət Humanitar Universitetinin rektoru, akademik***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi və şəxsən mən Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Siz bir dəfə TASS İnformasiya Agentliyinə müsahibənizdə demişdiniz ki, insanlarla canlı ünsiyyət Sizə zamanın nəbzini tutmaq, insanları nəyin narahat etdiyini bilmək imkanı verir. Mənim fikrimcə, bu, Sizin siyasətinizin uğurunun əsas reseptlərindən biridir. İnsanların ehtiyaclarına həssas münasibət və bütün xalqın dəstəyi Azərbaycan cəmiyyətinə zamanın çağırışlarının öhdəsindən uğurla gəlməyə imkan verən ən mühüm amildir. Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən genişmiqyaslı layihələr respublikanın inkişaf vektorunu illərcə qabaqcadan müəyyən edir. Azərbaycanın uğurları, onun sosial-iqtisadi potensialının və beynəlxalq nüfuzunun möhkəmlənməsi Sizin bütün daxili resursları birləşdirmək, onları dövlətin mənafelərinin müdafiəsinə yönəltmək bacarığınızın nəticəsidir.

Ölkələrimizi sıx strateji tərəfdaşlıq münasibətləri bağlayır. Siz bu münasibətlərin möhkəmlənməsi üçün ciddi səy göstərirsiniz.

TASS İnformasiya Agentliyində bizim informasiya sahəsində əməkdaşlığımızın, o cümlədən dövlət kütləvi informasiya vasitələri arasında əməkdaşlığın inkişafına Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirlər.

Ümidvaram ki, bu məsələlərdə səmərəli qarşılıqlı fəaliyyətimiz davam edəcək.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə təşəbbüslərinizdə yeni-yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Sergey MİXAYLOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Xahiş edirəm, doğum gününüz münasibətilə Rusiyanın TASS İnformasiya Agentliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

Siz görkəmli siyasi xadim və Ali Baş Komandan olaraq Azərbaycanın mənafelərini ardıcıl surətdə və inamla müdafiə edir, vətəndaşlarınızın təhlükəsizliyini qoruyur, onların rifahını yüksəldirsiniz.

Uzun illər boyu ölkəni müdrikliklə və səmərəli idarə etməyiniz Azərbaycanın davamlı iqtisadiyyatını, qabaqcıl texnologiyalarını, güclü ordusunu, humanitar sahədə ciddi və parlaq nailiyyətlərini uğurla təmin edib.

Ölkə vətəndaşları sosial baxımdan yüksək səviyyədə qorunur və onlar gələcəyə inamla baxırlar.

İcazə verin, həyatınızın bu əlamətdar günündə Sizə uğurlar və nailiyyətlər, sevinc və xoşbəxtlik, ən başlıcası, möhkəm cansağlığı arzulayım.

Qoy Sizin bütün şəxsi və peşəkar planlarınız həyata keçsin.

Sizə və Azərbaycan Respublikasının xalqına xoş günlər və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Mixail QUSMAN,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini***

❖ ❖ ❖

Hörmətli cənab Prezidentimiz.

Mərmərə Qrupu Vəqfi adından Sizi doğum gününüz və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etməkdən böyük məmnunluq hissi duyuram.

Sizə cansağlığı və əmin-amanlıq arzulayır, 2023-cü ilin ölkələrimizə və bütün bəşəriyyətə sülh gətirəcəyini ümid edirik.

Doğum gününüz mübarək!

*Dərin hörmətlə,*

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan sevinc duyuram. Sizə hamının şahidi olduğu inkişafa, rəhbərliyiniz sayəsində dost Azərbaycan xalqının nail olduğu tərəqqi və firavanlığa, ölkənizin beynəlxalq aləmdə mövqeyinin yüksəlməsinə xidmət edən fədakar fəaliyyətinizə, Azərbaycan xalqının və ölkə rəhbərliyinin dəyanət və qüdrəti hesabına dövlətinizin beynəlxalq birliyin təqdirini qazanmasına görə dərin minnətdarlığımızı ifadə edirik.

Sizin rəhbərliyiniz sayəsində Küveyt Dövləti ilə Azərbaycan Respublikası arasında münasibətlər təqdirəlayiq səviyyədə böyük inkişafa nail olmuşdur. Bu isə Elektron Media Birliyində biz jurnalistlərə və şəxsən mənə Azərbaycan xalqının, onun öz ərazi bütövlüyü və suverenliyi ilə bağlı hüquqlarının dəstəklənməsinə və erməni təcavüzünün pislənməsinə stimul vermişdir.

Jurnalist olaraq kütləvi informasiya vasitələrindəki rolumuz çərçivəsində beynəlxalq sahədə malik olduğumuz gücümüzlə öz qanuni hüquqlarına nail olanadək dost ölkənizə güclü dəstəyimizi nümayiş etdirmişik.

Biz təkcə ölkələrimiz arasındakı münasibətlərə deyil, həmçinin yüksək hesab etdiyimiz müdrik idarəçilik siyasətinizə, dövlətə rəhbərliketmə gücünüzə və dünyagörüşünüzün zənginliyinə görə Sizə fəxr və təqdirlə yanaşırıq.

Sizi ürəkdən təbrik edir və möhkəm cansağlığı arzulayıram.

*Hörmətlə,*

***Feysəl Xəlifə ƏL-SƏVVAĞ,***
***Küveyt Elektron Media Birliyinin***
***İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Rusiya Federasiyasında yaşayan azərbaycanlılar adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir və doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi həyatda inamla irəliləyərək sanballı uğurlar qazanır. Siz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yolunu layiqincə davam etdirir, ölkənin və xalqın rifahı naminə çox böyük işlər görürsünüz. Bütün bu işlərin sayəsində Azərbaycan dünya arenasında böyük nüfuz qazanıb.

Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, firavanlıq və Azərbaycan xalqının rifahı naminə bütün planlarınızın uğurla həyata keçməsini diləyirəm.

*Səmimi hörmətlə,*

***İlqar HACIYEV,***
***Rusiya Azərbaycanlıları Konqresinin rəhbəri,***
***Rusiya Federasiyasının fəxri vəkili***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edək. Siz Vətənimizi Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliyə apararaq böyük uğurlara nail olmusunuz. Məqsədyönlü siyasətiniz nəticəsində Azərbaycanın müstəqilliyi və dövlətçiliyi son dərəcə möhkəmlənmiş, ölkəmizin iqtisadiyyatı inkişaf etmiş, xalqımızın rifahı yaxşılaşmışdır.

Bütün Azərbaycan xalqı Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsində Sizin əvəzsiz xidmətlərinizi yüksək qiymətləndirir. Siz bu Zəfərlə milyonlarla azərbaycanlının gözünə nur qaytardınız.

Sizi əmin etmək istəyirik ki, biz azərbaycanlıların tarixi Vətəni ətrafında sıx birləşməsinə, ölkəmizin adının daha da ucaldılmasına yönəlmiş siyasətinizi yüksək qiymətləndirir, bu müqəddəs məqsədə daim sadiq olacağımızı bir daha bəyan edirik.

Doğum gününüz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, ailə səadəti, xoş əhvali-ruhiyyə, Azərbaycanın rifahı və inkişafı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Natiq BAĞIROV,***
***Belarus Respublikasındakı***
***Azərbaycan İcmaları Konqresinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Moldova Azərbaycanlıları Konqresinin Şurası Moldova Respublikasındakı Azərbaycan icması adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Uzaqgörən və cəsarətli lider kimi Sizə heyranıq. Sizin müdrik rəhbərliyinizlə doğma Azərbaycanımız ilbəil daha da güclənir, tərəqqi və firavanlıq yolunda irəliləməkdə davam edir.

Sizin Azərbaycan xalqının rifahı naminə qətiyyətli və uğurlu addımlarınızı qürur hissi ilə izləyirik. Sizi əmin edirik ki, Vətənimizin mənafelərini qorumaqda davam edəcək, zəngin ənənələrimizi yaşadacaq və azərbaycanlıların böyüməkdə olan yeni nəslini bu ənənələr ruhunda tərbiyə edəcəyik.

Cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, Azərbaycanın daha sürətli inkişafı naminə bütün planlarınızın həyata keçməsi üçün tükənməz enerji arzulayırıq.

*Hörmətlə,*

***Elçin BAYRAMOV,***
***Moldova Azərbaycanlıları Konqresinin sədri***

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Amerika Azərbaycanlılarının Koordinasiya Şurası və Şuraya daxil olan təşkilatlar adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Vətənin rifahı naminə səmərəli fəaliyyətiniz, işgüzar və şəxsi keyfiyyətləriniz, mürəkkəb məsələləri effektiv həll etmək bacarığınız haqlı olaraq Sizə doğma Azərbaycanda və onun hüdudlarından kənarda böyük nüfuz və dərin hörmət qazandırıb.

Azərbaycanın tarixində çox böyük əhəmiyyəti olan Vətən müharibəsində Qarabağın işğaldan azad olunması ilə nəticələnən Qələbə Sizin uzaqgörənliyiniz, müdrik rəhbərliyiniz, qətiyyətli qərarlarınız, xalqımıza inamınız sayəsində əldə edildi. Müharibədən sonra Sizin səyləriniz nəticəsində Qarabağda aparılan sürətli yenidənqurma işlərinin nəticələri təqdirəlayiqdir. Azərbaycan Sizin müdrik rəhbərliyinizlə sosial-iqtisadi inkişafda böyük uğurlar qazanır və beynəlxalq arenada öz nüfuzunu durmadan möhkəmləndirir.

Sizin xaricdəki diaspor təşkilatlarımızın fəaliyyətinə verdiyiniz dəstəyi yüksək dəyərləndirirk. Biz ABŞ-də fəaliyyətimizi daha da səmərəli təşkil edərək Azərbaycan həqiqətlərini Amerika ictimaiyyətinə çatdırmaqda davam edəcəyik. Dünya Azərbaycanlılarının zəfər qurultayında Sizin tövsiyələriniz bizim fəaliyyətimiz üçün çox önəmli və dəyərlidir.

Fürsətdən istifadə edərək doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq.

Doğum gününüz və qarşıdan gələn Yeni iliniz mübarək olsun!

*Dərin hörmətlə,*

***Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının İdarə Heyəti və üzvləri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri adından və şəxsən öz adımdan Sizi - Azərbaycanımızın möhtəşəm qələbəsinin müəllifini, Ulu Öndərimiz Heydər Əliyevin layiqli varisini doğum günü münasibətilə təbrik edir, ən xoş arzularımızı çatdırıram.

Zati-alinizin Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı ilə bağlı arzu və vəsiyyətlərini həyata keçirmək üçün yürütdüyünüz humanist və sülhsevər siyasət nəticəsində doğma Azərbaycanımızın müstəqilliyinin möhkəmlənməsi, prezident-xalq-ordu həmrəyliyi ilə qazanılan tarixi Zəfər bizi olduqca fərəhləndirir, Vətənimizdən kənarda azərbaycançılıq naminə yeni-yeni nailiyyətlər qazanmağa səfərbər edir.

Azərbaycanda həyata keçirilən islahatları, ölkəmizin siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığının genişləndirilməsi istiqamətində gördüyünüz işləri, eləcə də diaspor fəaliyyətinin gücləndirilməsinə verdiyiniz dəstəyi yüksək qiymətləndiririk.

Hörmətli cənab Prezident, bu xoş fürsətdən istifadə edərək Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor,***
***Ukraynanın Əməkdar təhsil işçisi,***
***Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz öz vətəndaşlarının rifahının qayğısına qalan müdrik və məsuliyyətli rəhbər kimi haqlı olaraq yüksək nüfuz və hörmət qazanmısınız. Sizin rəhbərliyinizlə respublika hərtərəfli davamlı inkişafda mühüm uğurlara nail olur, dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Rusiya-Azərbaycan münasibətləri Rusiya və Azərbaycan xalqlarının rifahı naminə möhkəmlənir. Həmvətənlər hansı ölkədə yaşamalarından asılı olmayaraq, sizi dəstəkləyir və Sizinlə fəxr edir, Azərbaycanın sabitliyi və tərəqqisi üçün əllərindən gələni əsirgəmirlər.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, davamlı inkişaf yolu ilə daim əminliklə addımlamağı, nəzərdə tutduğunuz bütün strateji qərarların həyata keçməsi üçün tükənməz enerji arzulayırıq.

Sizə və Azərbaycan xalqına rifah diləyirəm.

*Hörmətlə,*

***Mayis MƏMMƏDOV,***
***Novosibirsk vilayəti Qanunvericilik Məclisinin komitə sədri***

# Azərbaycan və Türkiyə arasında hüquqi sahədə əməkdaşlıq daha da genişləndirilir







**Prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatların mühüm hissəsi kimi beynəlxalq əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli formatlar çərçivəsində, eləcə də regional və ixtisaslaşdırılmış beynəlxalq təsisatlarla yeni əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu sahədə həyata keçirilən kompleks tədbirlərin məntiqi davamı olaraq Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti baş prokuror Kamran Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdədir.

Nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər.

Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyublar. Həmçinin Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib.

Sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilib. Tədbir zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdirildiyi xüsusilə qeyd olunub.

Baş prokuror Kamran Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan dərin islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Kamran Əliyev 44 günlük Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqının ölkəmizə öz siyasi və mənəvi dəstəyinə görə minnətdarlığını bildirib, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma prosesində mövcud strateji əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri, Hakimlər və Prokurorlar Şurasının Təftiş İdarəsinin rəisi Osman Nuri təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini deyib. O, iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olduğunu və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə dəstək verəcəklərini xüsusilə diqqətə çatdırıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat yaradıb.

Nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.

# Konstitusiya Məhkəməsinin sədri beynəlxalq konqresdə iştirak edib



**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın dəvəti ilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin konstitusiya nəzarət orqanlarının konqresində iştirak etmək üçün İstanbulda işgüzar səfərdə olub.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dolmabağça sarayında keçirilmiş konqresdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış nitqi söyləyib.

Tədbirin birinci sessiyası əsas hüquqların müdafiəsində yuxarı instansiya məhkəmələrinin roluna, ikinci sessiyası isə İslam ölkələrində konstitusiya nəzarətinin müxtəlif modellərinə həsr olunub.

Konqresdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək ölkəmizdə insan hüquq və azadlıqlarının konstitusiya ədalət mühakiməsi yolu ilə təmin olunmasından söz açıb, İslam ölkələri arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Konqres zamanı İşçi Komitə tərəfindən hazırlanmış Nizamnamə qəbul edilib.

Sonda qəbul edilmiş İstanbul Bəyannaməsində qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinin təmin edilməsi məqsədilə konstitusiya məhkəmələri arasında təcrübə və məlumat mübadiləsini həyata keçirərək yeni təsisatın yaradılması və onun "İslam Dünyasının Konstitusiya Yurisdiksiyaları Konfransı" adlandırılması razılaşdırılıb.

Həmçinin Türk Dövlətləri Təşkilatına Üzv Dövlətlərin Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) iclası keçirilib.

Səfər çərçivəsində Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri, hakimləri və Aparatın rəhbərliyi ilə ikitərəfli işgüzar görüşlər keçirilib, məhkəmə təcrübəsi və qarşılıqlı məhkəmə-hüquq əməkdaşlığı ilə bağlı hüquqi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirlərdə həmçinin Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva da iştirak edib.



# Güzəşt tətbiq ediləcək

**Dekabrın 26-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitənin sədri Musa Quliyev bildirib ki, gündəliyə bir məsələ - "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) daxil edilib.**

Qanun layihəsi barədə danışan komitə sədri birinci oxunuşundan sonra layihə üzərində gedən iş barədə məlumat verib. Bildirib ki, məsələ artıq ödənilmiş əmək pensiyasının və əmək pensiyasına əlavənin məbləğinin geri qaytarılması mexanizmləri ilə bağlıdır. Komitə sədri vurğulayıb ki, sənəddə pensiyaçıların mənafeyi və sosial müdafiəsinin qorunması, ədalətlilik və humanizm prinsipləri əsas götürülüb.

Sonra layihə barədə məlumat verən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, qanun layihəsi əmək pensiyasına (əmək pensiyasına əlavəyə) görə artıq ödənilmiş məbləğin tutulması müddətinin məhdudlaşdırılması, bununla da son üç ildən əvvəlki dövrlə bağlı ödənişə amnistiyanın (güzəştin) tətbiq edilməsi məqsədilə hazırlanıb. İclasda iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, "Əmək pensiyaları haqqında" qanuna ediləcək dəyişikliklər kifayət qədər balanslı, ədalətli, birbaşa vətəndaşa yönəlmiş bir yanaşmadır. Bu dəyişikliklərdə sosialyönümlü dövlət konsepsiyası rəhbər tutularaq vətəndaşlara, pensiyaçılara yönəlik müsbət bir addım atılır.

Çıxış edən Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səməd Sultanov qanun layihəsi ilə bağlı ekspert rəyini təqdim edib.

Qanun layihəsinin müzakirəsində parlamentin Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, komitənin üzvləri İlham Məmmədov, Aqil Məmmədov, Əziz Ələkbərov, Sevinc Hüseynova, Arzu Nağıyev, Vüqar Bayramov, Rauf Əliyev, Soltan Məmmədov və Ziyad Səmədzadə çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini bildirib və suallarını səsləndiriblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deputatların suallarını cavablandırandan sonra qanun layihəsi ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Daha bir qrup şəxs yüksəktexnologiyalı protezlərlə təmin edilib

**Dekabrın 26-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində müharibə ilə əlaqədar əlilliyi olan daha bir qrup şəxs yüksəktexnologiyalı protezlərlə təmin edilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlarla yanaşı, hər iki qolunu itirmiş, əlilliyi olan bir şəxsin də son nəsil protezlə təminatı həyata keçirilib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksəktexnologiyalı müasir protezlərlə təmin olunmasına başlanılıb.

Ötən dövrdə artıq 379 şəxs yüksəktexnologiyalı 394 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib. Həmin müasir protezlərdən "ÖSSUR" şirkətinin istehsalı olan yuxarı ətraf protezləri xüsusi proqram təminatına malikdir və istifadəçinin sosial həyata daha tez və rahat inteqrasiyasına imkan yaradır.

Habelə "Genium" tipli yüksəktexnologiyalı aşağı ətraf protezləri aktivlik və funksionallığı ilə seçilir və istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



## Şərəflə reallaşan missiya

**Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsi baş verən vətəndaş müharibəsinin qarşısını almaqla ölkənin siyasi və iqtisadi həyatında mövcud tənəzzülü və xaosu aradan qaldırdı.**

Ümummilli Liderin təşəbbüsü və birbaşa iştirakı ilə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi, Qarabağ müharibəsində atəşkəsin elan edilməsi, "Əsrin müqaviləsi"nin bağlanması, ayrı-ayrı anti-Azərbaycan silahlı dəstələrinin ləğv edilməsi respublikamızın sosial-iqtisadi inkişafı üçün möhkəm əsaslar yaratdı və siyasi sabitlik bərqərar oldu. 2006-cı ildən ölkəmizdə həyatın bütün sahələrində yüksəliş başladı.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi on ildə qazanılan nailiyyətləri saxlamaq və daha da inkişaf etdirmək, onun görmək istədiyi Azərbaycanı qurub beynəlxalq aləmdə layiqli yer tutması üçün 2003-cü ilin prezident seçkiləri ilə əlaqədar Azərbaycan xalqına müraciət etdi. Müraciətdə deyilirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli Liderin bu tarixi müraciətindən keçən on doqquz il onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Heydər Əliyevin layiqli varisi olduğunun və Azərbaycan Respublikasını getdikcə daha dərindən qloballaşan dünyada qabaqcıl ölkələrdən birinə çevirdiyinin şahidiyik.

Azərbaycan Respublikası bu illər ərzində hörmətli Prezident İlham Əliyev tərəfindən uğurla idarə olunur və ölkəmiz beynəlxalq aləm və dünyanın aparıcı ölkələri tərəfindən regionun lider ölkəsi kimi qəbul edilir. Hörmətli Prezidentimizin formalaşdırdığı və həyata keçirdiyi iqtisadi siyasətin əsasını iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektoru ilə yanaşı, qeyri-neft sektorunun da müasir elmi-texnoloji əsaslarla inkişafı təşkil edir. Ölkəmizdə sosial və iqtisadi inkişafın qlobal çağırışlara uyğun aparılması sayəsində Azərbaycan Respublikasının iqtisadiyyatı son 19 il ərzində dəfələrlə artmış, valyuta ehtiyatlarımız 53 milyard manatdan artıq olmuşdur. Bu yüksək iqtisadi artıma nail olunması cənab İlham Əliyevin Ulu Öndərin ideyalarına sadiq qalaraq çağdaş dünyanın çağırışlarını dərindən mənimsəyib ölkəmizin sosial və iqtisadi həyatında reallaşdırması ilə bağlıdır.

Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü ildən bütün sahələrdə davamlı olaraq islahatların aparılmasını fəaliyyətinin əsas prioritetlərindən biri olduğunu bildirdi və bu istiqamətdə real işlər görülməyə başlandı. İqtisadiyyatın və sosial həyatımızın bir çox sahələrində, o cümlədən yoxsulluğun aradan qaldırılması, işsizliyin minimuma endirilməsi, regionların inkişafı və digər məsələlərə dair bir neçə dəfə dövlət proqramları qəbul edilmişdir. Bu proqramların yerinə yetirilməsi üçün "Əsrin müqaviləsi"ndən əldə olunan neft gəlirlərinin bir hissəsi bu məqsədlərə sərf edilmiş və yüksək nailiyyətlər qazanılmışdır. Bunun nəticəsidir ki, uzun müddətdir ölkəmizdə işsizliyin və yoxsulluğun səviyyəsi cəmi 5-6 faiz təşkil etməklə minimuma enmiş, vətəndaşlarımızın yaşayış səviyyəsi xeyli yüksəlmişdir. Regionların inkişafında əsaslı dəyişikliklər baş vermiş, respublikamızın istənilən guşəsi müasir insanların yaşayıb işləməsi üçün ən əlverişli şəraitə malik olan məkana çevrilmişdir. Bunun nəticəsidir ki, bir neçə il bundan əvvəl Bakı şəhəri istisna olmaqla, respublikamızın digər şəhər və rayonlarının hamısı dövlət büdcəsindən aldıqları dotasiya hesabına fəaliyyət göstərirdilərsə, artıq son illər cəmi bir neçə rayon dövlət büdcəsindən dotasiya alır.

Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi sahələrdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bu sektorun əsas prioritet istiqamətlərindən biri isə kənd təsərrüfatının inkişafıdır. Çünki kənd təsərrüfatı dövlətin öz vətəndaşları qarşısında götürdüyü əsas öhdəliklərdən biri olan ərzaq təhlükəsizliyinin təmin edilməsində baza rolunu oynaması, habelə böyük əmək tutumlu olmaqla işsizliyin aradan qaldırılmasına əsaslı töhfə verən sahə olması ilə fərqlənir. Kənd təsərrüfatının siyasi əhəmiyyəti və dövlətin varlığında oynadığı rol haqqında hələ XVIII əsrdə yaşamış fransız yazıçısı və mütəfəkkiri, bəstəkarı və botaniki Jan-Jak Russo belə demişdir: "Dövləti müstəqil saxlamağın yeganə vasitəsi - kənd təsərrüfatıdır. Dünyanın bütün var-dövlətinə malik olsan da, əgər yeməyə bir şeyin yoxdursa, onda sən başqasından asılı olursan. Ticarət var-dövlət yaradırsa, kənd təsərrüfatı azadlığı təmin edir". Ona görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kənd təsərrüfatını inkişaf etdirmək üçün ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan aqrar-sənaye kompleksinə çox böyük diqqət və qayğı göstərir. Özü də bu qayğı aqrar-sənaye kompleksini əhatə edən hər üç bölməni, yəni bu bölmənin əsasını təşkil edən kənd təsərrüfatı ilə yanaşı, aqrar maşınqayırma, gübrə, aqrokimyəvi maddələr istehsalı sənayesini və kənd təsərrüfatı məhsullarının emalı, tədarükü və satışı bölmələrini də əhatə edir. Çünki bunlardan hər hansı birinin zəif inkişafı aqrar sahənin səmərəli fəaliyyətini təmin etməyəcək və gözlənilən nəticəni əldə etmək mümkün olmayacaqdır.

Bu məqsədlə keçən dövr ərzində kənd təsərrüfatı məhsul istehsalçılarının 2001-ci ildən başlayaraq torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi nəticəsində fermerlərin dövlət büdcəsinə ödəməli olduqları təxminən 2,5 milyard manata yaxın vəsait onların öz sərəncamında qalaraq istehsalın genişlənməsinə yönəldilmişdir. Bundan əlavə, 2007-ci ildən başlayaraq əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində sərf olunan yanacaq və motor yağlarına, mineral gübrələrə görə, habelə toxumçuluğu və damazlıq işini yaxşılaşdırmaq üçün fermerlərə dövlət büdcəsindən hər il subsidiya ödənilir. Subsidiyalar həm də istehsal edilərək emal müəssisələrinə verilən bir çox məhsullar üzrə də həyata keçirilir. Eyni zamanda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən fermerlərə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, habelə xidmət və infrastruktur (soyuducu və taxıl anbarı kompleksləri) sahələrinin inkişafına dövlət vəsaiti hesabına güzəştli şərtlərlə kreditlər verilmişdir. Bundan başqa, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2005-cı ildən başlayaraq kənd təsərrüfatı texnikası və iribuynuzlu damazlıq heyvanlar güzəştli şərtlərlə fermerlərə lizinqə verilir. Qeyd etmək lazımdır ki, əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm tərkib hissəsi olduğu üçün aqrar sahəyə dövlət dəstəyi mexanizmləri daim təkmilləşdirilir və beynəlxalq təcrübəyə əsaslanan yeni dəstək tədbirləri həyata keçirilir. Belə ki, ixracdan asılılıq ən çox ərzaqlıq buğdaya görə olduğu üçün son dövrlər ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində işğal altında olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisindəki torpaqların işğaldan azad olunması ölkəmizin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılmasına imkanlar açır.

Prezident İlham Əliyev ərzaqlıq buğda ilə idxaldan asılılığı azaltmaq və özünütəminetmə səviyyəsinin yüksəldilməsinə nail olmaq üçün bir sıra tədbirlər haqqında bu il fərman imzalamışdır. Prezident İlham Əliyev ərzaqlıq buğda ilə idxaldan asılılığı azaltmaq və özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında da fərman imzalayıb. Həmin fərmana əsasən, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətində məhsul subsidiyası tətbiq ediləcəkdir. Bu məqsədlə 2023-cü ilin dövlət büdcəsindən 190 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Kənd təsərrüfatının inkişafında mühüm məsələlərdən biri də torpaqların suvarma suyu ilə təmin edilməsi və meliorasiya tədbirlərinin aparılmasıdır. Bu vacib məsələ də daim diqqətdədir. Son illər dövlət büdcəsi vəsaiti hesabına 4 su anbarı tikilib, 200 min hektardan çox yeni suvarılan torpaqlar əkin dövriyyəsinə daxil edilib.

Aqrar sahənin ölkəmizin təbii coğrafi və iqlim zonalarına uyğun olaraq aqroparkların və iri təsərrüfatların yaradılması yolu ilə yüksək texnika və texnologiyaların tətbiqi əsasında inkişaf etdirilməsi istiqamətində də böyük işlər görülür. Yaxın vaxtlarda yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Hazırda respublikamızın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-sına texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib. Həmçinin aqroparklar üçün infrastruktur təminatı dövlət vəsaiti hesabına həyata keçirilir.

Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumilikdə 4491 işçi daimi, 6303 işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4672 iş yerinin yaradılması nəzərdə tutulur. Bununla yanaşı, ölkəmiz üçün ənənəvi sahələr olan pambıqçılığın, çayçılığın, üzümçülüyün, baramaçılıq və ipəkçiliyin inkişafı, habelə kənd təsərrüfatı kooperasiyasının genişləndirilməsinə dair dövlət proqramları qəbul edilərək onların icrasına başlanmışdır.

Aqrar sahənin mühüm bölmələrindən biri olan emal sənayesinin inkişafı da daim diqqət mərkəzində olmuşdur. Belə ki, respublikamızın bir çox bölgələrində tikilib istifadəyə verilmiş və ən müasir texnika və texnologiya ilə təmin edilmiş emal müəssisələri çox yüksək keyfiyyətli məhsullar istehsal edir. Ölkəmizdə istehsal olunan bu məhsullar, xüsusilə meyvə şirələri daxili tələbatı ödəməklə həm də çox böyük həcmdə xarici ölkələrə ixrac edilir.

İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət nəticəsində ölkəmizdə bir neçə sənaye parkları və məhəllələri yaradılmışdır. Burada fəaliyyət göstərən bəzi müəssisələr kənd təsərrüfatı ehtiyaclarını ödəmək üçün məhsullar istehsal edir. Sumqayıt Sənaye Parkında fəaliyyət göstərən gübrə zavodu respublikamızın azot gübrəsinə olan tələbatını ödəməklə yanaşı, həm də məhsulun bir hissəsini ixrac edir. Bəzi müəssisələrdə heyvanlar üçün qarışıq yem, kənd təsərrüfatı alətləri və digər məhsullar istehsal edilir ki, bu da ölkəmizin kənd təsərrüfatının ixracdan asılılığını xeyli azaltmağa imkan verir və gələcəkdə də bu proses davam edəcəkdir.

Ölkəmizin aqrar sahəsinin inkişafında önəmli məsələlərdən biri də son illər bu sahədə həyata keçirilən dövlət dəstəyinin şəffaflığını və hesabatlılığını təmin etmək üçün Prezidentin imzaladığı fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (EKTİS) yaradılmasıdır. Bu sistem kənd təsərrüfatı sahəsində xidmətlərin göstərilməsi və bu məqsədlə informasiyanın yaradılması, toplanması, işlənməsi, saxlanmasını və axtarışı işlərinin avtomatlaşdırılmasını təmin edir.

Kənd ərazilərinin inkişaf etdirilməsi də Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biridir. Regionların inkişafına dair qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramları respublikamızın kənd və şəhərlərinin simasını kökündən dəyişmişdir. Respublika əhəmiyyətli və rayondaxili yolların tikintisi və bərpası, yeni məktəblərin və xəstəxanaların inşa edilməsi və əsaslı təmiri, yaşayış məntəqələrinin qaz, işıq, su ilə təmin edilməsi, rabitə və digər infrastruktur sahələrin inkişafı Azərbaycan Respublikası Prezidentinin Azərbaycan kəndlisinə və aqrar sahəyə yüksək diqqət və qayğısının nəticəsidir. Belə ki, əgər bir neçə il bundan əvvəl regionlardan Bakıya üz tutanlar indi əksinə, Bakıdan kəndlərə yaşamağa və işləməyə gedirlər. Çünki bunun üçün regionlarda hərtərəfli şərait yaradılıb. İşğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndində salınan "ağıllı kənd" oranı ziyarət edən yerli və xarici qonaqları heyran edir. Azad edilmiş ərazilərimizin Prezident İlham Əliyevin tapşırığı və gündəlik qayğısı əsasında yenidən qurulması və bərpası işləri çox sürətlə davam edir və yaxın vaxtlarda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına Böyük qayıdış təmin olunacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 19 ildə həyata keçirdiyi bu və digər tədbirlər nəticəsində 2004-2021-ci illərdə kənd təsərrüfatı istehsalı 2 dəfəyə yaxın artmaqla gələcək inkişaf üçün böyük potensial yaratmışdır.

Ölkəmizdə aqrar sahənin inkişafı ilə yanaşı, İlham Əliyevin rəhbərliyi altında qeyri-neft sənayesinin, o cümlədən maşınqayırma, yüngül sənaye, elektrik enerjisi, xüsusilə "yaşıl enerji" və digər sahələrdə uğurlu nəticələr əldə edilmişdir. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair sazişin imzalanmasında iştirak etmişdir. Bu onu göstərir ki, Azərbaycan İlham Əliyevin hazırladığı və həyata keçirdiyi iqtisadi siyasət nəticəsində neft və qaz ixracı ilə yanaşı, həm də elektrik enerjisi ilə bir çox ölkələri təmin edən respublikaya çevrilmişdir.

Hər bir azərbaycanlı kimi mən də fəxr edirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təkcə Türk Dövlətləri Təşkilatında deyil, həm də dünyanın bir çox ölkələrində bölgənin lider dövlət başçısı kimi hörmət qazanmışdır. Hörmətli Prezident İlham Əliyevə üzərinə götürdüyü çox şərəfli missiyanı uğurla yerinə yetirməkdə uğurlar arzu edirəm.

*Eldar İBRAHİMOV,*
*Milli Məclisin İntizam komissiyasının sədri,*
*iqtisad üzrə elmlər doktoru, professor*

## Dövlət başçısının uğurlu iqtisadi siyasəti qeyri-neft-qaz sənaye məhsullarının istehsalını da artırıb

Azərbaycanda qeyri-neft-qaz sektorunun inkişafı istiqamətində aparılan islahatlar müsbət nəticə verməkdə davam edir. Bu sahədə istehsal və ixracın ildən-ilə artması, istehsal olunan məhsulların çeşidləri və ixrac coğrafiyasının genişlənməsi də bunun göstəricisidir.



Dövlət Statistika Komitəsinin son məlumatına görə, cari ilin yanvar-noyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin dəyəri 80 milyard manat olmuşdur. Neft-qaz sektorunda məhsul istehsalı 2,2 faiz azalsa da, qeyri neft-qaz sektorunda 5 faiz artım qeydə alınmışdır. Bu yerdə qeyd edək ki, neft-qaz sektorunda istehsalın azalması OPEK-lə olan razılaşma ilə bağlıdır. Bu təşkilatın qiymətləri yüksək və sabit saxlamaqla bağlı qərarına ölkəmiz də qoşulub. Yaxşı hal odur ki, istehsal azalsa da, yüksək qiymət bizə daha çox gəlir əldə etməyə imkan verib.

Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payı 88,5 faiz olmuşdur. Sənaye məhsulları istehsalının mütləq çoxluğunun özəl sektorun payına düşməsi sözsüz ki, ölkədə sahibkarlığın inkişafına verilən dəstəyin nəticəsidir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 11 ayında emal sənayesində 16 milyard 71,4 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qida məhsullarının istehsalında 8 faiz artım müşahidə edilmişdir. Bu sahənin əsas məhsullarından marqarin istehsalı 65,5, qənd və şəkər tozunun istehsalı 10,4 faiz artsa da, duru bitki yağlarının istehsalı 6,4 faiz azalmışdır.

Hesabat dövründə toxuculuq sənayesi, geyim, dəri və dəridən hazırlanan məmulatların, ayaqqabıların istehsalı sahələrində isə 493,8 milyon manat dəyərində məhsul istehsal edilmişdir. Əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə dəri və dəridən hazırlanan məmulatların, ayaqqabıların istehsalında 64,3, geyim istehsalında 39 faiz artım, toxuculuq sənayesində 28,8 faiz azalma müşahidə olunmuşdur.

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalına gəldikdə, bu sahələrdə 2 milyard 110,1 milyon manatlıq məhsul istehsal olunmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə məhsul buraxılışı əczaçılıq məhsullarının istehsalında 7,7, rezin və plastik kütlə məmulatlarının istehsalında 6, kimya sənayesi məhsullarının istehsalında 2,7 faiz artmışdır. Rezin və plastik kütlə məmulatlarından bərk polietilen borular, borucuqlar, şlanqlar, qolların istehsalı 61,5, kimya sənayesi məhsullarından metonol (metil spirti) istehsalı 43,3, lak-boya məmulatlarının istehsalı da 15,8 faiz artmışdır. Məsaməli polistirol lövhələr və zolaqların istehsalında isə 35 faiz azalma qeydə alınmışdır.

Cari ilin 11 ayında tikinti materialları istehsalının ümumi dəyəri 994,4 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 14,5 faiz çoxdur. Ümumiyyətlə, hesabat dövründə tikinti sektoru üzrə bütün sahələrdə artım (tikinti əhənginin istehsalı 26,8, hörmə üçün hazır beton qarışığının istehsalı 26,5, tikinti gipsinin istehsalı 20,4, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərin istehsalı da 9,9 faiz) olmuşdur.

Hesabat dövrü metallurgiya və metal məmulatlarının istehsalı sahələri üçün də uğurludur. Belə ki, cari ilin yanvar-noyabr aylarında sözügedən sahələrdə 1 milyard 327,7 milyon manatlıq məhsul istehsal edilmişdir. Hazır metal məmulatlarının istehsalı 13, metallurgiya sənayesi məhsullarının istehsalı 2,1, armatur istehsalı 42, polad tökmə istehsalı 31,9 faiz, polad borularının istehsalı 2,1 dəfə artmışdır.

Maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində isə 466,4 milyon manatlıq məhsul istehsal edilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə digər nəqliyyat vasitələrinin istehsalı 3,4 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 73,9, maşın və avadanlıqlarının istehsalı 46,9 faiz artmışdır. Bu ilin 11 ayında 1812 ədəd və ya ötən ilin eyni dövrü ilə müqayisədə 216 ədəd az minik avtomobili istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə traktorların istehsalında da 8,9 faizlik azalma qeydə alınmışdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar



## Qərbi Azərbaycana qayıdış strateji hədəfdir

### Gündəlikdəki növbəti tarixi məsələ budur

*Əvvəli 1-ci səh.*

Xalqımızın taleyində faciəvi rol oynamış tarixi faktlardan biri 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz - İrəvanın Ermənistana bağışlanması olub. Bundan sonra erməni milliyyətçiləri daha da iştahlanaraq min bir fitnə-fəsadla tarixi Azərbaycan ərazilərinə ard-arda yiyələnməyə başlayıblar, 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını da sovet hakimiyyətinin köməyi ilə Ermənistana birləşdirməyə nail olublar.

Amma bu da xalqımıza, qərbi azərbaycanlılara qarşı törədilən faciələrin sonu olmayıb. 1948-1953-cü illərdə sovet hökumətinin xalqımıza qarşı növbəti cinayətinin nəticəsi olaraq qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar.

1980-ci illərin sonlarında Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm də onların sovet hökumətindəki havadarları azərbaycanlılara qarşı həyata keçirdikləri sistemli cinayətləri davam etdiriblər. Ümummilli Lider Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldıraraq və sovet hökumətinin dəstəyini alaraq, həm Qarabağda, həm də Ermənistan SSR-də xalqımıza qarşı növbəti cinayətə başlayıblar. Azərbaycanlılar tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediliblər.

Növbəti cinayət ünvanı kimi özlərinə Qarabağı və Şərqi Zəngəzuru hədəf seçən Ermənistan o vaxt Azərbaycanda hakimiyyətdə olan antimilli qüvvələrin xəyanətkar siyasətindən yararlanaraq bu tarixi torpaqlarımızı da işğal etmişdilər, daha yüzminlərlə azərbaycanlını məcburi köçkünə çevirmişdilər.

#### Ermənilər özlərinə saxta tarix uydurublar

Ermənilər tarixin müxtəlif dönəmlərində qəsb etdikləri Azərbaycan torpaqlarında maddi-mədəni irsimizə qarşı da soyqırımı siyasəti həyata keçiriblər, o cümlədən də Qərbi Azərbaycanda. Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Göyçə mahalına zorla yiyələnən ermənilər özlərinə saxta tarix quraşdırmaq üçün ilk növbədə o ərazilərdəki qədim toponimlərimizə hücum ediblər. Yer adlarımızı dəyişdirib uydurma erməni adları qoyublar, türk dilində mövcud olan yer adlarını ermənicəyə çeviriblər.

Lakin Qarabağ və Şərqi Zəngəzurda olduğu kimi, toponimlərimizin, yer adlarımızın hələ də erməni nəzarəti altında olduğu qədim türk-oğuz yurdu Qərbi Azərbaycanda da saxta erməni adları tarixdən birdəfəlik silinəcək, öz əvvəlki, min illərdir var olan adları ilə çağırılacaq.

Vətən müharibəsindən sonra işğaldan azad olunan Kəlbəcər və Laçına səfər edən Prezident İlham Əliyev bu məsələ ilə bağlı bildirmişdi ki, indiki Ermənistan ərazisində yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə çağırılmalıdır: "Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm, ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri".

#### Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlanacaq

XX əsrdə qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalan qərbi azərbaycanlıların pozulan hüquqları bərpa ediləcək və onlar öz doğma torpaqlarına qayıdacaqlar.

Dekabrın 24-də, öz ad günündə Qərbi Azərbaycan İcmasının inzibati binasını açaraq qərbi azərbaycanlılara böyük hədiyyəsini təqdim edən Prezident İlham Əliyev bu nəcib hərəkəti ilə həmin soydaşlarımıza, bütün Azərbaycan xalqına daha bir xoş ismarış verdi. Dövlət başçısı əvvəllər Qarabağın azərbaycanlı icmasına məxsus binanı qərbi azərbaycanlılara hədiyyə etməklə, həm də bu soydaşlarımızın da tezliklə tarixi torpaqlarına qaytarılacağına rəmzi işarə vurdu.

"...Hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur", - deyə qərbi azərbaycanlı ziyalılarla görüşü zamanı Prezident İlham Əliyev bir daha vurğuladı: "Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq, bəlkə də, tez idi. Ancaq məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış konsepsiyası hazırlanmalıdır".

#### Böyük Zəfər tarixi ərazilərimizə dönüşə zəmin yaradıb

Bəli, bu, tarixin də, zamanın da tələbidir və Qərbi Azərbaycana qayıdış prosesi mütləq gerçəkləşdiriləcək.

Tarixi ərazilərimizə qayıdışın gerçəkləşəcəyinin əminliyini isə bizdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruq" sayəsində qazandığı parlaq Zəfər yaradıb.

Bu əminliyi bizdə 30 il ərzində erməni vandallarının viranəyə çevirdiyi Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa, quruculuq işləri, o yerlərə doğma sakinlərinin qayıdışı yaradıb.

O gün də uzaqda deyil ki, Qərbi Azərbaycandan olan soydaşlarımız da zorla qovulduqları, əcdadlarımızın min illər boyu yaşam sürdürdükləri dədə-baba yurdlarına qayıdacaqlar, illərlə çəkdikləri torpaq həsrətləri bitəcək.

Qərbi Azərbaycanda da erməni vandallığına məruz qalan tarixi, mədəni, dini irsimiz düşməndən qurtulacaq, onlar yenidən bərpa ediləcək, saxta adlar qoyulmuş yurd yerlərimiz, şəhərlərimiz, kəndlərimiz əsl türk adlarına yenidən qovuşdurulacaqlar.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Qərbi Azərbaycan məsələsi də zəfərlə başa çatacaq

**Xəbər verildiyi kimi, dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və bir qrup ziyalı ilə görüşüb. Görüş zamanı dövlət başçısı xalqımızın tarixi həqiqətlərini bir daha diqqətə çatdıraraq icma qarşısında mühüm tapşırıqlar qoyub.**

"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar", - deyə Prezident İlham Əliyev bildirib.

Erməni təcavüzündən ən çox əziyyət çəkən qərbi azərbaycanlılarla bağlı məsələ daim diqqətdə saxlanılır. Dövlət başçısının bu çıxışı da Qərbi Azərbaycana qayıdışımızın yol xəritəsi hesab edilir.

#### Qayıtmalı olduğumuz digər torpaqlarımız da var

Prezident İlham Əliyevlə görüşdə iştirak edən Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı deyib ki, icmanın inzibati binasının açılışı Azərbaycanın ictimai həyatında çox əlamətdar hadisədir: "Belə tarixi hadisənin məhz Prezidentimiz, Müzəffər Ali Baş Komandanımızın doğum günündə baş tutması, dövlət başçısının Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması bizim üçün çox əhəmiyyətlidir. İkinci Qarabağ müharibəsindən sonra belə bir addımın atılması heç də təsadüfi deyil. Dəfələrlə şahidi olmuşuq ki, Prezident Qarabağla bağlı çıxışlarında İrəvanın və Zəngəzurun da Azərbaycanın tarixi torpaqları olduğunu ən mötəbər kürsülərdə səsləndirib. Dövlət başçısı dünyaya bəyan edib ki, bizim Qarabağla yanaşı, qayıtmalı olduğumuz digər torpaqlarımız da var. Ümumiyyətlə, Prezidentin istər əvvəlki nitqlərində, istərsə də dekabrın 24-dəki çıxışında səsləndirdiyi hər bir cümlə bizim yeni hədəflər müəyyən etməyimizə imkan verir".

Deputat qeyd etdi ki, Prezident çıxışı zamanı cəmiyyəti narahat edən vacib məqamlara toxundu: "Dövlət başçısı Qarabağ məsələsində özünün xalqa, orduya, dövlətə inamını nümunə gətirdi. Bildirdi ki, bizim məqsədimiz İrəvana tankla, topla getmək deyil, sivil qaydada öz dədə-baba torpaqlarımıza qayıtmaq barədə düşünürük. Ona görə də bundan sonra Qərbi Azərbaycandan olan ziyalılar Zəngəzurun, İrəvanın Azərbaycan ərazisi olduğunu bütün dünyaya çatdırmaq üçün əllərindən gələni etməlidirlər. Bu, Prezidentin ziyalılar qarşısında qoyduğu tapşırıqdır. Ermənilər vandalizm törədərək İrəvandakı abidlərimizi dağıdıblar, lakin müxtəlif faktlar - sənədlər, xəritələr qalmaqdadır. Eyni zamanda Qərbi Azərbaycanın elmi irsi araşdırılmalı, mədəniyyətini dünyaya tanıtmaq üçün fəal işlər görülməlidir. Necə ki, Vətən müharibəsindən əvvəl birinci xanım Mehriban Əliyeva Qarabağ mədəniyyətini bütün dünyaya tanıtdı, hər kəs xarıbülbülü Qarabağın simvolu kimi tanıdı, indi də eyni yolla getməliyik. Əzmlə çalışsaq, məqsədlərimizə nail ola bilərik. Gün gələr Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları İrəvana və Zəngəzura qayıdarlar. Buna nail olmaq üçün hamımız bir nəfər kimi yorulmadan çalışmalıyıq".

#### Prezidentin tapşırıqlarını dəqiq icra etməliyik

"Respublika" qəzetinin baş redaktoru, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü Hümbət Musayev deyib ki, Prezidentin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlığının və bir qrup ziyalı ilə görüşünün dekabrın 24-nə təsadüf etməsi rəmzi məna daşıyır: "Hər kəsə məlumdur ki, Prezident İlham Əliyev hər il doğum günündə məcburi köçkünlərlə, qaçqınlarla, hərbçilərlə görüşür, özəl gününü bu formada qeyd edir. Dövlət başçısı ənənəsinə sadiq qalaraq, builki doğum günündə vaxtilə hüquqları tapdanmış və torpaqlarından didərgin salınmış, deportasiya olunmuş qərbi azərbaycanlılarla görüş təşkil etdi, icmanın inzibati binası ilə tanış oldu. Açığını deyim ki, belə bir tarixi görüşün məhz dekabrın 24-nə təsadüf etməsi Müşahidə Şurasının hər bir üzvünə sevinc yaşatmaqla yanaşı, həm də məsuliyyətimizi daha da artırır. Prezidentimizin çıxışından da aydın oldu ki, qərbi azərbaycanlıların hüquqlarının bərpası, onların üzləşdiyi bir sıra problemlərin həlli dövlət siyasətinin prioritetlərindəndir. Dövlət başçısı xüsusi qeyd etdi ki, həmin inzibati binanın Qərbi Azərbaycan İcmasına ayrılması həm də ona görə önəmlidir ki, vaxtilə o binada yerləşən "Qarabağın Azərbaycanlı İcması" və Şuşa Rayon İcra Hakimiyyəti bu mərhələni artıq başa vurub, öz missiyasını tamamlayıb. İndi onlar qayıdış mərhələsinə keçid ediblər. Yəni bu mənada qərbi azərbaycanlıların da bir gün doğma torpaqlarına mütləq qayıdacaqları şübhə doğurmur. Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların nəvələri, nəticələri tarixi torpaqlarımız olan İrəvana, Göyçəyə, Zəngəzura, Ağbabaya qayıdacaqlar. Nəzərə almaq lazımdır ki, öz torpağına, elinə-obasına bağlı olan Azərbaycan xalqı üçün qayıdış ən ümdə məsələlərdəndir".





Hümbət Musayev həmçinin Qərbi Azərbaycana Qayıdış Konsepsiyası ilə bağlı danışıb: "Prezidentin xüsusi qeyd etdiyi məqamlardan biri də Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması və həyata keçirilməsi ilə bağlı idi. Lakin bu, Qarabağa Böyük qayıdış yekunlaşdıqdan sonra baş tutacaq. Prezidentin qayıdış anonsu, önəmli mesajları bizi çox ümidləndirdi. Dövlət başçısı vurğuladı ki, biz Ermənistana qarşı ərazi iddiası qaldırmırıq, bizim məqsədimiz, sadəcə, sülh yolu ilə torpaqlarımıza qayıtmaqdır".

Müsahibimin sözlərinə görə, vaxtilə İrəvanın Ermənistana paytaxt kimi verilməsi bağışlanılmaz səhvdir: "Belə fikirlər olub ki, guya, İrəvanı əldə etməklə Ermənistan daha ərazi iddialarından əl çəkəcək, bununla da bütün problemlər həllini tapacaq. Mən o yerlərdə doğulduğum, uzun müddət həmin torpaqlarda yaşadığım və vaxtilə ermənilərlə müəyyən təmaslarda olduğum üçün onların xislətinə yaxşı bələdəm. Ermənilər öz maraqlarından daha çox, başqalarına ziyan vurmaq üçün çalışır, tarixi saxtalaşdırmağa xidmət göstərirlər. Təsadüfi deyil ki, onlar İrəvanı ilhaq edəndən sonra Zəngəzuru, Göyçəni və digər ərazilərimizi də mənimsəyərək monodövlət yaradıblar. Ermənistan, bəlkə də, yeganə dövlətdir ki, ərazisində bircə nəfər də olsa başqa millətin nümayəndəsinə rast gəlmək mümkün deyil".

H.Musayev əlavə edib ki, İrəvanda ermənilərə məxsus bircə dənə də tarixi abidə və ya məkan yoxdur: "Orada mövcud olan qədim tikililərin hər biri - dini məbədlər, məscidlər və karvansaralar azərbaycanlılara məxsusdur. Məşhur Mərkəzi İrəvan meydanının alt hissəsi də Azərbaycan karvansaralarının qalıqlarıdır. Günü bu gün də arxeoloqlar, etnoqraflar araşdırma aparsalar, oradan yalnız Azərbaycana məxsus qalıqlar tapılacaq. Ermənilər təxminəm 1970-ci illərdə həmin ərazinin üstünü torpaqla örtüb, üstünə asfalt çəkərək meydana çeviriblər. Yəni həmin məşhur İrəvan meydanının altında Azərbaycanın böyük bir tarixi yatır. Sadəcə olaraq, tarixi faktları saxtalaşdırmaq və yalan danışmaq ermənilərin xislətində var".

H.Musayev bildirdi ki, Prezident Qərbi Azərbaycana qayıdışın anonsunu verməklə, həmişə olduğu kimi, yenə də ədalətin bərpası üçün çalışdığını sübut etdi. İnanırıq ki, həyata keçirilən tədbirlərin, reallaşdırılan böyük layihələrin nəticəsində biz bir gün Qərbi Azərbayacana qayıdacağıq. Bunun üçün əzmlə çalışmalı və Prezidentimizin bu məsələ ilə bağlı tapşırıqlarını dəqiq icra etməliyik.

"Müasir dövrümüzdə əsas silahımızın informasiya olduğunu unutmamalı, məqsədimizə nail olmaq üçün, bəlkə də, ikiqat funksiya yerinə yetirməliyik: həm artıq formalaşmış yanlış informasiyanı yenisi ilə əvəz etmək, həm də cəmiyyətə tamamilə yeni informasiya ötürmək. Biz hələlik birinci, ağrılı mərhələdəyik. Təəssüf ki, xristianpərəstliyin doğurduğu erməni təəssübkeşliyi dünyada pik həddə çatıb. Biz formalaşmış təəssüratları pozub yeni fikir təlqin və həqiqəti təbliğ etməliyik. Bu, çox çətin proses olsa da, öhdəsindən gələcəyimizə inanırıq. Əminik ki, Prezidentin rəhbərliyi ilə digər taleyüklü məsələlər kimi, Qərbi Azərbaycan məsələsi də zəfərlə başa çatacaq və soydaşlarımız doğma torpaqlarına qayıdacaqlar", - deyə H.Musayev qeyd edib.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

## Qərbi Azərbaycan İcmasında Qayıdış Konsepsiyasının hazırlanmasına başlanılıb

**Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan ziyalılarla görüşü zamanı irəli sürdüyü Qayıdış Konsepsiyası ilə bağlı Qərbi Azərbaycan İcmasında dərhal işə başlanılıb.**

Bunu AZƏRTAC-a açıqlamasında Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar söyləyib.

Qayıdış Konsepsiyanın hazırlanması istiqamətində iş aparıldığını söyləyən mətbuat katibi deyib: "İcma olaraq bu konsepsiyanı vaxtında yekunlaşdırmağa çalışacağıq. Konsepsiya hazır olandan sonra Qərbi Azərbaycan İcması fəaliyyətini bu sənədə əsasən davam etdirəcək".

## *Politoloq:* "Qərbi Azərbaycandan deportasiya beynəlxalq aləmin gözü qarşısında baş verib"

Qərbi Azərbaycan məsələsi bu gün dünyanın nə qədər ədalətsiz olduğunu göstərən növbəti faktlardan biridir. Təəssüf ki, XX əsr boyu azərbaycanlıların deportasiyası və Qərbi Azərbaycandan didərgin salınmaları beynəlxalq aləmin gözü qarşısında baş verib.

Azərbaycan əleyhinə informasiya terroru həyata keçirənlər Qərbi Azərbaycanda xalqımızın yaşadığı faciələri görməzdən gəlirlər. Eyni zamanda əsr boyunca azərbaycanlıların tarixi torpaqlarımızdan çıxarılması Ermənistanın faşist niyyətlərini daha da alovlandırdı. Hazırda Qərbi Azərbaycanda abidələrimiz, dini tikililər kütləvi şəkildə Ermənistanın terroruna məruz qalır. Vandal Ermənistandan fərqli olaraq Azərbaycan Qərbi Azərbaycana topla, tüfənglə qayıtmayacaq. Prezident İlham Əliyev Qərbi Azərbaycana qayıdışın konturlarını dəqiq müəyyənləşdirib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov söyləyib. O bildirib ki, Qərbi Azərbaycan İcmasının binasının açılışı siyasi, tarixi və rəmzi məna daşıyır. Bu binanın əvvəllər Qarabağın azərbaycanlı icmasına məxsus olması xüsusi əhəmiyyətə malikdir. Qarabağı işğaldan azad edən Azərbaycan xalqı tarixi Qərbi Azərbaycan torpaqlarında öz yurd-yuvasına da geri dönüş edəcək.



2010-cu il iyulun 6-da Qarabağın azərbaycanlı icmasının mənzil-qərargahının açılışında çıxış edən Prezident İlham Əliyev deyib: "Bu, sizin üçün müvəqqəti bir qərargahdır. Torpaqlarımız işğalçılardan azad olunandan sonra sizin üçün yeni gözəl binalar Qarabağda tikiləcəkdir. Mən buna şübhə etmirəm və tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bu ədalətsizliyə son qoyulacaqdır. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaqdır". Bugünkü reallıq ölkə Prezidentinin sözlərinin həqiqətə çevrildiyini göstərir. Ona görə də Prezident İlham Əliyevin doğum günündə növbəti dəfə Qərbi Azərbaycanla bağlı verdiyi mesajlar bütün xalqımız üçün həm də bir siqnaldır. Qərbi Azərbaycan məsələsinin aktual qalması üçün hər bir vətəndaşımız, xaricdəki soydaşlarımız daim dinamik fəaliyyət göstərməlidirlər.

"Bundan sonra Qarabağın azərbaycanlı icmasının binası Qərbi Azərbaycan İcmasının binası kimi fəaliyyətini davam etdirəcək. Bu, həm rəmzi məna daşıyır, həm də Azərbaycanın bütün bölgədə yaratdığı yeni reallıqları və hədəfləri ifadə edir. Qərbi Azərbaycan məsələsi növbəti tarixi dövr üçün ölkəmizin gündəminə ən mühüm, ərazilərimizin işğaldan azad edilməsi kimi taleyüklü bir məsələ ilə birlikdə daxil olur. Bütün vətəndaşlarımız Qərbi Azərbaycana mütləq qayıdacağımızın fərqindədirlər və dövlətimizin yanındadırlar", - deyə Tural İsmayılov diqqətə çatdırıb.

# XİN: "Ermənistanın əsassız bəyanatını qətiyyətlə rədd edirik"

Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan Respublikası Prezidentinin Qərbi Azərbaycan İcması ilə görüşü zamanı səsləndirdiyi fikirləri təhrif edən 24 dekabr 2022-ci il tarixli əsassız bəyanatını qətiyyətlə rədd edirik.



Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumatda bildirilir. Qeyd olunub ki, Ermənistan XİN-in Azərbaycanın bölgədə sülh və sabitlikdə maraqlı olmadığını, beynəlxalq hüququ pozduğunu iddia etməsi riyakarlıqdan başqa bir şey deyil:

"Ermənistan tərəfinə xatırlatmaq istərdik ki, Azərbaycan ərazilərinin 30 il ərzində Ermənistan tərəfindən işğal edilməsinə, yüz minlərlə əhalinin ərazilərimizdən qovulmasına və kütləvi qırğınlar törədilməsinə baxmayaraq, Azərbaycan tərəfi 25 il ərzində Ermənistanla münaqişənin danışıqlar və dinc yolla həll edilməsi istiqamətində danışıqlar prosesinə sadiq qalıb. 44 günlük Vətən müharibəsində tam qalibiyyətə və ərazilərin işğaldan azad olunmasına baxmayaraq, Ermənistanla sülh müqaviləsinin imzalanması təklifini də məhz Azərbaycan tərəfi irəli sürüb.

Azərbaycanın Praqa və Soçi razılaşmalarını pozması, sülh prosesinə maneçilik törətməsi fikri də eynilə əsassızdır. Qeyd edək ki, Praqa və Soçi razılaşmalarında bütün problemli məsələləri suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa baxmayaraq, məhz Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməməklə yanaşı, Laçın yolu ətrafında yaranmış vəziyyətdən göründüyü kimi Azərbaycanın suverenliyinə qarşı müdaxilələrini davam etdirir. Bununla yanaşı, məhz Ermənistan tərəfinin dekabr ayında Brüsseldə liderlər arasında görüşə maneçilik törədən şərtlər irəli sürməsi, o cümlədən xarici işlər nazirlərinin 23 dekabr tarixli Moskva görüşünə getməkdən imtina etməsi sülh prosesinə hansı tərəfin maneçilik törətdiyini açıq-aşkar nümayiş etdirir.

Azərbaycan tərəfinin Ermənistanla delimitasiya olunmamış sərhəd istiqamətində daha əlverişli mövqelərə sahiblənməsinin, guya, Azərbaycanın Ermənistanın hər hansı bir ərazisini işğal etməsi kimi qiymətləndirilməsi təəccüb doğurur. Belə ki, Ermənistanın 30 il ərzində Azərbaycan ərazilərini işğal etməsi faktı, hələ də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış 8 kəndini işğal altında saxlaması və bir çox istiqamətlərdə hərbi mövqelərini məhz Azərbaycanın suveren əraziləri daxilində yerləşdirməsi nəzərə alınaraq, qeyd edilən ərazidə hər hansı bir mövqenin əvvəl məhz Ermənistana məxsus olması iddiasının heç bir əsasının olmadığını bir daha göstərir.

Bütün tarixi əsərlərdə, xəritələrdə və qəbul edilmiş sənədlərdə qeyd edildiyi kimi, indiki Ermənistanda bir sıra ərazilərin Azərbaycanın tarixi torpaqları olması barədə fikirlərin Ermənistana qarşı ərazi iddiaları kimi qiymətləndirilməsi, habelə Azərbaycanın etnik təmizləmədə təqsirləndirilməsi riyakarlıqdır və Ermənistanın tarixi faktlardan xəbərsiz olduğunu sübut edir".

Qeyd olunub ki, ermənilərin son iki yüz il ərzində kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması tarixi faktdır:

"Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib, 2000-dən çox toponimlərin adları dəyişdirilib. Yalnız 1948-1953-cü illər ərzində 150 minə yaxın azərbaycanlı indiki Ermənistan ərazisində öz tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla deportasiya olunub. Bununla yanaşı, 1988-1991-ci illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından növbəti deportasiyası baş verib, nəticədə 200 mindən çox azərbaycanlı Ermənistandan qaçqın düşüb. Bütün bunlardan əlavə, Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin 30 ilə yaxın işğalı dövründə Ermənistan tərəfi 700 mindən artıq azərbaycanlıya qarşı etnik təmizləmə siyasəti həyata keçirib, yalnız Xocalıda bir gecə ərzində 613 nəfəri kütləvi şəkildə amansızlıqla qətlə yetirib.

Laçın yolunun fəaliyyətinin bərpa olunması barədə çağırışlara gəldikdə, görünür ki, Ermənistan tərəfi qeyri-qanuni iqtisadi fəaliyyətə qarşı Laçın yolunda həyata keçirilən etirazların onun bu istiqamətdə fəaliyyətinə, etirazların üçtərəfli Bəyanatın 4-cü bəndinə zidd olaraq Azərbaycan ərazisindən hələ də çıxarmayan erməni silahlı qüvvələrinin təchizatına, 6-cı bəndə zidd olaraq Laçın yolundan minaların daşınması kimi hərbi təxribatlarına maneçilik törətməsindən narahatdır.

Qeyd edək ki, Laçın yolunda etirazların humanitar böhran təhdidi yaratdığı və guya, ermənilərin blokadada olduqları barədə iddiaların heç bir əsası yoxdur. Vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin yolboyu hərəkət rejimi dəyişməz olaraq qalır. Videogörüntülər təcili yardım maşınları və humanitar yardım karvanları da daxil olmaqla müxtəlif növ nəqliyyat vasitələrinin maneəsiz keçidini əks etdirir. Bununla yanaşı, yerli sakinlərin istifadəsi üçün malların tədarükü və ya zəruri tibbi xidmətlərin göstərilməsi ilə bağlı heç bir maneə yoxdur. Azərbaycan hökuməti həmçinin erməni sakinlərinin üzləşə biləcəyi bütün humanitar ehtiyacları operativ şəkildə həll etməyə hazır olduğunu bəyan edib.

Bir daha bəyan edirik ki, Azərbaycanın bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi niyyəti və sülh quruculuğu təşəbbüsləri qarşılığında Ermənistanın öz öhdəliklərinə zidd olaraq destruktiv fəaliyyəti davam etdirməsi, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı bəyanat və addımları bölgədə sülhün bərpasına xidmət etmir. Azərbaycan beynəlxalq hüququn ona verdiyi əsasla müvafiq sülh quruculuğu tədbirlərini davam etdirəcək".

# Vardanyan-Arutyunyan qarşıdurması böyüyür

## Xankəndidəki ermənilər kimə inanacaqlarını bilmirlər

Qarabağda qalan ermənilər arasında son dövrlərdə maraqlı proseslər baş verir. Hadisələrin təhlili göstərir ki, separatçıların başçısı Araik Arutyunyan mövqeyindən sıxışdırılır və onun yerini Ruben Vardanyan tutmağa çalışır. Ümumiyyətlə, proseslər göstərir ki, Ruben Vardanyan Xankəndi şəhərinə təsadüfən göndərilməyib.

Rusiyadan Xankəndiyə "ixrac edilən" erməni milyarderin əsas məqsədi əvvəlcə Qarabağda separatçıların rəhbəri olmaq, buradan da Ermənistana transfer niyyətini reallaşdırmaqdır. Qarabağdakı qondarma rejimin başçısı Araik Arutyunyan bu mənada Ruben Vardanyanın fəaliyyətinə qarşıdır.

Xüsusən dekabrın 25-də Xankəndidə keçirilən mitinqin əsas təşkilatçısı kimi Ruben Vardanyanın önə çıxması Araik Arutyunyanın ona qarşı qəzəbini daha da artırıb. Beləliklə bu cütlük arasında ziddiyyətlərin artıq yeni mərhələsi başlayıb.

Bu arada qanunsuz erməni dəstələri Xankəndidə planlaşdırdıqları mitinqə əhalini cəlb etməkdə ciddi çətinliklə üzləşiblər. Maraqlıdır ki, sözügedən aksiyaya hazırda həmin ərazidə yaşayan əhalinin marağı o qədər də çox deyil. Belə ki, insanları meydana cəlb edə bilməyən qondarma rejim "rəhbərliyi" Qarabağdakı qanunsuz erməni hərbçilərinə, hətta məzuniyyətdə olanlara belə komanda verərək bildirib ki, özləri mülki geyimdə ailə üzvləri ilə birlikdə mitinqdə iştirak etsinlər. Sadə vətəndaşlardan da tələb olunub ki, ailəlikcə mitinqə çıxsınlar. Əldə edilən məlumata görə, "dövlət müəssisələri"ndə çalışanlara sözügedən aksiyada iştirakın məcburi olduğu barədə dəfələrlə sərt xəbərdarlıqlar edilib. Xankəndi əhalisinə çox ciddi təzyiqlər var. Onların bütün sosial şəbəkələri izlənilir, hətta insanlara işgəncələr belə verilir.

Görünür, əhali arasında nüfuzunu itirən və getdikcə məngənəyə sıxılan qondarma rejimin separatçı "rəhbərliyi" mitinqə mümkün qədər çox insan cəlb etməklə arxalarında dəstək varmış kimi imitasiya yaratmağa çalışırlar.

Hətta vəziyyət o həddə çatıb ki, Arayikin adamları Xankəndiyə etiraz aksiyasına gedənlərə qarşı hücum belə ediblər. Qarabağ ermənisi Yuri Musaelyanın övladlarının və arvadının gözü qarşısında döyülməsi bunun bariz nümunəsidir.

Başqa bir maraqlı fakt isə "Caucasian bureau" teleqramda Qarabağ ermənisi, Xocavənd sakini Artur Ağacanovun yutub vasitəsilə həmyerlilərinə müraciət etməsidir. Onun sözlərinə görə, Laçın dəhlizi ətrafında yaranmış vəziyyətin səbəblərindən biri Qarabağda Arayik Arutunyan, Ruben Vardanyan və onlar kimi başqaları tərəfindən qızıl və mis yataqlarının qanunsuz istismarıdır. "Bu vəziyyət məni illərdir narahat edir, çünki mən özüm hamınızla eyni mövqedə olmuşam. Mən də yüz minlərlə erməni kimi Bako Saakyan, Arayik Arutyunyan, Robert Koçaryan, Serj Sarkisyan, Vitali Balasanyan və bir sıra başqa bədbəxt "vətənpərvərlər"in günahı üzündən Azərbaycanı tərk etməli oldum. Əgər Arayık kimilərin günahı ucbatından baş verən münaqişə olmasaydı, biz bugünkü çətinliklərə dözmək məcburiyyətində qalmazdıq və bu gün Qarabağda daha çox insan xoşbəxt yaşayardı", - deyə Artur Ağacanov söyləyib.

Sonda Artur Ağacanov Qarabağ ermənilərini qorxmamağa və Azərbaycanla birləşməyə çağırıb: "Fikrinizi söyləməkdən çəkinməyin. Yuri Musaelyan kimi insanlar çox olmalıdır. Çıxın və haqqınızı tələb edin. Biz Azərbaycan xalqı ilə birlikdə sosial problemləri həll edə bilərik. İnanıram ki, inteqrasiya olacaq və bütün problemlərimizi Azərbaycan xalqı ilə həll etmək olar. Qarşıdan gələn Yeni il bayramınız mübarək olsun. Mən sizin müdrikliyinizə inanıram".

Separatçıların qondarma "dövlət naziri" Ruben Vardanyan isə növbəti dəfə gileylənərək Xankəndidə vəziyyətin ağırlaşdığını deyib. O, separatçı "məmur"ları bir araya yığaraq iclas keçirib. Vardanyan davam edən aksiyalar fonunda Qarabağın ermənilər yaşayan hissəsinin blokada şəraitinə düşdüyünü iddia edib. Qeyd edib ki, hazırda dəhliz bağlı qaldığı üçün artıq iqtisadi sahədə ciddi problemlər yaranmağa başlayıb. "Bir sıra qurum və müəssisələr fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb ki, bu da həm maliyyə, həm də sosial-iqtisadi baxımdan əlavə gərginliyə səbəb olur", - deyə o, iclasda vurğulayıb. Toplantıda ərzaq, dərman, benzin və əsasən kənd təsərrüfatında istifadə olunan dizel yanacağı ilə bağlı mövcud vəziyyətə dair məlumatlar verilib, yerlərdə yaranan problemlər diqqətə çatdırılıb.

Bütün bunlar separatçılarla erməni əhalisi arasında daha böyük ziddiyyətlərin yaranmasına gətirib çıxarır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **İsmayıllı** | İsmayıllı, Ağsu | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | 05 |
| 2 | **Xızı** | Xızı, Siyəzən | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | 09 |
| 3 | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Cəbrayıl | **Baş prokuror** Kamran Əliyev | 12 |
| 4 | **Xaçmaz** | Xaçmaz, Şabran | **Kənd təsərrüfatı naziri** İnam Kərimov | 12 |
| 5 | **Tovuz** | Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy, Daşkəsən | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | 12 |
| 6 | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | 12 |
| 7 | **Yevlax** | Yevlax, Naftalan, Goranboy, Xocalı | **Ali Məhkəmənin sədri** Ramiz Rzayev | 13 |
| 8 | **Şamaxı** | Şamaxı, Qobustan | **Gənclər və idman naziri** Fərid Qayıbov | 14 |
| 9 | **Abşeron** | Abşeron, Zəngilan | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | 16 |
| 10 | **Şabran** | Şabran, Xaçmaz | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | 16 |
| 11 | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar | **Ədliyyə naziri** Fikrət Məmmədov | 18 |
| 12 | **Xızı** | Xızı, Siyəzən, Şabran | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | 18 |
| 13 | **Abşeron** | Abşeron, Sumqayıt, Xızı, Qubadlı, Zəngilan | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | 25 |
| 14 | **Qəbələ** | Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | **Daxili işlər naziri** Vilayət Eyvazov | 26 |
| 15 | **Sabirabad** | Sabirabad, Şirvan, Hacıqabul, Saatlı | **Mədəniyyət naziri vəzifəsini müvəqqəti icra edən** Adil Kərimli | 26 |
| 16 | **Goranboy** | Goranboy, Naftalan, Xocalı | **Dövlət Gömrük Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Şahin Bağırov | 26 |
| 17 | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | 26 |
| 18 | **Göyçay** | Göyçay, Ağdaş | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | 26 |
| 19 | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | 27 |
| 20 | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | **Elm və təhsil naziri** Emin Əmrullayev | 27 |
| 21 | **Şamaxı** | Şamaxı, Qobustan | **Energetika naziri** Pərviz Şahbazov | 27 |
| 22 | **Şirvan** | Şirvan, Hacıqabul | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | 27 |
| 23 | **Neftçala** | Neftçala, Salyan | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | 27 |
| 24 | **Şəki** | Şəki, Qax | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | 27 |
| 25 | **Mingəçevir** | Mingəçevir, Yevlax, Ağdaş | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | 27 |
| 26 | **İsmayıllı** | İsmayıllı, Ağsu | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | 27 |
| 27 | **Salyan** | Salyan, Neftçala | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | 27 |
| 28 | **Yevlax** | Yevlax, Ağdaş, Göyçay | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | 30 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# PKK Fransanı dağıdır

## Fransızların bəslədiyi ilan indi onların özlərini sancmağa başlayıb

**Parisdə etnik etirazlar səngimir. Tüstü qumbaraları, gözyaşardıcı qaz və yanğınlar - bu, Fransa paytaxtında hökm sürən hazırkı vəziyyədir.**

Buna səbəb isə dekabrın 23-də Engiyen küçəsində baş verən qanlı hadisə olub. 69 yaşlı fransalı təqaüdçü M. Uilyam Parisin mərkəzində yerləşən 10-cu rayonda, kürdlərin mədəniyyət mərkəzinin yaxınlığında adamlara atəş açıb.

Bundan sonra etnik kürdlər kütləvi nümayişlərə çıxıblar və yerli polislə toqquşmalar baş verib. Fransanın paytaxtında Milad gecəsi əsl cəhənnəmə çevrilib - istehkamlar, dağıdılmış məhəllələr və yanan zibil qalaqları...

Şəhərdə avtomobillər, vitrinlər və dayanacaqlar dağıdılır.

Qeyd edək ki, etnik kürdlər icmasının məskunlaşdığı Parisin 10-cu rayonunda Pakistan və ərəb ölkələrindən gələn mühacirlər də kompakt şəkildə yaşayırlar.

### Parisdə şübhəli bilinən şəxs yenidən saxlanılıb

Dünən səhhətinin qiymətləndirilməsi üçün psixiatriya klinikasına köçürülən 69 yaşlı fransız Parisdə hücumu təşkil etməkdə şübhəli bilinərək yenidən saxlanılıb.

Fransanın BFMTV telekanalının xəbərinə görə, M.Uilyam müstəntiq tərəfindən dindirilib.

Paris Prokurorluğunun açıqlamasında 69 yaşlı fransızın "əcnəbilərə qarşı patoloji nifrəti" olduğunu etiraf etdiyi bildirilir. Polisdən verilən məlumata əsasən, Fransanın rəsmi dəmir yolu şirkətinin (SNCF) təqaüdçüsünün 2016-cı və 2021-ci illərdə iki dəfə adam öldürməyə cəhd etdiyi bildirilib. Bir il əvvəl





isə o, miqrantların çadır düşərgəsinə hücum etməkdə və 2 nəfəri bıçaqlamaqda ittiham olunaraq nəzarətə götürülüb.

Paris prokuroru Lora Bekkonun dediyinə görə, davam edən istintaq çərçivəsində təqsirləndirilən şəxs 2022-ci il dekabrın 12-də həbsdən azad edilib.

Yerli "Le Figaro" qəzeti Paris Prokurorluğunun məlumatına əsasən, xəbər verir ki, həmin şəxs "İŞİD-lə döyüşərkən onları öldürmək əvəzinə əsir götürməkdə" ittiham etdiyi kürdləri güllələmək qərarına gəlib.

Parisdə baş verənlər fonunda kürdlər tərəfindən yeni etiraz aksiyaları elan edilib. Fransanın özünün yaratdığı və dəstəklədiyi təşkilat indi bu ölkəni alt-üst etməyə başlayıb. Yerli KİV-nin xəbərinə görə, kürdlərlə toqquşmalarda azı 11 polis əməkdaşı yaralanıb.

"Le Parisien" qəzeti yazır ki, etirazçılar təhlükəsizlik qüvvələrinə müxtəlif əşyalar, o cümlədən daş atıb, onlarca polis avtomobillərinə ziyan vurub, Fobur-Sen-Deni küçəsində və Strasburq bulvarında çoxlu yanğınlar törədiblər.

### Ankara Fransanı PKK-yə dəstək verməkdə ittiham edib

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuat katibi İbrahim Kalın Fransanı Suriyada Kürdüstan Fəhlə Partiyasına (PKK) dəstək verməkdə ittiham edib. Müvafiq yazı onun tviter səhifəsində yer alıb: "Bu, Fransadakı PKK-dir. Suriyada dəstəklədiyiniz terror təşkilatı. Son 40 ildə minlərlə türkü, kürdü və təhlükəsizlik qüvvələrinin əməkdaşlarını qətlə yetirən həmin PKK. İndi onlar Parisin küçələrini yandırırlar. Bundan sonra da susacaqsınız?"

Parisdə baş verən son hadisələr göstərdi ki, fransızların bəslədiyi ilan onların özlərini sancmağa başlayıb. Bunu Türkiyənin müdafiə naziri Hulusi Akar Fransa paytaxtında PKK terror təşkilatı tərəfdarlarının törətdiyi iğtişaşları şərh edərkən deyib. İndi hər kəs bu terror təşkilatının əsl simasını görməlidir.

Hulusi Akar Fransa da daxil olmaqla, bir sıra ölkələrin anti-Azərbaycan ritorikasını da tənqid edib. Bununla bağlı o deyib: "Həmişə olduğu kimi, Azərbaycan və Ermənistan arasındakı vəziyyətlə bağlı obyektivlikdən uzaq və qərəzsiz bəyanatlar verilir. Bununla belə, 30 ildir ki, Qarabağ probleminin həlli missiyasında iştirak edən nə dövlətlərin, nə də beynəlxalq təşkilatların səsini eşidirik. Ona görə də biz indi oxşar fikirlər səsləndirənlərdən soruşuruq: indiyədək nə barədə düşünürdünüz?"

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Laçın-Xankəndi yolundakı aksiya ermənilərin qanunsuz davranışlarının qarşısını alır

Azərbaycanın qeyri-hökumət təşkilatlarının nümayəndələri, ekofəallar dekabrın 12-dən etibarən Laçın-Xankəndi yolunda Qarabağdakı təbii sərvətlərimizin qanunsuz şəkildə istismarının dayandırılmasına qarşı dinc etiraz aksiyası keçirirlər. Aksiya artıq 15 gündür davam edir. Aksiya iştirakçıları ilk gündən




etibarən əzm, iradə nümayiş etdirərək tələbləri yerinə yetirilməyənədək ərazini tərk etməyəcəklərini bildiriblər. Onlar Xankəndi-Laçın yolunda Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olmayaraq, haqlı, sivil qaydada toplaşıb qanunsuzluqlara etiraz səslərini ucaldırlar. Aksiya iştirakçıları əmindirlər ki, haqlı tələbləri yerinə yetiriləcək.

❖ ❖ ❖

Vətən müharibəsi nəticəsində Azərbaycan qalib dövlət kimi ərazi bütövlüyünü bərpa etdi. Ermənistan isə məğlub ölkə kimi kapitulyasiya aktını imzaladı. Belə ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistanın qanunsuz silahlı birləşmələri Qarabağdan çıxarılmalı idi. Lakin iki ildir Ermənistan bu öhdəliyinə əməl etmir və Laçın-Xankəndi yolunu terrorçuların təchizatı və təminatı üçün əlverişli məkana çevirib. Bununla da Laçın dəhlizi vasitəsilə Qarabağa keçən terrorçular ərazilərimizdə istədiklərini rahat şəkildə edirlər. Hətta Azərbaycan Ordusunun bölmələrinin mövqelərini atəşə də tuturlar. Bu prosesə birbaşa dəstəyi isə Ermənistan dövləti verir. Siyasi strukturu cinayətkarlıq, işğalçılıq üzərində qurulan Ermənistan bu yoldan qanunsuz məqsədlər üçün istifadə edərək Azərbaycan ərazilərində terrorçuların maddi-texniki bazasını gücləndirir, həmçinin torpaqlarımızda qondarma dövlət yaratmaq niyyətini gizlətmir. Lakin onlar anlamalıdırlar ki, Azərbaycan öz ərazisində bir daha separatizmin yaranmasına



imkan verməyəcək. Ermənistan nə qədər beynəlxalq təşkilatlardan, güclü dövlətlərdən yardım istəsə də, məqsədinə nail ola bilməyəcək.

❖ ❖ ❖

Artıq 15 gündür davam edən aksiya cinayətkar, qanunsuz əməllərlə məşğul olan qrupları narahat etməyə başlayıb. Çünki Azərbaycan ərazilərində istismarla məşğul olan şəxslərin əl-qolu bağlanıb. Onlar artıq aksiya keçirilən yoldan talançılıq, həmçinin Qarabağda olan qanunsuz silahlı birləşmələri əvvəlki kimi silah-sursatla təmin edə bilmədikləri üçün beynəlxalq arenalarda bu prosesi müzakirəyə çıxarmaq istəyirlər. Bununla



da Azərbaycanı günahkar kimi təqdim edib, sanksiyalar və digər mənfi çağırışlarla üz-üzə qoymağı hədəfləyirlər. Amma Azərbaycan hər zaman olduğu kimi, yenə də beynəlxalq hüquqa tam əməl edir. Keçirilən bu dinc aksiya öz ərazilərimizdə təbii sərvətlərimizin qanunsuz istismarına qarşıdır ki, bu da tam haqqımızdır. Bəzi beynəlxalq təşkilatların bu hadisəyə ikili münasibəti riyakarlıqdır və ikrah doğurur. Çünki onlar uzun illər ərzində Qarabağda sərvətlərimizin talanmasına, şəhər və kəndlərimizin, o cümlədən abidələrimizin ermənilər tərəfindən dağıdılmasına göz yumublar. İndi qanunsuz istismara qarşı keçirilən aksiyanın bu dərəcədə şişirdilməsi "düşmən dəyirmanına su tökmək"dən başqa bir şey deyil.



# Erməni yalanlarına inanan yoxdur




Vətənpərvər gənclərin, vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda ermənilərin Qarabağda etdikləri özbaşınalıqlara, ekoloji terrora son qoymaq niyyəti ilə başladıqları dinc etiraz aksiyası Ermənistanı narahat etməyə bilməzdi.

Odur ki, bütün "şər" arsenalını işə salaraq dünyanı feyk xəbərləri ilə çaşdırmağa çalışdılar. Qarabağda yaşayan ermənilərin "blokadaya" alındığını, Xankəndidə "humanitar" böhran yaşandığını, xəstə ermənilərin müalicə ala bilmədiklərini, dərman qıtlığı, çörək çatışmazlığı yarandığını tirajladılar. Heç utanmadan Qarabağda yaşayan ermənilərin sayını şişirdib 120 min nəfərə çatdırmağı da yaddan çıxartmadılar. Amma maraqlıdır ki, bu arada Qarabağ ermənilərindən danışsalar da, Qarabağ ermənilərindən səs çıxmır, hallarından məmnun görünürlər. Heç erməni diasporunun fitvasına uyaraq, "küçə"lərə çıxmağa da tələsmirlər. Məşhur erməni politoloqu Armen Baqdasaryan Qarabağ ermənilərinin bu astagəlliyini özünəməxsus şəkildə belə izah edib: "Sizcə, niyə belə tendensiyanı izləyirik? Bütün dünya bizdən danışır, amma Qarabağda yaşayan ermənilər susur. Hanı 120 min dediyiniz əhali? Bəsdir yalan danışdınız, orada heç min nəfər qalmayıb. Hamı qaçıb canını qurtarıb. Kimi İrəvana, kimi də erməni diasporu çox olan ölkələrə. Orada yaşayanlar guya blokadadırlar. Bəs niyə narazılıqlarını bildirmirlər? Çünki orada olan 100-dən bir az çox insan çölə çıxsa, bütün yalanlar ifşa olacaq, hazırda müxtəlif beynəlxalq platformalarda erməni diaspor nümayəndələrinin "Bakı 120 min erməniyə qarşı humanitar təzyiq göstərir" qışqırıqları puça çıxacaq".

Ermənilər Laçın yolu ilə bağlı BMT-yə müraciət etmişdilər. Ermənistanın BMT-nin "Qarabağa faktaraşdırıcı missiya" göndərməsi ilə bağlı istəyi nəticəsiz qalmışdı. BMT Baş katibinin köməkçisi Miroslav Yença Bakının "mədənlərin qeyri-qanuni istismarının araşdırılması" istəyinə cavabında bildirib ki, BMT Laçın yolu və Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında hansısa addım ata bilməyəcək. O, tərəfləri 10 noyabr razılaşmasına əməl etməyə dəvət edib. Bu, İrəvanın BMT-dən istədiyi "missiyanın" da Qarabağa gəlməyəcəyi deməkdir. Ermənistan hadisələrin hansı istiqamətdə gedəcəyini, BMT Təhlükəsizlik Şurasının müzakirələrinin nə ilə bitəcəyinə yəqin ki, hesablamamış deyildi. Görünür əsas məqsəd dünya ictimayyətini çaşdırıb "blokadada qalan erməni xalqına" qış azuqəsi toplamaqdır.












Son illər Ermənistanın ard-arda hərbi-siyasi məğlubiyyətləri erməniləri tamam çaşdırıb. Ermənilər problemin həllinin dəqiq ünvanını bilmirlər. Birinci, Ermənistan unutmamalıdır ki, BMT TŞ-nin Ermənistanın Azərbaycan torpaqlarından çıxması üçün qəbul etdiyi dörd qətnaməni 27 il yerinə yetirmədilər. Azərbaycan özü BMT-nin 4 qətnaməsini təkbaşına icra etdi.

Digər tərəfdən BMT-də Azərbaycana çağırış edənlər bilirlərmi ki, 30 ildir Naxçıvan blokadadadır. Ermənilər 10 noyabr Bəyanatının şərtlərini pozaraq bu günə kimi Şərqi Zəngəzur dəhlizinin açılmasını müxtəlif bəhanələrlə yubadırlar. Ermənistan silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb. Ermənistanın revanşist qüvvələri onlara verilən humanitar yoldan keçərək Qarabağda fitnəkarlıqlar törətməkdə davam edirlər...

Yaxşı olar ki, BMT-də, Ermənistana dəm tutan digər dövlətlər də Ermənistana anlatsınlar ki, problemin həlli Azərbaycanla danışıqlardan keçir. Bir ölkənin ərazisində yaşayıb, qanunlarını heçə saymaq mümkün deyil. Azərbaycan təzyiqlər yolu ilə təsir edə biləcəyiniz marionet bir dövlət deyil. Xam xəyallarınızdan əl çəkin.

Laçın yolunda etiraz aksiyası keçirən fəallardan Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin sədri Mətanət Əsgərqızı bizimlə telefon əlaqəsi zamanı BMT Təhlükəsizlik Şurasının çağırışına münasibət bildirərkən dedi: "Biz bu aksiyamızdan heç vaxt, "humanizm naminə" deyib geri çəkilə bilmərik. Bu, olduqca neqativ presedent ola bilər. Qazın verilməsini qələbələri kimi təqdim edən Ruben Vardanyana ikinci belə bir şans verə bilmərik ki, o da özünü milli qəhrəman hesab etsin, separatçılara ümid vermiş olsun.

Bizə "humanizm naminə" müraciət edənlər bilirlərmi ki, Ermənistan 10 noyabr Bəyanatının şərtlərini açıq surətdə pozur? Ermənistan Qarabağdan silahlı birləşmələrinin qalıqlarını hələ də çıxarmayıb. 30 ildir Xankəndidən didərgin saldıqları azərbaycanlıların öz evlərinə dönmələrinə imkan vermirlər. Humanizmdən dəm vuran bu insanlar bilirlərmi ki, ermənilər Qarabağı ekoloji fəlakət zonasına çeviriblər. BMT Təhlükəsizlik Şurası torpaqlarımıza bir milyondan çox mina basdıran Ermənistana nədən müraciət edib mina terroruna son qoymağı, minalanmış ərazilərin dəqiq xəritəsini verməyi tələb etmir?

Tələblərimiz yerinə yetirilənə qədər aksiyamız davam edəcək. Biz hər hansı bir yolu bağlamamışıq. Xəstə, dinc vətəndaşlara yol açıqdır. Burada olmağımız həm də bir vətəndaş nəzarətidir. Biz terrorçuların, seperatçıların torpaqlarımıza gəlib, müharibə təbliğatı aparmasına "yox" deyirik. Biz müharibəyə, qana, ölümə "yox" deyirik. Anlamadığımız bir şey var: bizim burada olmağımıza erməni millətindən olan vətəndaşlarımız etiraz etmirlər. Onda nədən erməni lobbisinin əsiri olmuş Fransanı və digər dövlətləri narahat edir? Yoxsa erməni lobbisinin pullarını kəsəcəklərindən qorxurlar? Yoxsa silahlarını sata bilməyəcəklərindən narahatdırlar...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Sülhməramlıların daha dörd təminat avtomobili aksiya ərazisindən maneəsiz keçib

Rusiya sülhməramlılarına məxsus təminat avtomobilləri Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edirlər.



AZƏRTAC xəbər verir ki, dekabrın 26-da Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus daha dörd təminat avtomobilinin aksiya keçirilən məkandan maneəsiz keçməsinə şərait yaradılıb. Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər.

Qeyd edək ki, dünən səhər saatlarında da Rusiya sülhməramlılarına məxsus təminat avtomobili Xankəndidən Laçın istiqamətinə doğru gedib.

Bir daha xatırladırıq ki, Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.



## Pakistanlı tələbələr Şuşa-Xankəndi yolundakı ekoaksiyada iştiraka hazırdırlar

Pakistanlı tələbələr İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏTGF) Avrasiya Regional Mərkəzinin (ARM) ekoaksiyası təşəbbüsünə qoşulublar.




İƏTGF-dən AZƏRTAC-a bildirilib ki, Azərbaycanda təhsil alan Pakistanlı Tələbə Assosiasiyasının (APTA) İdarə Heyəti azərbaycanlı ictimai fəalların artıq iki həftədir Şuşa-Xankəndi yolunda keçirdikləri ekoloji aksiyaya dəstək bəyanatı ilə çıxış edib.

Bəyanatda Qarabağda ermənilərin qeyri-qanuni fəaliyyəti nəticəsində ətraf mühitə vurulan ziyandan narahatlıq və bununla bağlı azərbaycanlı ekoloqların tələblərinin yerinə yetirilməsinin vacibliyi öz əksini tapıb. Sənəddə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin bu istiqamətdə apardığı fəaliyyət, Qarabağdakı bərpa işləri yüksək qiymətləndirilib, eləcə də Azərbaycanda təhsil alan pakistanlı tələbələrin könüllü kimi Qarabağda ətraf mühitin qorunmasına yönəlik monitorinq fəaliyyətində iştirak etməyə hazır olduqları qeyd edilib.

Bir müddət öncə Pakistanda fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Qlobal Strateji İnstitut və Gənc Diplomatlar Forumu, eləcə də İndoneziyanı təmsil edən İndoneziya Milli Gənclər Şurası və İndoneziya İƏT Gənclər Forumu analoji bəyanatlarla çıxış ediblər.

Qeyd edək ki, bu yaxınlarda (İƏT GF ARM) İdarə Heyəti Azərbaycanın Qarabağ bölgəsində, Şuşa-Xankəndi yolunda keçirilən ekoloji aksiyaya dəstəyi ifadə edən bəyanatla çıxış edib. Bəyanatda Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinin hələ də bu tipli monitorinqlərdən kənar və nəzarətsiz qalması təəssüflə bildirilir, eyni zamanda keçiriləcək monitorinqlərin obyektivliyini təmin etmək məqsədilə Azərbaycan ekoloji könüllülərinə dəstək olaraq Avrasiya regionu gənc ekoloqlarından ibarət heyətin monitorinqlərə qatılmasına hazırlıq ifadə olunur.

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və islami dəyərlərə hörmətsizlik - İranın əsl mahiyyəti

## İranda ümummilli etirazlar davam edir

### Edamlar, ölüm hökmləri istiqlal fədailərini qorxutmur

**İranda qadınların hicab əleyhinə qarşı başlayan, orada yaşayan bütün xalqların azadlıq hərəkatına çevrilən etiraz aksiyaları davam edir.**





Üç aydan çoxdur davam edən nümayişlərdə etirazçıların sayı ilə yanaşı, tələblər də artıb. Aksiya iştirakçıları hicaba yox deməklə yanaşı, artıq azadlıq, molla rejiminin dəyişməsini istəyirlər.

İlk günlərdə hökumət tezliklə aksiyanın qarşısını alacağını düşünsə də, bununla bağlı sərt bəyanatlar versə də, görünən odur ki, nümayişçilərin iradəsini, əzmini qıra bilmir. Lakin hələ də aksiyalara rəhbərlik edənlər, insanları nümayişlərə qaldıranlar saxlanılır, həbs olunur, onlar barəsində ölüm hökmləri çıxarılır...

Buna baxmayaraq, etirazlar İranın əksər böyük şəhərlərini əhatə edir və gündən-günə genişləndirilir. Etirazçılar aksiyalarda "Diktatora ölüm!", "Azadlıq!", "Xamenei qatildir, rəhbərliyi batildir" kimi şüarlar səsləndirməklə, azadlıq, hüquq və haqlarının təmin olunmasını tələb edirlər. Böyük əksəriyyətini qadınlar təşkil edən aksiya fəalları xalqı nümayişlərə səsləyir, öz haqlarını hüquqlarını tələb etmələrinin vacibliyini söyləyirlər. İran hökuməti isə aksiyaların vüsət aldığı şəhərlərdə interneti kəsməklə görüntülərin yayılmasının qarşısını almağa çalışır. Amma görülən tədbirlər xalqı, fəalları öz yolundan döndərmir.

### Rejimin etirazçıları xofa salmaq cəhdləri

İran İnsan Haqları Təşkilatının məlumatına görə, ümummilli etirazlarda təhlükəsizlik qüvvələri tərəfindən 560-dan çox aksiyaçı öldürülüb. Onların 63-nü uşaq, 32-sini isə qadınlar təşkil edir. Qeyd olunub ki, 39 nəfər edam və ya ölüm hökmünə məhkum edilib. Təşkilatın məlumatında bildirilir ki, ailələr təzyiq altında olduğundan susurlar, buna görə də say daha az görünsə də, reallıqda bu rəqəmlər daha yüksəkdir. Təşkilat etirazçıların edamını dayandırmaq üçün beynəlxalq ictimaiyyəti, xüsusən də hökumətləri daha təsirli addımlar atmağa çağırır. Ümumilikdə ölüm sayının daha çox olduğu istisna edilmir. Bildirilib ki, təhlükəsizlik üzrə təqsirləndirilən şəxslərin öz vəkillərinə çıxışının olmaması və onların ailə təmaslarının məhdudlaşdırılması davam etdirilir. Bir çox hüquqşünaslar məhkəmə prosesinin bütün mərhələlərində müvəkkilləri və onların işləri ilə maraqlanmağın qarşısının alındığını bildirirlər.

Ölümə məhkumun əsas səbəbi isə islam hökumətinə qarşı çıxmaq, milli təhlükəsizliyə qarşı sövdələşmə aparmaq, mübahisə və iğtişaş yaratmaqla ictimai asayişi və təhlükəsizliyi pozmaq, qanunsuz toplantılarda iştirak etmək kim götürülür.

Ümumiyyətlə isə, sentyabrdan başlayan aksiyaları yatıra bilməyən hökumət etirazçıları edam etməklə cəmiyyətdə qorxu yaratmağa çalışır, bununla insanların azadlıq hərəkatını boğmaq, haqq səslərini susdurmaq istəyir. Hər zaman insanları qorxudaraq hökmranlıq etməyə çalışan İran, başda qadınlar olmaqla, vətəndaşlarının hüquq və haqlarını tapdalayır, azadlıqlarını əlindən alır. Bunu son illərdə İranda edama məhkum olanların statistikasından da görmək mümkündür.

### Yalan və boş vədlər

Ölkə rəsmiləri etirazların səngiməsi üçün aksiyalar başladığı gündən çıxışlarında tələblərin nəzərə alınacağını, müəyyən proseslərin getdiyini desələr də, görünən odur ki, bunlar boş vədlərdən başqa bir şey deyildir. Məsələn, bunun əxlaq polisinin ləğv edilməsi ilə bağlı xəbərlərdə şahidi olduq. İranın Baş prokuroru Məhəmməd Cəfər Montazeri dekabrın əvvəlində dini konfransda ölkədə islami geyim qaydalarının yerinə yetirilməsinə nəzarət edən əxlaq polisinin ləğv ediləcəyi ilə bağlı açıqlamasının havada qaldığının şahidi olduq. Bu açıqlamadan sonra ekspertlər ölkə rəsmiləri tərəfindən belə çıxışların iğtişaşları yatırmaq üçün boş vədlər olduğunu bildirmişdilər. Eyni zamanda baş prokuror parlamentdə qadınların hicab taxmasını tələb edən qanuna da baxılacağını demişdi. Beləliklə, rəsmi Tehranın aksiyaları dayandırmaq üçün hər yola əl atdığı açıq-aydın görünür. Bunun üçün nümayişçiləri edam etməklə etirazçılara xof gəlmək, yalan vədlər vermək kimi bir çox düşünülmüş planlar aiddir. Amma göründüyü kimi, rəsmilərin düşünülmüş planları heç bir nəticə vermir, əksinə, İranda yaşayan hər kəs azadlıq istəyir və rejim dəyişikliyinə ehtiyac olduğunu israrla bildirirlər.

Qadınlar artıq hakimiyyətin dəyişməsini, rejimin devrilməsini istəyirlər. Əks halda bu rejimlə İranın gələcəyinin olmadığını deyirlər.

Artıq İranın ali rəhbəri Ayətullah Seyid Əli Xameneyinin bacısı, Bədri Hüseyni müraciətində qardaşının günahsız insanları sıxışdırmaq və öldürməkdə Ruhullah Xomeyninin yolunu davam etdirdiyini qeyd edib. O vurğulayıb ki, qardaşı İran xalqının səsinə qulaq asmır, yanlış olaraq öz muzdlularının, yaltaqların, xalqın payını yeyənlərin çıxışlarını İran xalqının səsi hesab edir.

B.Hüseyni İranın ali rəhbəri ilə əlaqələri kəsdiyini, əvvəllər insani vəzifəsi olaraq dəfələrlə xalqın səsini ona çatdırdığını da vurğulayıb: "Uşaq itkisi və övladdan ayrılıq hər bir ana üçün böyük kədərdir. Son dörd onillikdə bir çox analar yaxınlarını itiriblər".

O, Xomeyninin və Xameneyinin dövründə rejimin törətdiyi cinayətlər nəticəsində günahsız ölən insanların analarına başsağlığı da verib.

Bütün bunlar göstərir ki, hətta rejimin daxilindəkilər də gerçəkliyi artıq görür, insanların günahsız yerə öldürüldüyünün şahidi olurlar. Amma İran rəsmiləri hələ ki tutduğu yoldan, mövqedən dönməməkdə israrlıdır. Rəsmi Tehranın bu siyasəti onun qonşu dövlətə - Azərbaycana qarşı münasibətində, atdığı addımlarda, terrorizmi - Ermənistanı dəstəkləməsində, din adı altında pərdələnməklə əslində islami dəyərlərə göstərdiyi biganələyində, təhlükəsizliklərini özlərinin qırmızı xətti kimi cızdıqları dövlətin islam dininə qarşı hörmətsizliklərinə susmalarında da göstərir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## ◆ Ana dili problemi cənub ədəbiyyatında

## Milli Hökumət devrildikdən sonra ana dilinin hüquqları uğrunda mübarizə

Milli Hökumətin süqutundan sonra şah rejiminin qanlı repressiyalarının tüğyan etdiyi illərdə görünməmiş fiziki və mənəvi təzyiqlərə məruz qalan, hər gün ölüm, işgəncə səhnələri və satqınlıqla üzləşən insanlar arasında vətənə, xalqa məhəbbət hisslərini qoruyub saxlamaq üçün bədii sözün üzərinə böyük ağırlıq düşürdü.

Əslində, həmin dövrdə bu zülmə qarşı etirazın başqa yolu da qalmamışdı. Problemin siyasi və hüququ yollarının istər daxildə, istərsə də beynəlxalq səviyyədə tamamilə qapanması həm ədəbiyyatın, həm də ədəbiyyat xadimlərinin qarşısında real təhlükələrlə dolu olan yeganə yol qoymuşdu - *zülmə qarşı sözlə dirənmək!* Bu direniş özündə yalnız milli hüquqlar uğrunda mübarizəni deyil, həm də ana dilinin yaşadılması və inkişafında etiva edirdi. Belə ki, ana dilində yaradılan bütün ədəbi nümunələr kimi, etiraz nümunələrinin özləri də gizli yolla çap edilməsindən və ya şifahi şəkildə yayılmasından asılı olmayaraq, istər-istəməz dilin inkişafına xidmət edirdi.

Təsadüfi deyildir ki, tanınmış şair H.M.Savalan məsələnin bu tərəfini olduqca aydın ifadə etməklə yanaşı, həmkarlarını ana dilinin inkişafı üçün daha çox yazıb-yaratmağa çağırırdı:

*Çoxlu yazaq, çox yaradaq,*
*Şerimiz də çiçəklənə.*
*Dilimiz aça qol-budaq,*
*Elimiz çata xoş günə.*

Bu dönəmdə M.Şəhriyar, B.Q.Səhənd, M.Fərzanə, M.C.Bağçaban, N.Fəthi, M.Ə.Azər, H.Katibi, S.Cavid, G.Sabahi, S.Bəhrəngi, Ə.Təbrizi, C.Heyət, K.M.Sönməz, H.M.Savalan və başqa milli ziyalılar bütün qadağa və basqılara rəğmən, ana dilinin heç olmasa, ədəbiyyatda işlənməsi üçün gizli ədəbi məclislər yaratmaqla, xalq yaradıcılığına aid müxtəlif kitablar çap edib yaymaqla bu zülmə qarşı asimmetrik mübarizə aparırdılar.

Bu birliklərdən biri də Səhəndin təşəbbüsü ilə 1953-cü ildə Tehranda qurulmuş və 1960-cı illərin ortalarına qədər fəaliyyət göstərmişdi. Böyük ziyalı Gəncəli Sabahi bununla bağlı olaraq öz xatirələrində aşağıdakıları qeyd edir:

"1954-cü ilin əvvəllərində Azərbaycan xiyabanında "Səba" adlı fotoqrafxana açmışdım. Bura kasıbkarlıqdan daha çox dostların görüş ocağına oxşayırdı. Fotoqrafxanada oturmuşdum. Buludla görüşümüzdən iki həftə keçirdi. O, mənim görüşümə gəldi. Bir az söhbətdən sonra dedi:

- Biz istəyirik ki, bir "ədəbi bölmə" təşkil edək. Əlbəttə, bu bölmənin işi ədəbi fəaliyyət olacaqdır. Azərbaycan dilində yazılmış əsərləri, bir də toplanılmış xalq ağız ədəbiyyatından imkan olduqca çapa verib müntəşir etmək və...

- Yaxşı fikirdir. Bu xeyir işə kimlər ilə əncam vermək istəyirsiniz? - deyə soruşduqda o siqarını alışdırdı. Bir nəfəs sümürdükdən sonra: - Ağayı-doktor Katibi, Fərzanə, bir də siz olacaqsınız, - deyə cavab verdi.

Buludun təklifi mənim ürəyimə yatan iş idi. Beləliklə həftədə bir gün evlərimizdə ədəbi yığıncaqlara başladıq".

Doktor S.Cavidin bildirdiyinə görə, 1960-cı illərin əvvəllərindən başlayaraq belə ədəbi məclislərə gələnlərin sayı xeyli artmağa başlayır. Görüşlər bir qayda olaraq, növbə ilə məclis üzvlərinin evlərində keçirilir, ədəbi müzakirələrlə yanaşı, Bakıdan gizli şəkildə gətirilən "Ədəbiyyat və incəsənət" qəzeti, "Azərbaycan" jurnalı və digər nəşrlərdə dərc olunmuş materiallar ərəb əlifbasına keçirilməklə oxunur və yayılırdı. Cənublu ziyalılar bu yolla öz milli varlıqlarını isbat etməyə çalışır, ana dilini yazıda işlək hala gətirmək üçün apardıqları mübarizəni ədəbi görüşlər adı altında reallaşdırır, mətbələrdə gizli şəkildə kitablar nəşr etdirib yayırdılar ki, Şimali Azərbaycanda artıq təşəkkül tapmış və oturuşmuş ədəbi dil məkanından, həm də oradakı qızğın ədəbi prosesdən kənarda qalmasınlar.

*(Əvvəli qəzetin 21, 22 dekabr tarixli saylarında)*

Onu da qeyd edək ki, Cənubda Azərbaycan dilinin qramatikasına aid ilk kitab da məhz bu dövrdə M.Fərzanə tərəfindən yazılıb nəşr etdirilmişdir. İnkarçılıqla bağlı rəsmi təbliğata zidd olduğuna, Azərbaycan dilinin ayrıca bir dil kimi müstəqilliyini sübut etdiyinə görə rejim bu kitabın yayılmasına icazə verə bilməzdi. Ona görə əsər dərhal yığışdırıldı, hətta onun mövcudluğu barədə mətbuat xəbərlərinə belə yasaq qoyuldu...

Bu dövrdə ədəbi məclislərə marağın artması həm də təhlükəsizlik problemləri ortaya çıxarırdı. Belə ki, məclis iştirakçılarının arasına rejim xəfiyyələrinin daxil edilməyəcəyinə heç kim zəmanət verə bilməzdi. Ona görə də belə qərara gəlindi ki, məclisə yeni gələn hər bir şəxs üçün məclis üzvlərindən biri zəmanət versin. Əlbəttə, rejim də boş dayanmırdı. İranda geniş yayılmış iddialara görə, görkəmli ziyalı Səməd Behrəngi də bu fəaliyyətin qurbanı olmuş, 1967-ci ildə SAVAK xəfiyyələri tərəfindən qətl edilərək Araz çayına atılmışdı. Bu qanlı cinayətin törədilməsində məqsəd aydın idi: Azərbaycan ziyalılarının gözünü qorxutmaq və onları milli hüquqlar uğrunda mübarizədən çəkindirmək...

Səhənd başda olmaqla, məclis üzvləri "Heydərbabaya salam" poeması ilə ana dilli poetik yaradıcılığa yeni təkan və yön vermiş, cənubda milli poeziyanın mübahisəsiz bayraqdarına çevrilmiş böyük ustad M.Şəhriyarı da bu ədəbi-siyasi işə cəlb etmək qərarına gəlmişdilər. Ustadın məclisə qatılıb bu fəaliyyətə dəstəyini bildirməsi onların gücünə güc qatıb birliklərini daha da möhkəmləndirə, eləcə də onun özünün son zamanlar keçirdiyi guşənişin həyat tərzindən xilas olub ana dilində yeni əsərlər yaratmasına rəvac verə bilərdi. Belə ki, Şəhriyar həmin dövrdə, Təbrizdə öz mənzilinə çəkilib ətraf aləmdən təcrid olunmuş şəkildə yaşayır, demək olar ki, heç kəsi qəbul etmir, başqaları ilə hər cür təmasdan qaçırdı.

S.Cavid xatirələrində yazır: "Bu məqsədlə qüdrətli və qeyrətli şairimiz Səhənd Təbrizə yollandı. Şəhriyarı Tehrandakı dostları və pərəstişkarları adından Tehrana dəvət etdi. O, bu dəvəti qəbul etdi. Şəhriyar Səhəndlə bərabər Tehrana gəldi. Mərhum Səhənd onu öz mənzilinə apardı. Şəhriyarın Tehrana gəlişi azərbaycanlıların buradakı ədəbi mühiti üçün böyük hadisə, toy-bayram oldu".

Dəfələrlə şah rejimi repressiyalarına məruz qalmış, sözlə direniş hərəkatının liderlərindən olan Səhəndin məşhur "Taleyimə sən bax!" adlı şeri həmin günlərin ictimai-siyasi və mənəvi abhavasını təsəvvür etmək baxımından olduqca ibrətamizdir:

*...Taleyimə sən bax!*
*Düşüncələrim yasaq,*
*duyğularım yasaq,*
*keçmişimdən söz açmağım yasaq.*
*Gələcəyimdən danışmağım yasaq,*
*ata-babamın adın çəkməyim yasaq,*
*anamdan ad aparmağım yasaq.*

Cənubi Azərbaycanda ana dilinin hüquqları uğrunda mübarizədə Səhəndin yaradıcılığı və fəaliyyəti ayrıca qeyd edilməlidir. Belə ki, o bütün həyatı boyu bu problemin həllinə xüsusi önəm vermiş, heç bir basqı məhrumiyyətə baxmadan öz fikirlərini auditoriyasına şeir və poemalarında, çıxışlarında açıq şəkildə çatdırmaqdan çəkinməmiş, həmkarlarının milli hüquqlar uğrunda təşkilatlanmasına öncüllük etmişdir. İrticanın tüğyan etdiyi dövrdə Tehranda oturub hakimiyyəti qəsb etmiş "namərd"in ünvanına çoxlarının dilinə almağa belə cəsarət edə bilmədiyi bu sözləri yazmaq hər qələm sahibinin bacaracağı iş deyildi:

*Dov düşüb dırnaqsız namərd əlinə,*
*Dişi batan yerin ətin qopardır.*
*Dil açıb dilində danışanların,*
*Çəkir boğazından dilin çıxardır!*

Onun görkəmli şərqşünas, professor Rüstəm Əliyev vasitəsilə şimallı yazarlarlara yaratdığı insani və ədəbi əlaqələr isə cənublu ziyalıların mübarizəsinə böyük güc və inam qazandırmışdı.

Məhz elə buna görə də 2013-cü ilin baharında, ana dilinin hüquqları uğrunda mübarizəsi və anadilli poeziyanın inkişafında xidmətləri nəzərə alınmaqla, Səhəndin ölüm günü - 11 aprel Cənubi Azərbaycanda *"Bulud Qaraçurlu türki şeir günü"* elan olunmuşdur.

Bu dövrdə ana dilinin hüquqları uğrunda mübarizənin öncüllərindən biri də böyük ziyalı və fikir adamı, İranda modern fars və türk şeirinin atası hesab edilən Həbib Sahir olmuşdur. Onun nəzərində dil azadlığı - ana dilində yazıb yaratmaq və oxumaq haqqı milli-mənəvi azadlığın ən vacib, zəruri və əhəmiyyətlisidir. Ana dilini qorumaq bütövlükdə milli mövcudluğu qorumaq deməkdir. Ona görə də yazırdı:

*Yadın dili - boyunduruq,*
*Bir keçiddir: buruq-buruq!*
*Boyunduruq xalqı boğar,*
*Keçidlərdə quldur soyar.*

Cənubda ana dilində yaradıcılığa yenidən təkan vermiş və böyük bir poeziya məktəbi yaratmış dahi söz ustadı Şəhriyar isə "Türkün dili" adlı məşhur şeirində ana dilinə münasibətini üsyankar Səhənddən və H.Nitqidən fərqli olaraq tamamilə başqa, əgər belə demək mümkünsə, daha diplomatik tərzdə - onun üstün məziyyətlərinin təsviri üzərindən ifadə etmişdir:

*Türkün dili tək sevgili, istəkli dil olmaz,*
*Ayrı dilə qatsan, bu əsil dil, əsil olmaz.*
*Öz şerini farsa, ərəbə qatmasa şair,*
*Şeri oxuyanlar, eşidənlər kəsil olmaz.*

Ana dili mövzusu şeirləri yalnız cənubda deyil, həm də şimalda məşhur olan görgəmli şair K.M.Sönməz yaradıcılığından da qırmızı xətlə keçir. O öz şeirlərində bu məsələyə dəfələrlə toxunmuşdur. Onu da qeyd etməliyik ki, problemə ustad Şəhriyar kimi, "məcburi diplomatik yanaşma" Sönməz yaradıcılığı üçün də xarakterikdir.

Savalan isə əksinə, "Dilim" şeirində problemə haqlı olaraq namus və milli ləyaqət prizmasından yanaşır:

*Bir yad bizə ağız büzə,*
*Xor baxa, sala xar gözə.*
*Day inanma elim dözə,*
*Namusum, arımdı dilim.*

Problemlə bağlı görkəmli ziyalı, cənubda türkçülüyün ideoloqlarından və milli direniş hərəkatının liderlərindən olan Əli Təbrizlinin hələ 1960-cı illərdə qələmə aldığı "Ədəbiyyat və milliyyət" adlı əsərini ayrıcı qeyd etmək lazım gəlir. Müəllif kitabda Azərbaycan türkcəsinə aşağılayıcı münasibət bəsləyən, xalqın tarixini təhrif edən, əsrlər boyu qardaş kimi yaşadıqları farslardan onlara düşmən yaradanları kəskin tənqid atəşinə tutur. Türk şahlarının heç vaxt farsları və digər etnik qrupları bir-birindən ayırmadıqlarını, onların dillərinin və mədəniyyətlərinin inkişafına hər cür şərait yaratdıqlarını xatırladır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, Pəhləvi irticasının tüğyan etdiyi 55 il ərzində Cənubi Azərbaycanın yaradıcı ziyalıları bütün basqı və qadağalara rəğmən, milli hüquqlar, ilk növbədə də ana dilinin hüquqları uğrunda gizli və müəyyən dərəcədə təşkilatlanmış şəkildə mübarizə aparmışlar. Bu mübarizə aşağıdakı fəaliyyətləri əhatə etmişdir:

- Ana dilində əsərlərin, o cümlədən milli tarixə və milli dəyərlərə məhəbbət aşılayan əsərlərin yaradılması və təbliği işini təşkil etmək;
- mümkün olduqca ana dilində əsərlərin gizli şəkildə nəşrinə və yayılmasına nail olmaq;
- xalqın öz tarixindən və tarixi yaddaşından qoparılmasının, eləcə də assimilyasiyasının qarşısını almaq məqsədilə milli folklor nümunələrinin toplanması, nəşri və yayımı işini təşkil etmək;
- Azərbaycan dilinin qədim tarixi köklərə və hər cür çağdaş fikirləri ifadə edə biləcək imkanlara sahib olduğunu əyani şəkildə nümayiş etdirmək;
- Bakıda nəşr olunan qəzet, jurnal və kitabları əldə edib ərəb əlifbasına çevirməklə şimalda mövcud olan ədəbi dil məkanı ilə əlaqələri işlək saxlamaq və ədəbi prosesdə baş verən yenilikləri izləmək.

**(ardı var)**

*Fikrət SÜLEYMANOĞLU,*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi*

## Urmiya gölü 90 faiz quruyub

İran Ali Məhkəməsi güney azərbaycanlı vəkillərin Urmiya gölünün qurumasının qarşısını almaq, onun bərpasının sürətləndirilməsi və aparılan işlərin araşdırılması ilə bağlı təkliflərini rədd edib.



Məhkəmə bu məsələ ilə bağlı nümayəndə kimi seçilən Mehdi Zahiri Yusifabadi və Əsgər Məhəmmədinin müraciətlərinin keçərsiz olduğunu bildirib.

Azərbaycanlı vəkillər Şərqi və Qərbi Azərbaycan əyalətlərinin Ətraf Mühitin Mühafizəsi İdarəsi, Şəhərsalma və Yol Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Energitika Nazirliyi və başqa əlaqədar qurumları Urmiya gölünün bərpası işlərində məsuliyyətsizlik etməkdə günahlandırıb, onların barəsində iddia qaldırıblar.

Qeyd edək ki, Urmiya gölünün təxminən 90 faizi quruyub və müfafiq bərpa işlərinin aparılmayacağı təqdirdə yaxın zamanlarda gölün tamamilə yox olacağı gözlənilir.

## Almaniya Tehrana iqtisadi yardım proqramlarını dayandırır

Ölkələr arasında onsuz da az olan əməkdaşlıq proqramları İrandakı vəziyyətin girovuna çevrilib. Berlin bu ölkədəki vəziyyətə görə Tehrana maliyyə və iqtisadi yardım proqramlarını dayandırıb. Bu barədə Almaniyanın İqtisadiyyat və İqlim Mühafizəsi Federal Nazirliyi məlumat yayıb. Məsələn, Almaniya ixrac kreditləri və investisiyalar, Almaniya-İran enerji dialoqu, menecment üzrə təlim proqramı və ticarət sərgisi proqramı üçün zəmanətləri dayandırıb.

Nazirlikdən bildirilib ki, istisna hallarında yalnız təcili humanitar məsələlərə görə icazə verilə bilər.

Bunun səbəbi kimi təfərrüatlar verilmədən "İranda yaranmış çox ciddi vəziyyət" göstərilir.

## Qərb İrana qarşı yeni sanksiyalar tətbiq edir

İran uzun illərdir ki, Qərbin, ilk növbədə Amerikanın sanksiyaları ilə üzləşib. 2015-ci ildə bir tərəfdən İran, digər tərəfdən ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Çin və Rusiya arasında İranın nüvə obyektlərinə MAQATE-nin nəzarəti müqabilində sanksiyaların bir hissəsinin ləğvi barədə razılıq əldə olunub.

"Nüvə sazişi" adlandırılan bu sənəd 2018-ci ilə qədər, ABŞ prezidenti Donald Tramp ölkəsinin sazişdən çıxdığını elan edənə qədər qüvvədə olub. O vaxtdan bəri "nüvə sazişi"nə qayıtmağın mümkünlüyü müzakirə olunur, lakin nəzərəçarpacaq irəliləyiş yoxdur.

İran silahlarının Ukraynaya qarşı müharibədə istifadə üçün Rusiyaya satmağa başlaması ilə müqavilənin yenilənməsi şansları daha da çətinləşib. Qərb ölkələri də 2022-ci ildə xalqın etirazlarını amansızcasına yatırtdığı üçün İrana qarşı yeni sanksiyalar tətbiq etməyə başlayıb.

***"Azərbaycan"***

# REGİONLAR

## Azərbaycan tolerantlığının daha bir nümunəsi

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horleman, Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Torma və Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tomas Şuller-Qötzburq alman əsirlərinin məzarlığını ziyarət ediblər.

Məlumat üçün bildirək ki, qəbiristanlıqda 311 məzar var. Ümumilikdə Azərbaycanda İkinci Dünya müharibəsi iştirakçıları olan əsirlərin dəfn edildiyi 11 məzarlıq və 2986 məzar var. Onlardan biri də Sumqayıtdadır. Məzarlıqda dəfn olunanların 269-u alman-əsilli olub. Qalanları isə avstriyalı və macardır. Əsirlər Sumqayıtın salınmasında yaxından iştirak ediblər və onların inşa etdikləri binaların nümunələri bu gün də qalmaqdadır.

Ziyarət zamanı qeyd edilib ki, məzarda mütəmadi olaraq iməciliklər keçirilir. Bunun özü tolerantlığın nümunəsidir. Azərbaycan tarixin ilkin dönəmlərindən başlayaraq hər zaman başqa xalqlara və dinlərə saygı ilə yanaşıb. Bu münasibət müasir zamanda nəinki dəyişməyib, əksinə, daha da dərinləşib. Dövlət müstəqilliyinin bərpasından sonra isə xalqımızın əsrlər boyu yaşatdığı bu dəyər dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib.

Səfirlərin iştirakı ilə məzarlığın ətrafında 40 çinar əkildikdən sonra ziyarət çay süfrəsi arxasında davam edib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Gəncədə türk istehsal müəssisələrinin açılışı olub



Gəncədə "Galaksi Tekstil" və "Galaksi Seramik Tava" istehsalı müəssisələrinin açılışı olub. Açılışda şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, türk iş adamı, "Galaksi" şirkətinin sahibi Qiyas Akkurt, idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak ediblər.

N.Bayramov və Q.Akkurt tərəfindən müəssisənin rəmzi açılışını bildirən qırmızı lent kəsildikdən sonra istehsalat sahələrinə baxış keçirilib. Bildirilib ki, "Galaksi Tekstil" və "Galaksi Seramik Tava" istehsalı müəssisələrində ilkin mərhələdə 150 işçi çalışır. Gələcəkdə işçi sayının artacağı gözlənilir. Müəssisələrdə ayda 5 min yataq, 5 min tava dəstlərinin istehsalı nəzərdə tutulub.

Yaxın gələcəkdə 3-cü istehsal müəssisəsinin də açılacağını deyən Qiyas Akkurt Azərbaycanda xarici investorlara yaradılan şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Qeyd edək ki, "Galaksi" şirkəti ölkəmizdə 20 ildən çoxdur ki, fəaliyyət göstərir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Göygöldə fermerlər üçün yeni xidmət mərkəzi açılıb

**Son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının çəkisi və rolu artmaqdadır. Bölgələrimizdə bu sahənin inkişafı istiqamətində icra olunan layihələr ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına, ticari fəallığın yüksəlməsinə, emal və istehsal müəssisələrinin artmasına, vətəndaşların iş yerləri ilə təminatına və beləliklə, bölgələrin sürətli inkişafına xidmət edir.**



Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyası dövlətin bölgələrdə maddi rifahın yüksəldilməsi, ölkədə rəqabət mühitinin yaxşılaşdırılması, xarici investisiyaların cəlb olunmasının təşviq edilməsi istiqamətində səylərin artırılmasına təkan vermişdir.

Bu cür özəl sektor təşəbbüslərindən biri də dünya miqyaslı kənd təsərrüfatı və inşaat texnikaları istehsalçısı olan "New Holland" şirkətinin Göygöl rayonunda fermerlər üçün açdığı yeni xidmət mərkəzidir. Mərkəzdə şirkətin texnikalarının satışı təşkil olunacaq.

Açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev Azərbaycan Prezidenti İlham Əliyevin özəl sektora göstərdiyi diqqət və verdiyi dəstəkdən danışmış, rayonda biznes mühitinin formalaşması üçün görülən işləri diqqətə çatdırmışdır. "New Holland" şirkətinin nümayəndələri Styuart Kempbell və Arda Levent də Azərbaycanda özəl sektorun inkişafına və investisiya qoyuluşuna yaradılmış şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Rəmzi qırmızı lent kəsildikdən sonra tədbir iştirakçıları mərkəzlə tanış olmuşlar. Mərkəzin qapalı satış pavilyonunda 9 model və 11 modifikasiya üzrə təmsil olunan müasir və yüksək effektivliyə malik "New Holland" traktoru, həmçinin 2 modeldə taxılyığan kombayn tədbir iştirakçılarına təqdim edilmişdir. Texnikaların təqdimatından sonra tədbir iştirakçıları mərkəzin təlim salonu, kredit xidmətinin göstərilməsi ofisi, ehtiyat hissələrinin satış zonasına baş çəkmişlər.

Qeyd edək ki, geniş ərazidə fəaliyyət göstərəcək mərkəzdə fermerlərə daha keyfiyyətli və daha sürətli xidmət olunması üçün hər cür şərait yaradılmışdır. Ən başlıcası, bundan sonra fermerlərin texnika almaq, ehtiyat hissələrini əldə emək problemi olmayacaq. Belə ki, mexanizatorlar ehtiyat hissələrinin satışı zonasında lazımi komplektləşdiriciləri əvvəlkindən daha qısa zaman çərçivəsində və daha rahat şəkildə əldə edə biləcəklər. Bundan başqa, mərkəzdə dövlət dəstəyi ilə xüsusi subsidiyalaşma mexanizminə əsasən texnikaların lizinq şərtləri ilə satışı da həyata keçiriləcək. Bu isə fermerlərə imkan verəcək ki, satış mərkəzindən ayrılmadan yerindəcə texnikanın lizinq şərtləri ilə ala bilsinlər. Xidmət mərkəzi həmçinin xüsusi təlim salonu ilə təchiz edilmişdir ki, bu da fermer və mexanizatorların müasir, innovativ texnikaları daha düzgün istifadə edə bilmələrinə geniş imkanlar yaradır.

Mərkəzdə ilkin mərhələdə 10 daimi iş yeri açılmışdır. Lakin yaxın zamanlarda burada texnikaların təmiri də aparılacaq və bununla əlavə 10 iş yeri açılacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Bu il Balakəndə xurma bol oldu

**Balakən rayonu xurma istehsalına görə respublikada qabaqcıl yerlərdən birini tutur.**

Hazırda rayonda mövcud xurma bağlarının ümumi sahəsi 764,5 hektardır. Bu il rayonda 15 min 737 ton xurma istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə 57 ton artıb. Hər hektar xurma bağından orta hesabla 205,8 sentner məhsul götürülüb. Bu barədə AZƏRTAC-a Balakən Rayon Statistika İdarəsindən məlumat verilib.

Qeyd edək ki, Balakəndə kənd təsərrüfatının ixrac potensialı yüksək sahələrindən olan xurma istehsalına maraq ildən-ilə artır. Son illər rayonda özəl sərmayələr hesabına xurmanın qurudulmuş formada istehsalı ilə məşğul olan "Balxurma" müəssisəsi yaradılıb. İllik istehsal gücü 2 min ton olan bu müəssisədə



istehsal üçün meyvələr əsasən rayon sakinlərinin fərdi təsərrüfatlarından yığılır. Müəssisədə istehsal olunan tam gigiyenik və ekoloji cəhətdən təmiz xurma məhsulları daxili bazarlarda satılmaqla yanaşı, xarici bazarlara da ixrac edilir.

## Mingəçevirdə iməcilik keçirilib

Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramları ərəfəsində Mingəçevirdə iməcilik keçirilmişdir.



Şəhərin kommunal xidmətlərinin keçirdiyi iməcilikdə yol və səkilərdə təmizlik işləri aparılmış, işıq dirəkləri, işıqforlar, yol nişanları, məhəccərlər və dayanacaqlar yuyulmuş, həmçinin xiyabanlarda və məhəllədaxili ərazilərdə ağacların dibi bellənmişdir.

***L.QULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda yetişdirilmiş 1 milyona yaxın yerli tut tingi fermerlərə paylanıb

Baramaçılıqda yem bazasının gücləndirilməsi məqsədilə yerli şəraitə uyğunlaşmış tut (çəkil) tinglərinin istehsalı davam edir.

Kompleks tədbirlər çərçivəsində bu il 1 milyona yaxın yerli tut tingi istehsal olunaraq əkin üçün hazırlanıb. Tinglərin baramaçılıq rayonlarının ərazisində, kümçülük təsərrüfatlarında və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ayrılmış meşə zolaqlarında əkini nəzərdə tutulur.

Kök hissələrin zədələnməsinin qarşısını almaq məqsədilə xüsusi qablaşdırılmış tinglər Bərdə Baramaqurutma Məntəqəsinə gətirilib və buradan bölgü üzrə rayonlara paylanılıb. Bölgü prosesinə həsr olunmuş tədbirdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin inkişafı və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov bildirib ki, "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda baramaçılığın yem bazasının genişləndirilməsi məqsədilə yeni tut (çəkil) tingliyi təsərrüfatlarının yaradılmasının və tut (çəkil) bağlarının salınmasının dəstəklənməsi nəzərdə tutulub və ötən illər ərzində bu istiqamətdə xeyli işlər görülüb. Baramaçılıq rayonlarında yerli şəraitə uyğunlaşmış tinglər əsasında yeni çəkil bağlarının salınması baramaçılıqda yem bazasını möhkəmləndirməklə ipəkqurdlarının bəslənmə dövründə onların daha keyfiyyətli yarpaqla yemlənməsinə imkan verəcək. Çəkil ağaclarının yarpaqları xüsusi olaraq ipəkqurdunun yemlənməsi üçün nəzərdə tutulub.

Çəkil bağlarının salınmasında xüsusi aqrotexniki qaydalara riayət olunmasının vacibliyini vurğulayan şöbə müdiri bu məqsədlə Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən yerlərdə təlimlərin keçirildiyini, tinglərin əkini və onlara qulluq qaydaları haqqında məlumatlandırma işlərinin aparıldığını bildirib.



Tədbirdə çıxış edən institutun əməkdaşları çəkil bağlarının salınması zamanı tətbiq olunan normativlər, tinglərə mövsümi qulluq qaydaları barədə iştirakçıları məlumatlandırıblar.

Daha sonra tədbir iştirakçıları tərəfindən Bərdə rayonunun Zümürxan kəndində tinglik sahələrinə baxış keçirilib, yetişdirilmiş tinglərin mexanikləşdirilmiş qaydada torpaqdan çıxarılması, qablaşdırılması, ting əkiləcək sahələrdə əkinqabağı hazırlıq işlərinin aparılması, cərgələrin hazırlanması, tut tinglərinin basdırılması və budanması qaydaları fermerlərə əyani şəkildə nümayiş olunub.

Qeyd edək ki, 40-dək rayonda yerli şəraitdə istehsal olunmuş tinglər əsasında çəkil bağlarının salınması prosesi ilin sonuna kimi yekunlaşacaq.

***"Azərbaycan"***

## Naftalanda yeni sosial layihə reallaşdırılıb

Naftalan şəhər və Tərtər Rayon İcra Hakimiyyətlərinin birgə təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində yeni sosial layihə reallaşdırılmışdır.



Layihə çərçivəsində Tərtər rayonundan olan bir qrup şəhid ailəsi və qazi Naftalanda fəaliyyət göstərən "Gold Naftalan" Müalicə Mərkəzinə yerləşdirilmişlər. Onlara müalicə prosedurları və müayinə olunduqdan sonra müalicə prosesinə başlayacaqları barədə məlumat verilmişdir. Bu günlər isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Müalicə Mərkəzində şəhid ailələrini və qaziləri ziyarət etmişlər. Ziyarət zamanı qeyd edilmişdir ki, ölkəmizdə bütün imtiyazlı ailələr, xüsusən də şəhidlərin ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları dövlətin hər cür diqqət və dəstəyi ilə əhatə olunmuşlar. Şəhid ailələri və qazilər buna görə minnətdarlıqlarını bildirmiş və həyata keçirilən sözügedən sosial layihədən məmnun qaldıqlarını qeyd etmişlər.

***"Azərbaycan"***

## Qubanın kəndində yeni tibb məntəqəsi açılıb

Quba rayonunun Talabıqışlaq kəndində yeni inşa olunan tibb məntəqəsi istifadəyə verilib. Yaponiya hökumətinin "Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində tikilən tibb məntəqəsi ginekoloji, təcili tibbi yardım, vaksinasiya və müalicə otaqlarından ibarətdir.



Məntəqənin açılışda Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktorunun müavinləri Anar İsrafilov və Araz Nəsirov, Yaponiyanın ölkəmizdəki səfiri Vada Cuniçi, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər bildiriblər ki, tibb məntəqəsi Talabıqışlaqla yanaşı, ətrafdakı daha 8 kəndin (Xaruşa, Talabı, Küçeyi, Cağacuq, Toxmar, Aspərəsti, Qorxmazoba, Mirzəqışlaq) sakinlərinə xidmət göstərəcək.

Yaxın gələcəkdə Quba Rayon Mərkəzi Xəstəxanası tibb məntəqəsinə 2 həkim, 4 tibb bacısı, mama-ginekoloq təyin edəcək.

# Üzümçülük və Şərabçılıq ETİ ilə emal müəssisələri arasında əməkdaşlıq genişlənir

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun (ÜŞETİ) əməkdaşları Şamaxı rayonu Meysəri kəndindəki üzümçülük və şərabçılıq kompleksində olublar.

İlk öncə kompleksin üzüm bağlarında yetişdirilən Mədrəsə, Şirvanşahı, Xindoqnı, Arna-qrna, Bayanşirə və Saperavi üzüm sortlarından alınmış yüksəkkeyfiyyətli şərabların istehsalı ilə tanış olublar. Yerli torpaq-iqlim şəraitinə uyğun olaraq tənəklərə məqsədəuyğun yükün verilməsi, onların inkişaf qanunauyğunluqları, səciyyəvi əlamətləri, becərilmə texnologiyalarındakı xarakterik xüsusiyyətləri, biokimyəvi və texnoloji potensialları ilə bağlı fikir mübadiləsi aparılıb.

Kompleksin mütəxəssisləri Azərbaycanın yerli texniki üzüm sortlarının yüksəkkeyfiyyətli milli brendlərin istehsalına imkan verən biokimyəvi və texnoloji potensiala malik olduğunu qeyd ediblər. Bildirilib ki, artıq müəssisədə qiymətli, milli brendlərin istehsalı üçün əvəzsiz xammal mənbəyi olan Bayanşirə (19,22 ha), Mədrəsə (17,43 ha), Xındoqnı (1,0 ha), Şirvanşahı (7,36 ha), Arna-qrna (3,64 ha) sortlarından ibarət üzüm bağları mövcuddur. Bu milli brendlərin istehsalının artırılması və ixrac potensialının yüksəldilməsi ilə yanaşı, milli üzüm genofondunun qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi baxımından da əvəzsiz töhfədir.



Görüşdə iqlim dəyişiklikləri fonunda Şamaxı rayonunda da hava şəraitində baş verən tərəddüdlərin üzümün keyfiyyətinə təsirinin optimallaşdırılmasına yönəldilmiş becərmə texnologiyasının müəyyən edilməsi ən vacib məsələ kimi qarşıya qoyulub. Qeyd olunub ki, budama texnologiyası üzümdən yüksəkkeyfiyyətli məhsulun alınmasını təmin etməklə yanaşı, hazırda dünyada geniş yayılan üzüm tənəyinin gövdə xəstəliklərindən (gav yaxud eskarioz, qara ayaq, ölü kol, qanqren və s.) mühafizəsinə yönəldilməlidir. Eyni zamanda bildirilib ki, müəssisədə becərmə texnologiyaları üzümün bioloji potensialından istifadə edilərək torpaq-iqlim şəraitinin ehtiyatlarından səmərəli istifadəsinə kökləndiyindən yüksəkkeyfiyyətli (mineral maddələrlə, o cümlədən makro və mikroelementlərlə zəngin və s.) şərabların alınmasına şərait yaradır.

Daha sonra tarla şəraitində qeyd olunan texniki üzüm sortlarının tənəkləri üzərində yerli torpaq-iqlim şəraitinə uyğun olaraq budama, formavermə qaydaları praktiki olaraq nümayiş etdirilib.

***"Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 13 noyabr (Çərşənbə günü) tarixli XXXVIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 6 səfərülmüzəffər sənə 1337. 13 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### ELANİ-RƏSMİ [RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

### AZƏRBAYCAN ŞURAYİ-MİLLİ RƏYASƏTİNDƏN

Azərbaycan Cümhuriyyəti Hökumətinin qərarına və Heyəti-Vükəla Rəisi Fətəli xan Xoyski müraciətinə binaən [əsasən], Azərbaycan Şurayi-Millisinin noyabrın 16-sında iniqad edəcəyi [təşkil ediləcəyi, qurulacağı] bütün Azərbaycan vətəndaşlarına elan ilə bərabər, Şurayi-Milli əzasının [üzvlərinin] yövmi-məzkurda [deyilən gündə] Bakıda bulunmalarını rica edirəm. Hər nə səbəbdənsə xüsusi dəvətnamə alammamış olan əzanın işbu elannamə ilə iktifa etmələri [kifayətlənmələri] müstədadır [xahiş olunur].

*Azərbaycan Şurayi-Millisi Rəisi Rəsulzadə Məhəmməd Əmin*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mollapaşa Əbdülhüseynzadənin qardaşı və əmisi oğlu, Hacı Məhəmməd Kazımzadə və Məşhədi Məhəmməd Şükürzadənin dostları **Məmi və Səidullanın** üç nəfər arxadaşlarıyla bu il Qurban bayramının günü Quba mahalında Çərçi kəndində zalım qatillər tərəfindən fəcianə bir surətdə qətl olduqlarını öz qövm-əqrəba və dost-aşnalarına elan edir. Pəsməzar həmin səfər ayının 9 və 10-unda Quba meydanında Məşhədiyevin karvansarasında olacaqdır.

### ELANİ-RƏSMİ [RƏSMİ ELAN]

Polis Müfəttişi-Ümumiliyindən

1. Əvvəlcə dəxi elan olunduğu üzrə qadın, erkək, bilcümlə [bütün] erməni əhalinin Tiflis, İrəvan və sair hər hangi məmaliki-xariciyyəyə [xarici məmləkətə] əzimətləri [gedişləri] tamamən sərbəstdir.
2. Əzimət edəcəklər səyahət vərəqələrini almaq üzrə Polis Müfəttişi-Ümumiliyinə müraciət edəcəklərdir.
3. İşbu əsər tarixi-elandan [elan tarixindən] etibarən beş gün Bakıda müntəşir [nəşr olunan] bilümum [bütün] qəzetələrlə nəşr ediləcəkdir.

### ELANİ-RƏSMİ [RƏSMİ ELAN]

Azərbaycan Polis Müfəttişi-Ümumiliyindən

Bütün Bakı şəhəri ilə Balaxana və Sabunçu məntəqələrində idareyi-örfiyyə [fövqəladə vəziyyət] dolayısıyla gecə saat on ikiyə qədər əvvəlcə verilən sərbəsti müddəti, bu gecədən etibarən nisfülleyldən [gecə yarısından] sonra saat ikiyə qədər təşmil olunmaqla [şamil edilməklə], hər kəsin gecələri saat ikiyə qədər xaricdə buluna biləcəyi və ancaq ikidən sonra xaricdə görüləcəklərin dərdəst ediləcəyi [saxlanılacağı] bilümum [bütün] əhaliyə məlum olmaq üzrə elan olunur.

### ELAN

Salyan qışlasındakı [kazarmasındakı] əsgərlərimiz üçün döşək, yorğan, yastıq, kravat, pamuqlu kaftan, corab kimi əşyaya ehtiyac pək artıqdır. Bu xüsusda əsgər sevən və istəyən əhalinin də müavinətini [köməyini] rica edirik. Bu kimi əşyadan verə biləcəklərin Salyan qışlasındakı Azərbaycan Alay Komandanlığına məlumat vermələri və bu işə camaatın öz aralarındaköməkçi dəstələri qayıraraq böyük yardımda bulunmaları təvəqqe olunur. Yardımda bulunacaqların isimləri ilə verdikləri əşya qəzetələrlə xalqa elan ediləcəkdir.

*İkinci Azərbaycan Firqəsi [diviziyası] ləvazim rəisi: Binbaşı Nuri*

### QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

### AZƏRBAYCAN HÖKUMƏTİNİN QƏRARDADI

Azərbaycan dairəsindən kənara aparılan ev şeyləri gömrük vergisindən azad edilirlər. Müəyyən miqdardan artıq olan qızıl, gümüş və qeyri qiymətli şeylərdən, qiymətinə münasib 30 faiz vergi alınacaqdır.

*Şöbə rəisi: A. Çexovski*

### MAARİF NƏZARƏTİ ƏMRLƏRİ

9 təşrini-sani 1334

Nömrə 103

Həmin sənə təşrini-saninin ibtidasından [əvvəlindən] Yakov Mixayloviç Sırışev Bakı İkinci Realnı məktəbinə müəllim təyin olunur.

Nömrə 104

Reyhan xanım Axundovanın səhhəti düzələnə qədər müvəqqəti olaraq Rəxşəndə xanım Axundova Müqəddəs Nina məktəbinin birinci sinfində tədrisə buraxılır.

Nömrə 105

Həmin sənə təşrini-saninin ibtidasından Konstantinov Təqsimi-Ərazi (Mejevoy) Darülülumunu [Konstantinov Torpaq və Xəritəçəkmə İnstitutunu] bitirmiş olan Arkadi Abramoviç Kaçan, Bakı Birinci Realnı məktəbində ülumiriyaziyyə tədrisinə buraxılır.

*Maarif naziri: N. Yusifbəyli*

### ZİRAƏT NƏZARƏTİNİN [KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN] ƏMRİ

9 təşrini-sani 1334

Nömrə 93

Ziraət Nəzarəti dəftərxanasının müdirlik vəzifəsini ifa edən Şimakovski gələnə qədər Ziraət İdarəsi naçalniki Şpitalski öz vəzifəsini aparmaqla bərabər, təşrini-saninin [noyabrın] ibtidasından [əvvəlindən] dəftərxana müdirliyi vəzifəsini ifa etməyə buraxılır.

Nömrə 94

Həmin təşrini-əvvəlin [oktyabrın] 15-indən Gəncə quberniya zemstvo aqronomu Yusif bəy Əbdürrəhman Ziraət Nəzarətinin Kənd və Fəlahət [Kənd Təsərrüfatı və Kənd Təsərrüfatı Sənayesi] şöbəsinə aqronom təyin edilir.

Nömrə 95

Bu tarixdən Kənd və Fəlahət müdirliyi vəzifəsinin ifası müvəqqətən Ziraət Nəzarəti aqronomu Yusif bəy Əbdürrəhmana həvalə edilir.

*Ziraət nairi X. Sultanov*

### TELEQRAF XƏBƏRLƏRİ

- Almaniya mətbuatının verdiyi xəbərlərə görə, Belçikadan ötrü elan edilən əfvi-ümumi [ümumi əfv] əsasına müvafiq, Almaniyada olan Belçika dinc əhali əsirlərinin azad edilməsi haqqında binagüzarlıq edilmişdir [sərəncam verilmişdir].

* * *

- Təşrini-saninin [noyabrın] 6-sında məsaili-cariyyə [cari məsələlər] müzakirəsi üçün Reyxstaq Sosial-Demokrat Firqəsinin [Almaniya Sosial-Demokrat Partiyasının] təcili iclası vaqe olmuşdur. Məzkur [adı çəkilən] firqə başçıları alman fəhlə sinfinə bir müraciətnamə buraxaraq deyir ki, sülh yaxınlaşdığına binaən [görə], demokratik azadlığın genişlənib möhkəmlənməsi üçün əhalini və tərxis edilən əsgərləri kifayət qədər ərzaqla təmin etmək tədbirləri görülməsi lazımdır. Böylə bir zamanda fəhlə qüvvələrinin ayrılmasıyla qardaş öldürücü ixtilaflara kök salmaq imkanı verilməməsi və məsuliyyətsiz adamların səsinə və məsləhətinə qulaq asılmaması fəhlələrə təklif edilir. Berlin qəzetələri yazırlar ki, Sosial-Demokrat Firqəsinin hər iki cərəyanı başçıları arasında firqənin hər iki dəstəsinin birləşməsi qərarı qəbul edilmişdir. Bu məqsədlə intixab edilmiş [seçilmiş] olan saziş komissiyasının bu günlərdə birinci iclası vaqe olacaqdır.

* * *

- Lvovdan Krakova gələnlərin rəvayətinə görə, bu şəhərdə ukraynalılar ilə polyaklar arasında mübarizə davam etməkdədir. Küçələrdə atışma vaqe olur.

* * *

- Zalsburqdan keçib getməkdə olan Bavariya əsgərləri, məhəlli [yerli] məmurlar tərəfindən dayandırılmışlardır. Məhəlli məmurlar bu əsgərlərin Tiroldan keçib getmələrinə və dəmiryolundan istifadə etmələrinə mümaniət [maneə] göstərmişlərdir. Alman əsgərləri güclə keçib gedəcəklərini izhar etmişlərdir. Bu münasibətlə Bavariya Hərbiyyə vəziri Tirol Milli Şurasına teleqraf edib, bu əsgərlərin buraxılmalarının lazım olduğunu xəbər vermişdir. Çünki bu əsgərlərin hərəkatında Tirol haqqında heç bir düşmənanə məqsəd olmayıb, Avstriya ilə əqd ediləcək [imzalanacaq] sülhdən sonra açıq qalacaq Bavariya sərhədinin mühafizəsi məqsədini təqib etməkdədir. Hələ ki, alman əsgərlərinin qabaq hissəsi gəlib, ümdə qüvvələr dalınca gəlməkdədirlər. Bunlar buraxılmadığı zaman silahla iş görməyə məcbur olacaqlardır. Qərb cəbhəsində olan Avstriya əsgərlərinin vətənlərinə qayıtmalarına imkan vermək üçün Bavariya sərhədinin mühafizəsi lazımdır.

* * *

- Almaniya qışlalarında [kazarmalarında], ələlxüsus Berlində nəşr edilən [yayılan] vərəqələrdə əsgərlər ictimai inqilaba və müstəqil kommunist firqəsi təşkil etməyə dəvət edilirlər. Ciddi təftişlər sayəsində mühəqqəq edilmişdir [dəqiqləşdirilmişdir] ki, bu vərəqlər Rusiyada çap edilib Şura Hökumətinin nümayəndələri tərəfindən Almaniyaya gətirilməklə, Rusiya səfarətxanası üzvləri tərəfindən nəşr edilmişlərdir [yayılmışdır]. Şərqdə olan Almaniya ordusu arasında bu intibahnamələr [təbliğat vərəqələri] yoxdur. Berlində nəşr edilən sosialist qəzetələri yazırlar ki, alman millətinin əqli-səlimi [sağlam məntiqi, mühakiməsi] bolşevizm yolu ilə getməyə imkan verməz. Bütün Berlin qəzetələri Rusiya bolşeviklərinin hərc-mərclik hərəkatı əleyhinə ciddi tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] tələb edirlər.

* * *

- Təşrini-saninin [noyabrın] 6-sında Şura Hökumətinin nümayəndəsi İoffe xüsusi qatar ilə Berlindən əzimət etmişdir [yola düşmüşdür]. Alman sərhədinə qədər onu qraf Saurman müşayiət eyləmişdir. Berlində olan bolşevik teleqraf acentəliyi qapanıb, hamı kağızları və işləri möhürləndikdən sonra polisin ixtiyarına verilmişdir.

### SÜLH ƏTRAFINDA

**Sülh müzakiratı [müzakirələri]**

"F. T." qəzetəsinin məlumatına görə, sülh müzakiratında iştirak etməkdən ötrü Almaniya tərəfindən sabiq Haaqa (Lahey) Sülh Konfransı hərbi nümayəndəsi general fon Qundel, general-mayor fon Vinderfeldt, Parisdəki sabiq hərbi attaşe fon Hints, Xariciyyə Nəzarətinin sabiq baş katibi və kontradmiral Meurer təyin edilmişlər.

Almaniya müvəkkillərinin [nümayəndələrinin] qərbə getməsi mütarikə [atəşkəs] məsələsinin təcili sürətdə irəliləyəcəyini göstərir. Hərbi kabinə Vilsonun cavab notasını müzakirə etməklə iştiğal edir [məşğul olur].

**Mütarikə**

Cümə günü təşrini-saninin 8-ində gündüz saat üç radələrində Tiflisdə müharib tərəfeynin [savaşan iki tərəfin] mütarikə [atəşkəs] əqd etdiklərini [imzaladıqlarını] təsdiq edici məlumat alınmışdır. Rəsmi surətdə elan edilmək gözlənir. Bununla bərabər, alman qoşunlarının Avstriyanın nemes cəhətlərini [tərəflərini] işğal etməsi xəbəri də alınmışdır.

**Almaniya ilə mütarikə şəraiti haqqında**

Müttəfiqlərlə Almaniya arasında əqd ediləcəyi [imzalanacağı] təsəvvüratdan və mümkünatdanədd [hesab] edilən mütarikə şəraiti haqqında düşmən və bitərəf dövlət mətbuatında verilən xəbərlər mətbuat tərəfindən böylə təfsir edilməkdədir [yozulmaqdadır] ki, çox vaxt bir-birinə zidd olan bu xəbərlər Almaniyada təcrübə iqdamatı [addımları] hesab edilməkdədir. Bu qərarla onların tələbatda [tələblər qarşısında] nə qədər geri çəkiləcəklərini bilmək istəyirlər. Neçə gün bundan irəli "Hamburqer Fremdenblat"ın ədalətli bəyanında deyilir ki, bu xəbərlərə Almaniya dairələrində yuxarıdakı mə-nadan başqa qeyri bir məna verilmir. Bununla bərabər, bu xəbərlərin düşmənimiz[in] məmləkətində məsuliyyətli dairələrdən və ya öz hökumətlərinə müəyyən nüfuz göstərmək istəyən, qeyri bir mənafeyi olan firqələrdən buraxılmasını itminani-tam ilə [tam bir əminliklə] söyləmək olmaz.

### ERMƏNİ-GÜRCÜ MÜNASİBATI

**Gürcü Parlamanında**

*(dünənki nömrədən mabəd)*

Biz xətti-müstəqim vasitəsilə [birbaşa] generala üç sual verdik:

1. Doğrudurmu ki, fərari [qaçqın] ermənilər ölkələrinə buraxıldıqları halda siz mümaniət [maneçilik] göstərirsiniz?
2. Doğrudurmu ki, fərari ermənilərin ərzaq və mühümmatı [ləvazimatı] həcz [müsadirə] edilir?
3. Karçikyanla Məlik-Malayans nə səbəbdən tövqif [həbs] edilmişlər?

İşbu suallara general böylə cavab verdi:

1. Türklər Tiflisdə xüsusi komissiondan vəsiqəsi olmayanları buraxmaq istəmirlər. Fərarilər özləri getməyə hazırdırlar.
2. Əkmək həcz edilməmişdir. Bir dəfə qoşundan ötrü əkmək gecikmişdi. Fərarilərdən qərz [borc] surəti ilə əkmək alındı, fəqət yenə qaytarılmışdır.
3. Karçikyan ilə Məlik-Malayans əhalini döymək, Axalkalak, Axıska qəzalarının gürcülərə verilməsini qəbul etməyərək gürcülər əleyhinə təbliğatda bulunduqlarından naşi [ötrü] tövqif [həbs] edilmişlər. Bir neçə başqaları da vardır ki, ermənilərin göstərdiyi üzrə fənalıq yapmışlar. Bunların da tövqifi üçün lazımi binagüzarlıq edilmişdir [sərəncam verilmişdir].

Şimdi mən "Menabdi" cəmiyyətinin kağızını almışam. Bunlar erməni papazı [keşişi] Ohanes Aramyansı gürcü hökuməti əleyhinə təbliğat yapmaqla, gəncləri təşviq etməkdə müttəhim edirlər [günahlandırırlar]. Papazı tövqif edərək, istintaqdan sonra Tiflisə göndərmək əmrini vermişəm. Bir çox başqa yerlər[in] erməniləri də rica edirlər ki, böylə mübəlliğləri [təbliğatçıları] tövqif və həbs etməklə onları fəna təsirdən qurtarsınlar. Bizim, fərarilərin ölkələrinə qayıtmalarına mane olmamız məsələsi adi bir yalandır. Həqiqəti bilməkdən ötrü adam göndərin.

Generaldan aldığımız cavab böylə... Hökumət və general fərarilərin qayıtmalarına mümaniət [maneçilik] göstərməmişlərdir. Bunların getməmələrinin səbəbi odur ki, türklər buraxmırlar. Bunu həpsi bilir. Qaçqınlara müavinət [kömək] qəsdi ilə göndərilmişlər siyasət yürütməklə əhalini Gürcüstan əleyhinə qalxızırlar. Biz bir çox xainləri də tanıyırıq ki, Axıskaya qayıtdıqdan sonra öz xoflarından Gürcüstan əleyhinə fəaliyyətdə bulunurlar.

Bir para erməni mübəlliğləri də bir tərzlə işləyirlər. Fəqət xalqın ağlı bunu qəbul etmək istəmədiyindən, böylə mübəlliğlərdən xilas olmaq tələb edirlər. Hökumət də, general da fərarilərin qayıtmasına mümaniət göstərməmişlər. Fəqət burada başqa məsələ olduğu anlaşılır. Bunlar erməniləri həyəcana gətirməklə, başqa bir məqsəd yürütmək istəyirlər. Bunlar müfəttinlik [fitnəkarlıq] torunu qurmaq xəyalındadırlar. Məzkur [adı çəkilən] heyət üzvlərindən biri də tramvay xidmətçilərindən idi. Bu zat Qori qəzasından idi. O deyir ki, bu vaxtadək gürcülərlə ermənilər miyanında [arasında] gərginlik görülməmişdi. Fəqət şimdi əhval dəyişmişdir. Bu zat, işbu gərginliyi aradan qaldırmaqdan ötrü lazımi iqdamatda bulunmağı [addımlar atmağı] rica və istirham [xahiş] edirdi.

Qaçqınlar buraya iki tərəfdən gəlmişlər: Axalkalak və Axıska qəzaları, İrəvan quberniyası və Türkiyədən. İrəvan fərariləri Tiflisdə, Axalkalak və Axıska qaçqınları isə Bakurianidə yerləşmişlərdir. Bunların miyanında [arasında] gürcü, assuri, rum və başqaları da vardır. Biz bunlar miyanında təfavüt qoymayırıq. Tiflisdə 40.000-ədək qaçqın cəm olmuşdur. Sari əmraz [yoluxucu xəstəliklər] qorxusundan Tiflis Bələdiyyəsi bunları şəhərdən 300 çağırım məsafəyə göndərmək məcburiyyətində qalmışdır. Bunlar üçün o yer pək əlverişlidir. Su, ev, hava və qeyrə [ilaxır]... Oradakı qaçqınların ümumi hesabı 40.000-dən 6.000 qalmışdır.

Başqaları nerəyə getmişlər? Erməni siyasiyyununa [siyasətçilərinə] böylə sual versək "ölmüşlər" eşidəcəyiz. Halbuki bunların əksəri Tiflis əhalisi ilə qarışmışdır. Bakuriani dairəsində bunların hesabı 80.000-ə yavuq idi. Hal-hazırda 25.000-ədək qalmışdır.

Mabaqisi [qalanı] isə qismən ölmüş, qismən Surami, Borjomi və Tiflisdə yerləşmişlərdir. Böyləliklə, qaçqınların dörddən üç hissəsi yerləşmişlərdir.

Mərkəzi düşərgah "Beynənnəhreyn" və Gürcüstan Hökumətinin qaçqınları buraxmaq istəmədiyi məsələlər adi bir müfəttinlikdən [fitnəkarlıqdan] başqa bir şey deyildir. Qaçqın məsələsinə əvvəlindən bu vaxta kimi biz bir nəzərlə baxmışıq, bizim təsəvvürümüzə görə, qaçqınlar ölkələrinə qayıtmalı idilər. İrəvan qaçqınlarına gəldikdə, biz inanırdıq ki, Ermənistan onları geri aparacaqdır. Çox zaman yol yox idi. Şimdi yol açılmış, fəqət bunlar getmələri üçün müavinət diləyirlər. Hərgah burada "Beynənnəhreyn" təşkil ediləcək olarsa, bu onların "Beynənnəhreyn"ləri olacaqdır. (Alqış)

Biz ermənilərin tək-tük qalmaları əleyhinə bir təşəbbüsat yapmayırız. Fəqət külli surətdə Gürcüstan köylərində qalmalarına köylülər razı deyillər. Köylülər torpaq istənilməyindən xof edirlər. Biz yerlilərlə qaçqınlar miyanında [arasında] toqquşma yaratmaq istəmədik. Çünki böylə olsaydı, düşmənlərimiz "Beynənnəhreyn" yaradılmasını deyə[rək] iddia edəcəklərdi. Əlavə, bunun başqa səbəblərdən naşi [ötrü] həlli namümkün idi. Biz qaçqınları Qarayazı, Cavaxetidə yerləşdirmək fikrinə düşdük. Fəqət havanın dəyişməsindən dolayı bunların miyanında [arasında] xəstəlik və ölüm o qədər artdı ki, özlərinin ricası ilə geriyə qaytarılmaq məcburiyyətində qaldılar. Tsalka və Atsxur dairələrində də bir çox qaçqın gürcülər yerləşmişlər ki, əhvalları ermənilərin əhvallarından eyi deyildir. Fəqət biz heç bir təfavüt qoymaq istəmirik.

Biz qaçqınların əhvalını yaxşılaşdırmaq təşəbbüsatına düşdük. Bundan ötrü də Türkiyə mürəxxəsliyi [nümayəndəliyi] ilə görüşməli idik. Temmuzun [iyulun] 22-sində Üçüncü Türk Ordusu komandanı Əsəd paşaya müraciətən fərarilərin geri Axıska və Axalkalak qəzalarına qayıtmasına izin verilməsini rica etdik. Bu notanın surəti Azərbaycan Hökumətinə və fon Qressə verilmişdir. Eylülün [sentyabrın] 2-sində Tiflisə yeni Türkiyə mürəxxəsi Əbdülkərim paşa gəldi. Eylülün 6-sında biz buna da nota təqdim etdik. Eylülün 8-ində Əbdülkərim paşa bizə xəbər verdi ki, notanı Türkiyə Hökuməti Əsəd paşaya göndərmişdir. Bu zat, işbu məsələnin həllinə itminan bəslədiyini [arxayın olduğunu], özünün sülh və dostluq vasitəsi olduğunu bizə söylədi. Eylülün 11-ində Əbdülkərim paşa bizə bir nota verərək, Borçalı qəzasında 11 köyün müsəlmanlara qaytarılmasını tələb etdi. Müsəlmanlar buradan fərar etmişlərdi. Biz buna şadlıqla razı olaraq, əvəzində Axıska və Axalkalak qaçqınlarının yerlərinə qayıtmalarını rica etdik. Bu barədə Çxenkeliyə də Berlində təşəbbüsatda bulunmasını xəbər verdik. Təşrini-əvvəlin [oktyabrın] 26-sı və təşrini-saninin [noyabrın] 6-sında Əbdülkərim paşa təklif etdi ki, iki türk zabiti və birər gürcü və erməni nümayəndələrindən ibarət bir komission təşkil edilsin. İşbu komission təşkil edilmiş, fəaliyyətə də başlamışlar.

Əlavə, biz Ermənistanla mükatəbə[yə] də [məktublaşmağa, yazışmağa da] davam edirdik. Biz Ermənistan nümayəndəsi Camalyana müraciətlə, soyuqlar hülulundan [düşməsindən] dolayı qaçqınlar işinin bir an əvvəl həllini rica etdik. Bir hissəsini Gürcüstan, bir hissəsini Ermənistan, bir hissəsini özümüz yerləşdirəcəyimizi dəröhdə etdik [öhdəmizə götürdük]. Ermənistan Hökuməti bizə xəbər verdi ki, bundan ötrü Türkiyə Hökuməti ilə müzakirə davam etməkdədir.

Bunu da əlavə etməlidir ki, bir dəfə də olsun, Ermənistan Hökuməti, qaçqınları Gürcüstanda yerləşdirməkdən ötrü bizə müraciət etməmişdir. Bərəks [əksinə], bunlar da bizimlə şərik idilər. İş böylə olmuşdur. Bizim düşmənlərimiz müfəttinanə hərəkatda bulunmaqla millət müharibəsi salmaq və öz layihələrini, qara fikirlərini yürütmək istəmişlər. Fəqət biz buna razı olmarız.

Biz Azərbaycan və Türkiyədə olan hadisata [hadisələrə] Gürcüstanda yol verməyəcəyiz. (Ümumi alqış) Bizim əlimizdə Daxiliyyə Nəzarətinin qaçqınlara kömək etməkdən ötrü verdiyi əmrlər mövcuddur. Baxınız, bunların əvəzində bizim aldığımız təşəkkürlər Tiflis və ətrafında əleyhimizə yürüdülən təbliğat olmuşdur. Bizdən nə kimi tədabir ittixaz etdiyimiz [tədbirlər gördüyümüz] sorulur. Hökumət bu işlərə xitam verməyi [son qoymağı] qət etmişdir (Gurultulu alqış). Hökumət fitnəyə yol vermək istəmədiyi üçün lazımi tədbirlər ittixaz edəcəkdir.

Axşamkı iclasda Parlaman ictimaiyyuni-amiyyun [sosial-demokratlar] tərəfindən təklif edilən işbu qərarı qəbul və təsdiq etmişdir. Tiflis erməni qəzetələrinin təşviqatı münasibətilə Sosial-demokratiya fraksiyasının istizahı [sorğusu, izahat tələbi] və Hökumətin izahatını dinləyərək, Parlaman qeyd edir ki, tamamilə yalan xəbərlər əsası üzərinə qurulmuş olan bu təşviqat ancaq Gürcüstanın istiqlaliyyətinə və demokratik üsuli-idarəsinə bir ölüm zərbəsi endirmək qəsdi ilə icra edilir. Parlaman ümidvar olur ki, Hökumət bu təhlükəyə diqqət verir və iki qardaş millət arasında qan tökülməsinə bais ola biləcək təşviqatda bulunanlar müqabilinə var qüvvəsi ilə mübarizə edəcəkdir. Parlaman Hökumətə etimadını izhar [bildirməklə], müzahirətini [köməyini] vəd etməklə, növbəti məsələlərin müzakirəsinə keçir.

### QƏZETƏLƏRDƏN

**Dövlətlər və bolşeviklər**

Müharib [savaşan] dövlətlər nümayəndələrinin Berlində iniqad etmiş [baş tutmuş] xüsusi müşavirəsində bolşeviklərin əleyhinə çıxmaq məsələsi lüzumu müzakirə edilmişdir. Məsələni Etilaf nümayəndələri qalxızmış, rus nümayəndələri isə bu uğurda ciddən çalışmışlardır. Müşavirə qət etmişdir ki, bolşevizmə intiha [son] verməlidir.

Bolşevizm tədhişinin [terrorunun] səmərələri [nəticələri] Avropa və Amerika ictimai vicdanını incidir. Müşavirə qət etmişdir ki, bolşevizm əleyhinə bütün kiçik dövlətlər belə çıxmalıdırlar. Bundan ötrü də Rusiyaya bütün Etilaf dövlətləri kimi, Mərkəzi Avropa dövlətləri də müavinətdə [köməkdə] bulunmalıdırlar. Təsəvvür edilmişdir [nəzərdə tutulmuşdur] ki, bütün düvəli-müəzzəmə [bütün böyük dövlətlərin] qoşun qitəatından [hissələrindən] mürəkkəb beynəlmiləl bir ordu təşkil edilsin. İşbu ordu təşkili Vilsona həvalə edilmişdir.

Amerika siyasiyyunu [siyasətçiləri] ilə edilən mübadileyi-əfkardan [fikir mübadiləsindən] anlaşılmışdır ki, Amerika dəvairi-rəsmiyyələri [rəsmi dairələri] dəxi bolşevizm əleyhinə çıxmaq tərəfdarıdırlar. Vilson işbu təşəbbüsü ən yaxın zamanda öhdəsinə götürəcəyini bildirmişdir.

**Kadet dairələrində**

Kadet firqəsinin Kiyevdəki baş komitəsi əhvali-hazirəni [hazırkı vəziyyəti] müzakirə etdikdən sonra bir qətnamə çıxarmamışdır. Əksəriyyət Rusiyada milli mərkəz tərəfdarıdır. İşbu mərkəz gələcəkdə Sülh Konqresində Rusiya tərəfindən iştirak edəcəkdir.

Danışıldığına görə, işbu mərkəz Kiyev olmalı imiş. Nümayəndələr isə müəyyən siyasət tərəfdarı olmaları ilə bərabər, firqə mənsubiyyəti dərnəzər edilməməli [nəzərə alınmamalı] imiş.

Alınan məlumata görə, Moskva kadet dairələri Kiyev ilə bu məsələdə həmrəydirlər.

Kiyev kadet dairələrində Rusiyanın Sülh Konfransına nümayəndə göndərməsi məsələsi müzakirə edilmişdir. Əksəriyyətin tələbinə görə nümayəndələr Qosudarstvenni Duma əzasından [Dövlət Duması üzvlərindən] olmalıdır.

**Zaqafqaziyalıların alman darülfünunlarına qəbulu**

Qafqaziyada olan alman heyəti xəbər verir ki, Almaniya Maarif Nəzarəti Azərbaycandan, Gürcüstandan və Ermənistandan Almaniya darülfünunlarına və ali məktəblərə daxil olmaqdan ötrü bir neçə tələbə göndərilməsinə razı olmuşdur. Bununla Almaniya Hökuməti əlavə edir ki, bu tələbələr öz təhsilləri haqqında ancaq alman dilinə tərcümə və təsdiq edilmiş şəhadətnamələri təqdim etməklə darülfünunlara və ali məktəblərə qəbul ediləcəklərdir. Bundan əlavə, hər bir tələbə hansı məktəbə daxil olmaq istədiyini dəxi göstərməlidir. Darülfünunlara və başqa məktəblərə qəbul edilməkdən ötrü hamı alman darülfünunları və başqa məktəblər nəzərə alınırlar. Almaniya Hökuməti qeyd edir ki, hal-hazırda dərs haqqından başqa bir adam hər ay 3 və ya 4 yüz mark ilə güzəran edə bilər.

### NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Posta və Teleqraf Nəzarətindən**

Posta və teleqraf ümuru [işləri] məmurlarına 9 təşrini-sanidə [noyabrda] böylə bir əmrnamə göndərilmişdir:

*"Azərbaycan nahiyəsindəki posta və teleqraf müdirlərinə:*

*Ümuri-zabitənin [idarəçilik işlərinin] müxtəlif məmurlarının müftə olaraq vəzifələrinə aid teleqraflar verməsi haqqında dəfəatilə [dəfələrlə] müraciət edildiyinə görə, təklif edirəm ki, bundan sonra bu məsələ Hökumətdə lazımi surətdə həll olanadək bu düstura əməl edəsiniz.*

*1. Vəzifələrinə aid məccani [pulsuz] teleqraf çəkmək ixtiyarına malik olan, fəqət [ancaq, sadəcə] Şurayi-Vükəla rəisi [Nazirlər Kabinetinin sədri], Posta və Teleqraf naziri və Posta və Teleqraf Ümuru [İşləri] İdarəsi olacaqdır.*

*2. Bütün digər hökumət və ümuri-zabitə məmurları, istər nazirlər, nazir müavinləri, valilər, qəza qaimməqamları, bilümum [bütün] verdikləri teleqramların hesabını ödəməlidirlər.*

*3. Bütün ali zabitə, dəmiryol və hərbi məmurları qəbul edilmiş tərifə [tarif] ilə ümumi əsas üzrə hökumət teleqrafından parası ilə istifadə edə bilər.*

*Posta və Teleqraf naziri: Aşurov*
*Katib: Bortsov"*

Bu teleqrafın surəti Daxiliyyə nazirinə göndərilmişdir ki, lazımi yerləri və məmurlarını istixbar [xəbərdar] etsin.

* * *

Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] "Metropol" müsafirxanasından sahildə Mirbabayev evinə köçübdür.

### AZƏRBAYCAN POSTA VƏ TELEQRAF MƏKTƏBİ TƏSİSİ

Qəzetəmizdə irəlidən xəbər verildiyi kimi, Posta və Teleqraf Nəzarəti tərəfindən ənqərib [yaxın zamanda] Bakıda Posta və Teleqraf məktəbi təsis ediləcəkdir.

Məktəbin məqsədi posta və teleqraf işlərində hazırlıq görmüş məmurlarla, teleqraf işlərinin lazımlı sənətkarlar – mexaniklər və ən kiçik bir bozaqçılıqdan tutub müstəqil idarə rəisliyinə varıncaya qədər mərkəzdə hazırlanmış projelərin (layihə) əməli cəhətini feilən yapacaq gənclər hazırlamaqdır.

Bu məktəbdə davam edəcək təhsil üç kursda olacaqdır ki, hər kurs posta və teleqraf işlərinin bir şiqqəsini [hissəsini] tədris edəcəkdir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 13 noyabr (Çərşənbə günü) tarixli XXXVIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bununla bərabər, birinci kurs ikinci üçün və ikinci kurs da üçüncü üçün hazırlıq sinfi məqamında olur.

Hər kursu dörd ay və ümum üç kursu bir sənə zərfində müqtədir şagirdan bu məktəbi bitirəcəklərdir. Riyaziyyat, hikməti-təbiiyyə [təbiət elmi], kimya, lisan, coğrafiya, posta əməliyyatı ilə teleqraf müxabiratı [xəbərləşməsi] bu kursda lazımi miqdarda tədris ediləcəkdir.

Hər kursda 288 (həftədə 18 dərs olmaq həsabilə [hesabilə]) dərs olur ki, həp üç kursda 864 dərs edir.

Kiçik posta və teleqraf idarələrində bir kişi [nəfər] posta məmuru, teleqrafçı və baxıcı vəzifələrini ifa etməyə məcbur olduğuna binaən [görə], posta əməliyyatı ilə teleqraf işləri birləşdirmək lazım gəlir.

Teleqraf xətti təmiratında emalatxanalarda və posta idarəsində təcrübə üçün işləmək icbari olduğu kimi, təcrübəli mexaniklərin təhti-nəzarətində [nəzarəti altında] hər mütəallim [şagird] imtahandan irəli müəyyən miqdarda işləməlidir.

Daxil olanların yaşı, türk və rus lisanlarını bilişi və gördüyü təhsili nəzəri-etinaya alınacaqdır. Türk gənclərindən müxtəsər bir rusca savadı olanlar, qeyri-müsəlmanlardan isə türkcə qonuşmağı bacaranlar qəbul ediləcəklərdir.

Edadi məktəblərin 5-inci sinfinə qədər təhsil görmüşlər üçün dərslər əcil proqram üzrə [olacaq], əməli və fənni tərəfləriylə aşina olduqca kursları bitirmək mümkünatdandır.

Təhsili itmam etdikdə [bitirdikdə] şagirdana [şagirdlərə] 4-üncü dərəcə məmur və yaxud kiçik mexanik sifətilə xidmət veriləcəyi qətidir. Onlar da bir buçuq sənə dövlət xidmətindən kənar olmamalıdırlar.

Məktəbdə mütəallimlərdən [şagirdlərdən] haqqi-tədris alınacaqdır. Fəqət fəqir və çalışqanlarını ikinci dərəcədən (kursdan) başlayaraq bu para vergisindən azad edəcəklərdir.

Haqqi-tədris hər dərəcə üçün əllişər və bütün məktəbdə 150 rubla olacaqdır.

Məktəb Posta və Teleqraf naziri həzrətlərinin təhti-nəzarətində [nəzarəti altında] olmaqla, məktəb müdir və müəllimləri şurası ilə idarə ediləcəkdir. Müəllimlər şurasında nazir tərəfindən bir mürəxxəs [nümayəndə] iştirak edəcəkdir ki, bu da məsələlərin həllində onlarla müsavi [bərabər] hüquqa malik olur.

Bu məktəbdə təhsil bitirildikdən bir buçuq sənə sonra daimi Posta və Teleqraf məktəbi üçün bir proqram hazırlanıb, Nəzarət tərəfindən qəti olaraq təsdiq və həyata tətbiq ediləcəkdir.

Posta və Teleqraf məktəbindən maəda [başqa], bir də radio (telsiz teleqraf) məktəbi güşadı [açılması] bəklənilməkdədir. Bunun isə proqram layihəsi şimdi hazırlanır.

*M. H.*

## RƏSULZADƏ CƏNABLARI İLƏ MÜSAHİBƏ

İstanbul Konfransının Azərbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] rəisi Rəsulzadə Məhəmməd Əmin cənabları müxbirimizi hüzurlarına qəbulla, İstanbul təəssüratları haqqında lütfən böylə məlumat vermişlərdir:

Heyətimizin qəsdi, Mərkəzi Dövlət nümayəndələri ilə bərabər, İstanbulda vaqe olacaq Qafqaziya cümhuriyyətlərinin kofransında iştirak etmək idi. Lakin siyasət aləmindəki təbəddülata [dəyişikliklərə] görə konfrans baş tuta bilmədi. Hər halda bizim İstanbulda olduğumuz mənfəətsiz keçmədi. Böylə ki, məruzə və mühazirələrimizlə Türkiyə əhalisini Azərbaycan və onun ümid və arzuları ilə aşina etdik. Burasını da qeyd etməlidir ki, İslam mərkəzi olan İstanbulda Qafqaziya, xüsusən Azərbaycan haqqında məlumatları çox azdır. Brest-Litovsk əlavə müahidənaməsinin [müqaviləsinin] təbir və təfsiratı [şərh və izah edilməsi] yolunda Türkiyə mətbuatı bizə böyük müavinət [yardım] göstərdi. Bu əlavə müahidənamə münasibətilə alman səfirinə protest notası verdik. Bu məsələ haqqında Türkiyə mətbuatı bizimlə həmrəy olub, bütün hüsnrəğbət və təvəccöhü bizim tərəfimizdə idi. Biz hamı dövlət nümayəndələri ilə görüşüb Azərbaycan əhvalı ilə onları aşina etməklə bərabər, müstəqil yaşamaq hüququmuzu müdafiə etdik. Hər yerdə biz məhəbbətlə qəbul edilib hüsn-təvəccöhlə qarşılandıq. Rəsmi nota ilə biz Azərbaycanın istiqlaliyyəti haqqında dövlətləri xəbərdar etdik. Bizim heyətimiz təntənəli bir surətdə Türkiyə sultanı tərəfindən qəbul edildi. Sultan həzrətləri bizim təbrik nitqimizə cavab olaraq izhar etdilər ki, Türkiyə Hökuməti bacardığı müsaid vəsail [uyğun vasitələr] ilə Azərbaycan istiqlaliyyətini mühafizə və müdafiə edəcəkdir. Bundan əlavə, sultan həzrətləri Azərbaycan əhalisinə salam göndərilməsini xahiş etdi.

Üç ay bundan əqdəm [əvvəl] vəfat edən Sultan Məhəmməd xani-xamisin [V Mehmedin] mərasimi-dəfnində və hal-hazırdakı Sultan Məhəmmədisadisin [VI Mehmedin] təntənəli cülusi-hümayununda [taxta çıxma mərasimində] iştirak etdik. Fürsətdən istifadə edərək İstanbul əhalisini Azərbaycan əhvalı ilə aşina etməkdən başqa, özümüz də Türkiyə həyatına bələd olduq. Türkiyə adətlərindən bizim təəccübümüzü mövcib [təəccübümüzə səbəb] olan bir əhvalı nəql etməliyəm. Sultanın vəfatından sonra onun cənazəsi həsirə bükülüb dəhlizdə pilləkən altında qoyulur. Təzə sultan cənazə yanına gəldikdə, şeyxülislam təzə sultana müraciətən: "Bax sənin də axırın bu tövr olacaqdır" deyir.

Səlamlıq zamanında sultan həzrətləri məscidə gəldikdə əsgərlər onu "Padşahım, məğrur olma, səndən uca Allah var" nəğməsi ilə qarşılayırlar.

İstanbul əhvalı xeyli sakitdir. Qəzetələrin nümayişlər haqqında verdikləri məlumat həqiqətdən uzaqdır. Əhali Hökumətə etibar və etimad göstərməklə sülh müzakiratının [müzakirələrinin] axırını və Cahan müharibəsinin nəhayətini bəkləməkdədir. Hər cür sinemalar davam edib, mal ilə məmlu [dolu] olan dükanlar alış-verişə məşğuldur. Ərzaq cəhətdən əskiklik yoxdur. Ancaq qara çörək girvənkəsi 4 qəpikdən kartoçka ilə, ağ çörək isə kartoçkasız azad bir surətdə 2 manat 50 qəpiyə satılmaqdadır. Ət boldur və qiyməti də ucuzdur. Müslimə [müsəlman] qadınlar arasında olan tərəqqi məni nəhayət dərəcədə şad və məsrur etdi [sevindirdi]. Türk qadınları fabrika, zavod, mağaza, kantora, posta-teleqrafda işləyib, nəhayət, darülfünunlarda [universitetlərdə] leksiyalara qulaq asanlar da az deyildir. Hətta İstanbulun zahiri görkəmi Türkiyə milli mədəniyyətinin qüvvətlənməsini isbat edir. Türkiyə evləri qədim türk üslubu ilə tikilib, hal-hazıra qədər qədim türk memarlığı davam etməkdədir. Türkiyə mətbuatına gəldikdə, bütün mətbuat türk milli mədəniyyətinin canlanmasına çalışmaqdadır.

**Parlaman haqqında**

Rəsulzadə cənabları Müsəlman Şurası sədri olmaq həsabilə [səbəbilə] bu günlərdə dəvət ediləcək Parlaman məsələsindən bəhslə deyir ki:

Məlum olduğu üzrə, təşrini-saninin 16-sında sabiq Zaqafqaziya Seyminin müsəlman əzalarından [üzvlərindən] 44 nəfərdən ibarət Müsəlman Milli Şurası dəvət edilir. Milli Şura Parlamana təbdil edilib [çevrilib], üzvləri isə 120 nəfərə qədər artırılmaqla qanunverici müəssisə olacaqdır. Bu vaxt Parlamana, Gürcüstanda və Ermənistanda olduğu kimi, əqəliyyət [azlıq] təşkil edən millət nümayəndələri də daxil ediləcəklərdir. Müvəqqət Parlamanın davamı heç bir halda Məclisi-Müəssisan [Təsisçilər Məclisi] seçki işlərini dayandırmayacaqdır. Birinci növbədə Parlaman cərəyan edən siyasi məsələlərin həllinə məşğul olacaqdır.

**Qafqaziyanın müqəddəratı**

Mən Azərbaycanı müttəhidən Qafqaziya hökumətlərinin müxtariyyətli bir hissəsi təsəvvür edirəm ki, bu hökumətlər də Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaziyadan ibarət olmalıdırlar. Sülh Konfransında ümumi mənfəətləri müttəhidül-qövl [birgə; sözü bir olaraq] mühafizə və müdafiə etməkdən ötrü Qafqaziya cümhuriyyətləri arasında olan ixtilaflı məsələlər sülh təriqi [yolu] ilə həll edilməlidir. Bu nəzəriyyatı biz əvvəlcə Zaqafqaziya Seymində yürütdüksə də, mütəəssifanə [təəssüf ki], bir para şəraitlə [bəzi şərtlər səbəbilə] bizim arzumuzun vücuda gəlməsi mümaniətə [maneəyə] düçar oldu. Ümidvar oluruz ki, hal-hazırda Tiflisdə iclas etməkdə olan Qafqaziya Cümhuriyyətləri Konfransı Qafqaziyada sülh və qardaşlıq bərpa edilməsi üçün ümumi bir dil tapar.

## AZƏRBAYCANDA

**Şurayi-Milli dəvəti ətrafında**

* Şurayi-Millinin birinci iclası Bələdiyyə İdarəsi zalında vaqe olacaqdır. Şurayi-Milli üzvlərindən xahiş olunur ki, öz adreslərini Şurayi-Millinin Bələdiyyə İdarəsində müvəqqətən yerləşmiş olan dəftərxanasına bildirsinlər.

* Şurayi-Milli Sədrinin xahişinə görə, Daxiliyyə Nəzarəti ilə Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] tərəfindən dəmiryol və posta məmurlarına Şurayi-Milli üzvlərinin bilamümaniət [maneəsiz] Bakıya gəlmələri üçün müavinət [kömək] və müzahirət [yardım, kömək] göstərilməsi binagüzarlığı edilmişdir [sərəncam verilmişdir].

* Gürcüstan Cümhuriyyətində olan Azərbaycan siyasi nümayəndəsi Cəfərova teleqraf edilib, Seymin Gürcüstanda olan müsəlman üzvlərinə Şurayi-Millinin dəvəti gününün xəbər verilməsi həvalə edilmişdir.

* Milli Şura işlərinin hamısı Hökumət İşləri müdiri tərəfindən Şurayi-Milli sədrinə təslim edilmişdir.

**Şəki qəzası**

Gəncə valisi Daxiliyyə Nəzarəti naminə bir rapor göndərərək, Nuxa qəzasında nizam və asayişin hökmfərma olduğunu [hökm sürdüyünü] xəbər verir. Mühümmat və ərzağın bahalanması Zaqafqaziya pulu ilə Nikolay pulunun qiymətləri bir olmadığından irəli gəlmişdir. Hökumət bu barədə məlumat verdikdən sonra ərzaq ucuzlaşmışdır. Əsgər təcəmmösü [yığılması] Şəki qəzasında parlaq bir surətdə keçmişdir.

## AZƏRBAYCAN PARLAMANI DƏVƏTİ MÜNASİBƏTİLƏ

### I

Demokratik seçki üsulu ilə Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvətinədək məmləkəti Parlamansız buraxmamaq, həm bunca mühüm tarixi və nazik [həssas] siyasi dəqiqələrdə dövlət ümurunun [işlərinin] bütün ağırlıqlarını bir qaç ricaldan [adamdan] ibarət Hökumət öhdəsinə atmamaq qəsdi ilə Azərbaycan Milli Şurasının dəvətinə lüzum görülmüş və müəyyən qərar verilmişdir. Bu surətlə təşrini-saninin [noyabrın] 16-sında Milli Şura çağırılır. 44 əzadan [üzvdən] ibarət Şura birinci iclaslarında bütün məmləkətin mürəvvici-əfkarı olan [mövqeyini ifadə edən] bir Parlaman təşkil etmək üçün dairəsini müəyyən əsaslarla genişlətməli, əzasının miqdarını artırmalı olacaqdır. Fəqət bu məsələni gələcək məqaləmizə buraxaraq, bu gün ancaq Milli Şuranın mahiyyətindən və sabiq fəaliyyətindən bəhs etməyi lazım gördük.

Müvəqqət Parlamanımızın bünövrəsini təşkil edən Şurayi-Milli, sabiq Zaqafqaziya Seyminin 44 kişidən [nəfərdən] mütəşəkkil [ibarət] Müsəlman fraksiyasıdır ki, burada bütün siyasi cərəyanların nümayəndələri iştirak edirlər (nəhayət [ifrat] sol sosialistlərdən başqa). Bunların həpsi ümumi, müstəqim [birbaşa], müsavi [bərabər] və gizli seçki əsası üzərinə intixab edilmiş [seçilmiş] Məclisi-Müəssisan üzvləri olmaq həsəbi ilə [olduqları üçün] tam mənası ilə xalq nümayəndələridir. Şimdi məmləkətə xalq nümayəndəliyi lazım və yeni seçkilər icrası üçün vaxt qeyri-müsaid olan bir zamanda müvəqqət Parlaman əzalığına hamıdan ziyadə həmin məzkur [adı çəkilən] Şura müstəhəqdir [layiqdir, haqqı çatır]. Digər tərəfdən, məzkur Şuranın bütün heyəti və hər üzvü ayrılıqda sabiq fəaliyyətilə dəxi böylə istehqaq [haqq] qazanmışlardır.

Söz burasındadır ki, Zaqafqaziya Seymi dəvəti və onun içərisində Azərbaycan Türk Milli Şurası elanı və hər ikisinin fəaliyyəti öylə bir zamana təsadüf etmişdir ki, bütün Qafqaziya hərc-mərc atəşi içində olaraq bir şəhərdən digərinə deyil, bir köydən o birinə belə xəbər çatmayırdı. Buna görə də Azərbaycan əhalisi Şurayi-Millinin fəaliyyətindən tamamilə bixəbər qalmışdır. Bu səbəblədir ki, şimdi Milli Şura yenidən dəvət edildikdə, camaata onun sabiq fəaliyyətindən məlumat verməyi vacib bildik.

Az bir müddət davam etmiş olan Seym və Milli Şura, bütün fəaliyyətini Dövləti-Osmaniyyə ilə Zaqafqaziya münasibatına [münasibətlərinə] həsr etmişdir. Zaqafqaziya siyasiyyununun [siyasətçilərinin] bütün fikrini Qafqaziya cəbhəsinin əlverişli bir surətdə ləğvi və Osmanlı ilə əlaqənin qaydaya salınması məsələləri işğal etmişdir. Bu xüsusda mənafelərin ixtilafı meydana çıxmışdır.

Milli Şura hərc-mərcdən dolayı camaatdan ayrı düşdüyündən, öz fəaliyyəti və planları barəsində məlumat verə bilməmişdir. Bundan əlavə, bir çox məsələlər və siyasi mülahizələr şəraiti-mövcudədən [mövcud şəraitdən] dolayı açıla bilmirdi. Bu zaman hərc-mərc içində və bolşevik təhlükəsi altında qalmış camaat müsəlləh [silahlı] qüvvəyə ehtiyac olduğunu hiss edirdi. Fəqət bu qüvvəni nə Milli Şura verə bilirdi, nə də Seym. Ona görədir ki, camaatın da gözü Osmanlı qardaşlarımızın ordusunda idi. Çünki nicatını ancaq Türkiyədə görürdü və intizar içində qaldığı halda türklərin gec gəlmələrindən darılaraq, siyasi nümayəndələrimizi müqəssir tuturlardı. Siyasi nümayəndələrimiz bunu hiss edirlərdi. Camaat ilə nümayəndələrimizin rəyləri bir idi. Fəqət bununla belə Milli Şura çox ağır şərait altında işləyirdi. Bir tərəfdən iğtişaş, haqsızlıq və zülümlərdən təngə gəlmiş camaat, Milli Şura fəaliyyətindən bixəbər qalaraq heç əsası olmadığı etimad və etibarsızlıq ibraz edirdi [göstərirdi]. Digər tərəfdən mütəşəkkil qara fikirli adamlar tam ciddiyyətlə çalışırlardı. Bunlar siyasi nümayəndələrimizi xalq nəzərində etibardan salmaq üçün camaat arasında danışırlardı ki, nümayəndələrimiz ermənilərə, ingilislərə, daha bilməm kimlərə satılmışlar. Bunlar Osmanlı qoşununun Azərbaycana gəlməsinə razı deyildirlər. Qara fikirlilərin böylə təbliğatına yorulmuş, təngişmiş camaat inanırdı və nəticədə camaatla fikri və arzusu bir olan Milli Şura ilə camaat miyanında [arasında] fəlakətli bir uçurum çıxdı. Fəlakətli nəticəsi də çox tez meydana çıxdı.

Digər tərəfdən Tiflisdə dəxi Milli Şuramız hər tərəfdən ədavətkaranə [düşməncə], zəhərlə məsmum [zəhərlənmiş] mühit içində qalmışdı.

Bu xüsusda yarın.

*X. İ.*

## BAKI XƏBƏRLƏRİ

Bakı valisi 5-inci dairə polisinə xəbər vermişdir ki, Mərkəzi Ev Komitəsinə ev təşkilatı ictimalarından [yığıncaqlarından] ötrü xüsusi izin almaq lazım gəlmədiyini elan etsin. Fəqət ictima və iclas barəsində qalabəyinə [polismeysterə, şəhərin polis müdürünə] xəbər verməlidir ki, məclisdə həll ediləcək məsaildən [məsələlərdən] başqa şey müzakirə edilməməkdən ötrü xüsusi polis məmuru göndərsin.

**Mənzil məsələsi**

Ev sahibləri ilə kirayənişinlər miyanındakı [arasındakı] əlaqə haqqında Daxiliyyə naziri Bakı valisinə böylə bir müraciətdə bulunmuşdur:

Cənablarınıza əhali arasında təbliğ və təbşirdən [xəbər verməkdən] ötrü elan edirəm ki, ev sahibləri ilə kirayənişinlər miyanında eylülün [sentyabrın] 15-inə kimi əqd edilmiş [bağlanmış] (şifahi və təhriri [yazılı]) müqavilələr barəsində polis deyil, məhkəmələrə müraciət etməlidirlər. Eylülün 15-indən sonra xudsəranə [özbaşına] mənzilləri tutmuş kirayənişinlər məsələsi isə mənim dəftərxanam cənbindəki [nəzdindəki] həcz [müsadirə] şöbəsinə müraciət edilməlidir.

**Xırsızların dərdəst edilməsi [tutulması]**

Təşrini-əvvəlin [oktyabrın] əvaxiri [axırları], təşrini-saninin [noyabrın] əvailində [əvvəllərində] Telefonnı caddədə vaqe bir neçə baqqal mağazalarından xırsızlıq yapılmışdı. Seyidəli Mirkazımovun mağazasından 25 min rublə, Ağaseyid Səidovun mağazasından 8 min rublə, Ələkbər Məşədi Zeynal oğlu mağazasından 7 min rublə, Əlövsət Nəcəf oğlundan və Əliağa Ələsgər oğlundan 4 min rubləlik əşya oğurlanmışdı. Təhqiqatdan anlaşılmışdır ki, işbu xırsızlığı 17 sinnində [yaşında] Haşim Hüseyn oğlu, 18 yaşlı Bayram Mehman oğlu, 18 yaşlı Mirvahab Seyidağa oğlundan mürəkkəb bir xırsız dəstəsi yapmışdır. Təftiş əsnasında bunlarda oğurlanmış əşyanın bir hissəsi; bir çox açar və xırsızlıq ləvazimatı tapılmışdır. Bunlar yapdıqlarını boyunlarına almaqla bərabər, kimlərə satdıqlarını da söyləmişlər. Bunların göstərdiyi kimi Yusif Əliyev, Babacəlil İsmayıl oğlu, Vəli Fətullah oğlu, Həsənəli Rəcəbov, Əliağa Quliyev, Abbasəli Qafar oğlu, Ağakişi Səlimzadə, Məhəmmədəli Səlimov, Ələkbər Cəfərov, Qasım Mürvət oğlu dükanlarında oğurlanan əşyanın qismi-əzəmi [çox hissəsi] tapılmışdır. Dərdəst edilmiş xırsızlardan Mirvahabda 2500 rublə para tutulmuşdur. İşbu pul Mirkazımındır. Tapılmış əşya sahiblərinə qaytarılmışdır. Xırsızlar istintaqdan sonra polis müfəttişinə verilmişdir ki, hərbi məhkəməyə verilsinlər. Mal alanlar Daxiliyyə Nəzarətinin əmrini icra etmədiklərindən naşi [ötrü] məhkəməyə verilmişlər.

**Qarət**

Saratov quberniyası sakini Mahmud Maturin təşrini-saninin 8-ində 6-ıncı məntəqə pristavına xəbər vermişdir ki, həmin dairə polis məmurluğuna təyin edildikdən sonra vəzifəsini ifadan ötrü Binəqədi kəndinə gedirmiş. Digah ilə Binəqədi arasında 2 nəfər bədəfkar [pis fikirli, yaramaz] onun yorğan-döşəyini və 235 rublə pulunu almışlar. Canilərin tövqifi [həbs edilməsi] üçün lazımi tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Teatro-musiqi**

Cümə günü təşrini-saninin (noyabr) 15-ində Hökumət teatrında Hacıbəyli Qardaşları Müdiriyyətinin aktyorları tərəfindən mövqeyi-tamaşaya qoyulacaqdır bu mövsümdə birinci dəfə olaraq "Dağılan tifaq" faciəsi və dalınca "Axşam səbri xeyir olar" komediyası. Biletlər indidən teatronun kassasında satılmaqdadır.

Səşənbə [çərşənbə axşamı] günü ayın 19-unda mövqeyi-tamaşaya qoyulacaqdır Namiq Kamal bəyin məşhur "Vətən" nam əsəri.

### "İttihad" məktəbi

Bu gündən etibarən açılmış. Yeni və keçən sənədəki kəndi şagirdlərini hər gün saat 9-dan 10-dək məktəb idarəsində qeyd və qəbul edir. Dərslər isə 16 təşrini-sanidə başlanacaqdır.

*Məktəb idarəsi.*
*250 3-2*

### Bakı Vergi Bürosu

B. S. Borşşak vasitəsilə müştərilərə elan edir ki, əlavə gəlir vergisi barəsində şikayətlər ancaq bu il kanuni-əvvəlin [dekabrın] 1-inə (yaş üsuluyla) kimi qəbul ediləcəkdir.

Bu vaxtdan sonra şikayətlər qəbul edilməyəcəkdir.

Vergi vərəqəsini almayanlar dəxi hüquqlarını itirirlər.

Ünvan: Voronsovski caddədə nömrə 4 (Parapet küncündə).

Qəbul edilir hər gün axşam saat 6-dan 9-a kimi.

*260 2-1*

### "Türk Ocağı"

Cümə günü noybrayının 15 (28)-ində Nikolayevski küçədə Haşımovun mülkündə, sabiq Raboçi klubda Türk Ocağının salonunda Türkiyə səyahətindən dönmüş olan **Məhəmməd Əmin Rəsulzadə** əfəndi tərəfindən "Türkiyə xatiratı" ünvanında konfrans veriləcəkdir.

Konfrans saat 6-da başlanacaqdır.

Həqqi-düxuliyyə [daxil olma haqqı] Türk Ocağı nəfinə [xeyrinə] 2manat qərar qoyulmuşdur.

*261 1-1*

### Elan

Hal-hazırda əhali arasında təqsim edilən [paylanan] çayın eyi olmadığı şayiələrinin intişar tapmasından [yayılmasından] naşi [ötrü] Bakı Şəhər İdarəsinin Ərzaq şöbəsi Bakı şəhəri və ətrafı əhalisinə elan edir ki, camaat arasında təqsim edilən çay axırıncı dəfə xaricdən alınmışdır.

Bu yaxında xaricdən çay gözlənilmədiyindən, əhalinin bu çayı almaları arzu olunur.

*Bakı Şəhər İdarəsinin Ərzaq şöbəsi*

## ELANİ-RƏSMİ

**Polis Müfəttişi-Ümumiliyindən**

Keçən Türk-Rus müharibəsində Ərzurum və həvalisindən [ətrafından] tutulan müsəlman qadın və çocuqları Bakıya gətirilərək para müqabilində heyvanlar kimi satıldığı və ya sabiq rus hökuməti-imperatoriyəsi tərəfindən arzu edən əşxasa [şəxslərə] verildiyi əldə edilən iki müsəlman çocuğunun ifadəsi üzərinə yapılan təhqiqat nəticəsindən anlaşılmışdır.

Bu kimi müsəlman çocuqlardan hər kimdə var isə Polis Müfəttişi-Ümumiliyinə təslim etmələri və əks təqdirdə bu kimilərin çocuq ticarəti yapan canilər kimi dərdəst [tutularaq] və təcziyə ediləcəkləri [cəzalandırılacaqları] vaqe olan əmri-məxsus [xüsusi əmr] üzərinə elan olunur.

*723 5 - 1*

Türkcə savadlı, təcrübəli bir nəfər şəxs lazımdır ki, Varansovski küçədə, nömrə 7, "Professional" yazı kabinəsində yazı işlərinə məşğul olsun.

### At satılır

Ərəb cinsi, al rəngində at satılır. Yaşı 4 yarım, boyu 1 metrə 56 santim. Mənzil Müfəttişliyində Ərzaq şöbəsindən sormalı. Mariinski, 6 nömrə.

*259 1-1*

### Diş müalicəxanası
### S.M. İtkinin süni diş laboratoriyası

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

### Berlin Darülfünununun həkimi
### L. Melkumyans

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına "606" və "916" dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

*255*

### Diş həkimi Melçarski

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

*210*

### Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

### Doktor Kamilə xanım İsmayılov

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

*235*

### Doktor F. S. Şteyn

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

### Arvad diş həkimi Z. A. Şexter xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

### Doktor Ağahüseyn Kazımov

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

*244*

### Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216*

### Mama-feldşer M. K. Markoviç

Hamilə və azad olmuş qadınları qəbul edir.

Bədənə dərman vurur və masaj edir.

Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36.

Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

*240*

### Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Телеф. 36-91.

*236*

### Diş təbibəsi Altmanın diş müalicəxanası

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Maarif Nəzarəti əmrləri***

"9 təşrini-sani 1334": Burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 9 noyabr 1918-ci ilə uyğundur.

***Ziraət Nəzarətinin əmri***

"9 təşrini-sani 1334": Burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 9 noyabr 1918-ci ilə uyğundur.

***Teleqraf xəbərləri***

"Məhəlli məmurlar bu əsgərlərin Tiroldan keçib getmələrinə və dəmiryolundan istifadə etmələrinə mümaniət [maneə] göstərmişlərdir.": Qəzetdə "mümaniət" [maneə] yerinə "müavinət" [kömək] getmişdir.

"Bavariya Hərbiyyə vəziri…": Bavariyanın Hərbi naziri 11 dekabr 1916-cı ildən 8 noyabr 1918-ci ilə qədər Filip fon Hellinqrat, 8 noyabr 1918-ci ildən 21 fevral 1919-cu ilə qədər Albert Roshapter olmuşdur.

***Sülh ətrafında: Sülh müzakiratı***

"«F. T.» qəzetəsinin...": "Frankfurter Zeytunq" qəzeti nəzərdə tutulur.

***Almaniya ilə mütarikə şəraiti haqqında***

"Neçə gün bundan irəli «Hamburqer Fremdenblat»ın ədalətli bəyanında deyilir ki…": Cümlənin bu hissəsi səhv tərcümə edilmişdir. Belə olmalıdır: "Bir neçə gün bundan irəli «Hamburqer Fremdenblat»ın haqlı olaraq dediyi kimi…"

***Erməni-gürcü münasibatı***

"Bir hissəsini Gürcüstan, bir hissəsini Ermənistan, bir hissəsini özümüz yerləşdirəcəyimizi dəröhdə etdik.": Çıxışın bu hissəsi səhv tərcümə edilmişdir. Belə olmalıdır: "Təklif etdik ki, qaçqınların üçdə birini Ermənistanın sərhədləri daxilində qəbul etsinlər, üçdə birini Armavir rayonuna göndərsinlər, üçdə birini isə biz özümüzdə saxlamağa söz verdik."

***Nəzarətlərdə:***
***Posta və Teleqraf Nəzarətindən***

"Ümuri-zabitənin [idarəçilik işlərinin] müxtəlif məmurlarının...": Burada söhbət bəzi yüksək çinli dövlət məmurlarından gedir.

***Azərbaycan Posta və Teleqraf məktəbi təsisi***

"Edadi məktəblərin 5-inci sinfinə qədər təhsil görmüşlər üçün...": Ən az beşinci sinfə qədər təhsil görmüş şagirdlərin poçt və teleqraf məktəbində sürətləndirilmiş proqram əsasında təhsil alaraq, dörd aylıq kursları daha qısa müddətdə başa vurması nəzərdə tutulurdu.

"M. H.": Bu imza Hənəfi Zeynallıya məxsusdur.

***Rəsulzadə cənabları ilə müsahibə***

"Brest-Litovsk əlavə müahidənaməsinin...": Brest-Litovsk müqaviləsinə əlavə olaraq 27 avqust 1918-ci ildə Berlində imzalanan Almaniya-Rusiya sazişi nəzərdə tutulur. Bu sazişin Altıncı fəsli Qafqaz barəsində idi.

"Bu əlavə müahidənamə münasibətilə alman səfirinə...": Bu dövrdə Almaniyanın İstanbuldakı səfiri Bernstrof olmuşdur.

"Bizim heyətimiz təntənəli bir surətdə Türkiyə sultanı tərəfindən qəbul edildi.": Burada və davamında söhbət, Azərbaycan heyətinin 3 iyul 1918-ci il tarixində taxta çıxan Osmanlı sultanı VI Mehmed Vəhidəddini təbrik etməsindən gedir.

"Səlamlıq zamanında…": Osmanlı dövlətində padşahların cümə namazını xalqla birgə qılması, namazdan əvvəl və sonra xalqla görüşməsi adəti "səlamlıq", yaxud "cümə səlamlığı" adlanırdı.

***Azərbaycan Parlamanı dəvəti münasibətilə***

"X. İ.": Bu imza Xəlil İbrahimə məxsusdur.

# *DTX:* "Taleh Yusifov Azərbaycana ekstradisiya edilib"



Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) İran xüsusi xidmət orqanlarının nəzarəti altında Azərbaycan Respublikası vətəndaşlarının seçilərək qanunsuz silahlı birləşmə yaradılması, onlara ölkə hüdudlarından kənarda radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə xüsusi hərbi təlimlərin keçirilməsi, şəxsiyyətləri gizlədilərək başqa adlarla müxtəlif dövlətlərin ərazilərində terror-təxribat əməllərinin törədilməsinə cəlb olunmaları faktlarına görə başlanılmış cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri aparılır.

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ibtidai istintaq zamanı, 1967-ci il təvəllüdlü Azərbaycan Respublikasının vətəndaşı Yusifov Taleh Rəşid oğlunun şəxsi nüfuz və əlaqə imkanlarından istifadə edərək vətəndaşlarımızın İran İslam Respublikasının ərazisində yaradılan "Hüseyniyun" adlı qanunsuz silahlı birləşməyə cəlb edilməsini üçüncü ölkə ərazisindən təşkilini həyata keçirməsi, bu istiqamətdə görülən işlərin gizliliyini və maliyyələşdirilməsini təmin etməsi, "Təqi" ləqəbi altında qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirakına əsaslı şübhələr müəyyən edilib. Həmçinin müəyyənləşdirilib ki, Taleh Yusifov 2016-cı ilin əvvəllərində İran ərazisinə keçib Səfərov Yunis Rafiq oğlu (məhkum edilmişdir), Əsədov Rövşən Elçin oğlu və digərləri ilə birlikdə gizli yaratdıqları qanunsuz silahlı birləşmənin tərkibində müxtəlif silahlarla hərbi təlimlərdə iştirak edib, həmin şəxslərlə birgə Suriya ərazisində xarici mütəxəssislər tərəfindən xüsusi təyinatlı texnikaların tətbiqi ilə müşayiət olunan hərbi xarakterli əməliyyat tədbirlərinin planlaşdırılması, kəşfiyyat işlərinin aparılması ilə bağlı xüsusi təlimlər keçib.

Taleh Yusifov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılmasında və fəaliyyətində iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunub, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilib.

İstintaqla Taleh Yusifovun xarici ölkə ərazisinə keçdikdən sonra gizləndiyi yer müəyyən olunub və o, beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində saxlanılaraq Azərbaycana ekstradisiya edilib.

Hazırda cinayət işi üzrə araşdırmalar davam edir.


Azercell

## abunəçilərinin nəzərinə!

31/01/2023-cü il tarixdən etibarən, "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sistemində abunəçilərə təqdim edilən "Sərbəst" və "Gənc OL" tarif paketləri çərçivəsində aşağıdakı dəyişikliklər tətbiq ediləcək:

| | |
|---|---|
| "Sərbəst 6", "Sərbəst 10", "Sərbəst 15", "Sərbəst 25", "Sərbəst 50","Sərbəst 75" tarif paketləri çərçivəsində istifadə müddəti bitdikdə və paketlər yenilənmədikdə şəbəkədaxili zəngə görə | 0,08 AZN |
| "Gənc OL 2", "Gənc OL 6", "Gənc OL 9" tarif paketləri çərçivəsində istifadə müddəti bitdikdə və paketlər yenilənmədikdə şəbəkədaxili və tarifdaxili zəngə görə | 0,08 AZN |

**Qeyd:** Qiymətlər ƏDV daxil göstərilib. Hesablama intervalı 60 saniyə təşkil edir. Abunəçilər göstərilən dəyişikliklər, həmçinin "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# "Azercell" Bakıda beşinci nəsil şəbəkəsini test rejimində istifadəyə verdi

## 5G dəstəkli "Huawei", "Xiaomi", "OnePlus" və "Poco" smartfonlarının sahibləri Fəvvarələr meydanında yeni texnologiyanı sınaqdan keçirə bilərlər

**"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" strateji məqsədinə sadiq qalan "Azercell" Bakıda ilk 5G şəbəkəsini test rejimində işə salır.**




Xatırladaq ki, 2019-cu ildə 5G-nin pilot şəbəkəsini Azərbaycanda sınaqdan keçirən ilk mobil operator məhz "Azercell" olub. Şirkət yüksəksürətli yeni nəsil şəbəkəsini Tağıyev küçəsində yerləşən xidmət mərkəzində öz müştərilərinə nümayiş etdirib. Hazırda isə lider mobil operator beşinci nəsil rabitə standartını sınaq rejimində bütün Fəvvarələr meydanı ərazisi boyu istifadəyə verir.

5G lisenziyalı mobil cihazların sahibləri telefonlarının ekranında *595#YES yığmaqla istifadə etdikləri data paketləri çərçivəsində 5G sürətini sınaqdan keçirə bilərlər. Əlavə olaraq, lider mobil operatorun elan etdiyi xüsusi 5G kampaniyası çərçivəsində 31 yanvar 2023-cü ilə kimi 5G şəbəkəsini test edən abunəçilərə 5GB həcmində internet paketi hədiyyə ediləcək. Hədiyyəlik mobil data paketini müştərilər 30 gün ərzində istifadə edə biləcək.

Beşinci nəsil simsiz rabitə şəbəkəsi 1Gb/s.-ə qədər daha yüksək yükləmə sürəti, ultra-aşağı ləngimə, daha yüksək etibarlılıq, geniş şəbəkə tutumu və daha mükəmməl istifadəçi təcrübəsini təmin edir.

Qeyd edək ki, 5G dəstəkli "Apple" ve "Samsung" smartfonlarında isə bu texnologiyadan ölkə ərazisində istifadə etmək üçün hər iki istehsalçının xüsusi lisenziyası tələb olunur. Mobil operator sözügedən lisenziyaları əldə etdikdən sonra istehsalçılar müvafiq proqram təminatlarını yeniləyəcək və bu cihazlarda da 5G-nin yüksək sürətindən yararlanmaq mümkün olacaq.

Ümumiyyətlə, 5G texnologiyası hal-hazırda öz tətbiqini daha çox böyük sənaye şirkətlərində tapır: bura avadanlıqların uzaqdan idarə edilməsi, məsafədən asılı olmayaraq məlumat bazasına ani giriş imkanı və s. aid etmək olar. 5G yerli biznes və sənayelərdə innovativ həllərin sayını mühüm dərəcədə artırmaqla yanaşı, ucdan-uca müştəri təcrübəsinin tətbiqi üçün də daha geniş imkanlar yaradacaq. 5G texnologiyasının istehlakçı seqmentində tətbiqinə gəldikdə isə, bu imkanlar bütün dünyada inkişaf mərhələsindədir.




# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortalanması üzrə xidmətin satın alınması ilə bağlı elan edilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 19 dekabr 2022-ci il tarixli qərarına əsasən, əsas vəsaitlərin və nağd pulun sığortalanması üzrə "PAŞA SIĞORTA" ASC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların test edilməsi xidmətlərinin satın alınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 yanvar 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

# Növbəti "Komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən ordu sıralarında xidmət edən hərbi qulluqçuların hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, növbəti "Komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Buraxılış mərasimində kurs iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb. Çıxış edənlər hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu kimi kursların əhəmiyyətindən danışıblar, kursu müvəffəqiyyətlə bitirən məzunlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub, xatirə şəkili çəkdirilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Nizam, Əli, Rafiq, Mobil, Mehman və Arif Hüseynovlar, Əlövsət Əliyev, İlham İbrahimov, Ramiz və Nadir Saraclılar, İlham Həsənov ailələri ilə birlikdə Ağamirzə Dünyamalıyevə, Samir və Elmar Məmmədovlara əzizləri

**ƏNVƏR ƏLİ OĞLU QULİYEVİN**

Saratov şəhərində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

B.EST Solutions MMC şirkətinin kollektivi şirkətin rəhbəri Jana Krimpenə

**ATASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 538-97-96, 539-84-41, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6491**
**Sifariş 3765**
**Qiymәti 40 qəpik**